Xalqın qəzeti!
# Xalq qəzeti
№ 253 (30369) 21 noyabr 2023-cü il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

## Futbol üzərindəki məkrdən De Byazinin "Fiat" minnətinədək

### Belçikada dövlət himnimizə qarşı hörmətsizliyə sözardı

**Bəlkə də məsələni adi təsadüf kimi qiymətləndirmək olardı. Amma fikrimizcə, bəzi məqamlar var ki, onlara diqqət yetirəndə, görürsən ki, yox, burada hər şey heç də adi deyil. Məsələ, kifayət qədər incə düşünülüb. Söhbət Azərbaycanın futbol üzrə millisinin noyabrın 19-da Avropa çempionatının seçmə mərhələsində Belçika ilə keçirdiyi səfər qarşılaşmasını öncəsi dövlət himnimizin yerinə, İsveçin himninin səslənməsindən gedir.**

Məlum olduğu ki, hadisə o an futbolçularımızda, eləcə də texniki heyətdə çaşqınlıq və narazılıq doğurdu. Sonra stadionda üzrxahlıq səsləndirildi. Üzrxahlıq edən diktor idi, daha doğrusu stadionun diktoru. AFFA-nın mətbuat katibi Elnur Məmmədlinin açıqlamasına görə, üzrxahlıqdan sonra kimlərsə oyuna başlamaq istəyiblər. Lakin millimizin heyəti himnin səslənməyəcəyi təqdirdə, meydanda qalmayacaqlarını bildirib.

Əlbəttə, himn səsləndi, matç başladı və necə bitdi bu barədə də danışacağıq. Çünki düşünməyə əsas var ki, oyundan əvvəl yaşananlarda da, elə yekundakı hesabda da müəyyən mesaj var. İzah edək niyə?



Əvvəla, bildirdiyimiz kimi, E.Məmmədlinin açıqlamasından gəlinən qənaət budur ki, üzrxahlıqdan sonra oyunun başlanmasını istənilməsi, məqsədin ümumən himni səsləndirməmək olduğunu ortaya qoyur. Görüblər ki, futbolçularımız və texniki heyətimiz direniş göstərir, bundan sonra məsələni böyütməmək qərarına gəliblər. Axı, hər bir halda himn çalınmasaydı, nəticədə matç baş tutmasaydı, bu, meydan sahibi, matçın təşkilatçıları, eləcə də beynəlxalq futbol qurumu olan UEFA üçün baha başa gələrdi...

Bəli, söhbət idmanı siyasətə alət etmək cəhdindən gedir. Nəzərə alaq ki, Belçika və onun paytaxtı Brüssel elə-belə yer deyil. Hələ onu demirik ki, burada erməni lobbi və diaspor təşkilatları, kifayət qədər, aktivdirlər. Bu, öz yerində. Başlıca məqam Avropanın aparıcı strukturlarının yerləşdiyi ölkənin həm də kollektiv Qərbin münasibət parametrlərinin ifadə olunduğu məkan kimi xarakterizə edilməsidir.

(ardı 7-ci səhifədə)

# İraqla ölkəmizin dostluq və əməkdaşlığı möhkəmlənir

## Rəsmi qarşılanma mərasimi



**Azərbaycan Respublikasına rəsmi səfərə gələn İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin noyabrın 20-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İraq Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev İraq Prezidenti Əbdüllətif Camal Rəşidi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İraq Prezidentinə raport verdi.

Prezident Əbdüllətif Camal Rəşid Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İraq Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti İraq Prezidentinə, İraq nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və İraq Prezidenti Əbdüllətif Camal Rəşidin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru

Səhifə ⇨ 4

## Rusiya–Ukrayna müharibəsi: "Dronların savaşı"

**Rusiya ilə Ukrayna hərbçiləri arasında ağır döyüşlər davam edir. Ötən həftə üç ərazidə – Luqansk və Donetsk vilayətlərində, eləcə də Xerson bölgəsində, Dnepr çayının şərq sahilində şiddətli quru döyüşləri gedib. Məlumatı UNİAN agentliyi yayıb.**

(ardı 15-ci səhifədə)



## Klaarsayağı ermənipərəstlik



Səhifə ⇨ 6

## ABŞ-ın ikili standartı və Avropanın ondan asılılığı

Səhifə ⇨ 12

## Çanaq Ermənistanın başında çatlayacaq



**Az sonra məlum olacaq ki, Ermənistan qərbli və şərqli "bacı və qardaşlarından" aldığı çoxsaylı hərbi texnika və avadanlığı idarə edəcək qədər insan resursuna malik deyil. Axı, son illər mənfi demoqrafiyanın müşahidə edildiyi Hayastan əhalisinin bir qismi, xüsusilə də gənclər ölkəni kütləvi şəkildə tərk edərək xaricə üz tuturlar.**

Ordusuna yetərincə çağırışçı toplaya bilməyən İrəvan yeni hərbi texnologiyanın "sirlərini" öyrənməli kontingenti haradan tapacaq? 2020-ci ilin noyabrından etibarən Fransadan, Hindistandan müxtəlif təyinatlı silah-sursat alan Paşinyan hökuməti bununla iki ölkə arasında hərbi-siyasi balansı öz xeyrinə dəyişmək kimi xam xəyallara qapılıb. Bəs son üç ildə azı üç dəfə Azərbaycandan hərbi məğlubiyyətini dadan Ermənistanın intensiv silahlanma siyasəti yürütməsinin səbəbi və məqsədi nədir? Əvvəlcə səbəbi nəzərdən keçirək.

Keçən həftə ATƏT Parlament Assambleyasının İrəvanda keçirilən payız sessiyasında çıxışında Nikol Paşinyan Bakının irəli sürdüyü "Qərbi Azərbaycan konsepsiyası"nın arxasında yeni eskalasiya təhlükəsi gördüyünü iddia edib. Yəni, baş nazir demək istəyir ki, Bakı otuz beş il əvvəl doğma yurdlarından qovulmuş azərbaycanlıları geriyə – Qərbi Zəngəzura qaytarmaqdan ötrü guya Ermənistana hərbi təcavüz etməyə hazırlaşır. O, "tutarlı və inandırıcı" bəhanə kimi düşündüyü bu dezinformasiyanın Avropadakı, eləcə də okeanın o tayındakı tərəfdaşlarının dilindən səsləndirilməsinə də nail olub. Bundan məqsədi isə başlatdığı piar texnologiyanın vasitəsilə xarici aktorların Azərbaycana siyasi təzyiqlərini artırmalarına nail olmaq və bunun müqabilində sülh danışıqlarında Bakıdan hansısa güzəşt qoparmaqdır. Silahlanma ilə dəstəklənən, "Azərbaycan Ermənistanın cənub bölgəsinə hərbi təcavüzə hazırlaşır" səpkili feyk-ajiotaj məhz həmin məqsədə çatmağa hesablanıb.

(ardı 7-ci səhifədə)

## Paşinyan hökuməti Qarabağ ermənilərinin geri dönüşünə qarşıdır

Səhifə ⇨ 6

## Azərbaycan "yaşıl gücü"nü sürətlə yüksəldir



**Energetika naziri Pərviz Şahbazov ikinci "Qlobal Cənubun səsi" Sammiti çərçivəsində keçirilən sessiyada onlayn formatda çıxışı zamanı 2027-ci ilədək 1870 MVt həcmində "yaşıl güc"lərin ölkəmizin enerji sisteminə inteqrasiyası nəticəsində bərpaolunan enerji payının elektrik enerjisinə kapital qoyuluşunda 33 faizə, elektrik enerjisinin istehsalında isə hazırkı 7 faizdən 25 faizə çatacağının proqnozlaşdırıldığını bildirib.**

Nazir bu göstəricinin 2030-cu ilə 30 faizlik hədəfin artıqlaması ilə yerinə yetirilməsi demək olduğunu vurğulayıb. P. Şahbazovun sözlərinə görə, rəsmi Bakı beynəlxalq enerji şirkətləri ilə qarşıdakı onillikdə daxili istehlak, iqtisadiyyatın dekarbonizasiyası və ixrac məqsədilə 10 QVt-dək "yaşıl enerji" layihələrinin reallaşdırılması üzrə əməkdaşlıq edir.

(ardı 8-ci səhifədə)

# Prezidentlərin təkbətək görüşü



**Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə təkbətək görüşü keçirilib.**

Dövlətimizin başçısı İraq Prezidentinin Qoşulmama Hərəkatının Zirvə toplantısı çərçivəsində Azərbaycana səfərini və keçirdikləri görüşü məmnuniyyətlə xatırladı. İraq Prezidentinin ölkəmizə ilk dəfə rəsmi səfərə gəlməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev bu səfərin və səfər zamanı aparılacaq müzakirələrin ölkələrimiz arasında əlaqələrin daha da inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi.

Dövlətimizin başçısı İqtisadi-ticari, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın yaxın vaxtlarda İraqda iclasının keçiriləcəyini və onun iqtisadi-ticari əlaqələrin daha da genişlənəcəyində mühüm rol oynayacağını dedi.

İraq Prezidenti Azərbaycan ilə əlaqələrin daha da inkişafında əzmli olduqlarını vurğuladı, səfər çərçivəsində imzalanacaq sənədlərin əlaqələrimizin genişlənməsinə böyük töhfə verəcəyini bildirdi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birinin mövqelərini dəstəklədiyi məmnunluqla vurğulandı, Azərbaycanın və İraqın işğaldan əziyyət çəkdiyi, amma bu vəziyyətin keçmişdə qaldığı qeyd edildi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadiyyat, energetika, mədəniyyət, elm, təhsil və turizm sahələrində əməkdaşlıq məsələlərinin inkişafı üçün əlverişli imkanların olduğu bildirildi.

# Geniş tərkibdə görüş



**Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə geniş tərkibdə görüşü olub.**

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Cənab Prezident, hörmətli qonaqlar, bir daha Azərbaycana xoş gəlmisiniz.

Biz artıq cənab Prezidentlə əməkdaşlığımız, regionlarımızda siyasi proseslərlə bağlı müxtəlif məsələlərə dair çox yaxşı müzakirə apardıq. İndi isə biz nümayəndə heyətlərinin iştirakı ilə vacib məsələlərin müzakirəsini davam etdirəcəyik. Gələn ay bizim nümayəndə heyəti birgə iqtisadi komissiyada iştirak etmək üçün İraqa səfər edəcək. Biz artıq ticarət, iqtisadi və enerji gündəliyimizlə bağlı məsələləri qismən müzakirə etdik.

Beləliklə, ilk növbədə, biz cənab Prezidenti Azərbaycana rəsmi səfərdə qəbul etməkdən çox şadıq. Bu, ikitərəfli əlaqələrimizin tarixində çox əlamətdar hadisədir. Bu, Azərbaycan müstəqil ölkə olandan bəri İraq Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, səfər çox yaxşı nəticələr verəcək. Beləliklə, indi biz iqtisadi-ticari əməkdaşlıqla bağlı mühüm məsələlərin müzakirəsini davam etdirəcəyik. Əminəm ki, bu, həmçinin gələn ay Bağdadda keçiriləcək görüşün yaxşı nəticələrinə müsbət töhfə olacaq. Cənab Prezident, bir daha xoş gəlmisiniz.

***

**Prezident Əbdüllətif Camal Rəşid çıxış edərək dedi:**

– Təşəkkür edirəm, cənab Prezident, Sizi görmək hər zaman xoşdur. Əlaqələrin gücləndirilməsi, ticarət, siyasət, eləcə də beynəlxalq məsələlərə dair Sizdən məsləhət almaq çox yaxşı haldır. Biz iki ölkə arasında əlaqələrimizi daha da gücləndirməkdə çox qətiyyətliyik. Gələn ay sizin nümayəndə heyətini qəbul etməyi gözləyirik və ümidvaram ki, o, çox səmərəli olacaq. Azərbaycana bütün səfərlər səmərəli olur. Bu gün bizim nümayəndə heyətlərimiz iki ölkə arasında bəzi anlaşma memorandumlarının imzalanmasına hazırdır.

# Azərbaycan–İraq sənədləri imzalanıb



**Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.**

Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və İraq Respublikasının əmək və sosial işlər naziri Əhməd Cassim Sabir Əl-Əsədi “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İraq Respublikasının Əmək və Sosial İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu imzaladılar.

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev və İraq Respublikasının Turizm Xidmətinin rəisi Zafer Mahdi “Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə İraq Respublikasının Mədəniyyət, Turizm və Tarixi Abidələr Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və İraq Respublikasının xarici işlər nazirinin müavini Məhəmməd Hüseyn Bəhr Əl-Ulum “Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İraq Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumu”nu imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və İraq Respublikasının Mülki Aviasiya Baş İdarəsinin rəisi İmad Əl-Əsədi “Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş”i imzaladılar.

# İlham Əliyevin və Əbdüllətif Camal Rəşidin bəyanatları



**Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz. Sizi yenidən görməyə çox şadam. İraq Prezidenti ölkəmizə bu ilin əvvəlində Qoşulmama Hərəkatının Zirvə görüşü ilə bağlı səfər etmişdi və görüşümüz zamanı mən cənab Prezidenti Azərbaycana rəsmi səfərə dəvət etmişdim. Çox minnətdaram ki, dəvətim qəbul olundu və Prezident bizim qonağımızdır.

Əminəm ki, bu səfər ölkələrimiz arasında dostluq münasibətlərinin güclənməsinə töhfə verəcək və əməkdaşlığımızda yeni səhifə açacaq. Yeri gəlmişkən, bu, diplomatik əlaqələr tarixi boyunca İraq Prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Ona görə də bu, tarixi səfərdir.

Biz təkbətək görüşümüz zamanı və nümayəndə heyətləri ilə görüşdə ikitərəfli gündəliyimizin bir çox məsələlərini müzakirə etdik, faktiki olaraq gələcək əməkdaşlığımız üçün əsas istiqamətləri müəyyənləşdirdik. Biz sözsüz ki, beynəlxalq təsisatlarda bir-birimizi dəstəkləməyə davam edəcəyik. İraq və Azərbaycan müxtəlif beynəlxalq təsisatlarda hər zaman həmrəylik nümayiş etdirir. Biz BMT-də, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında hər zaman bir-birimizi dəstəkləyirik, bir-birimizin suverenliyini və ərazi bütövlüyünü müdafiə edirik.

Cənab Prezident qonşu Ermənistana da səfər edəcək. Ona görə də mən fürsətdən istifadə edərək iki ölkə arasındakı hazırkı vəziyyətlə bağlı qonağımı məlumatlandırmaq istəyirəm. Əlbəttə, hazırda baş verənlərin dəqiq təhlili üçün bizim hamımız keçmişimizə, 1990-cı illərin əvvəlində nə baş verdiyinə nəzər salmalıyıq.

1990-cı illərin əvvəlində Ermənistan Azərbaycana qarşı təcavüzə başladı, bu, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən 20 faizinin işğalı ilə nəticələndi, etnik təmizləmə siyasəti həyata keçirdi ki, bu da bir milyondan çox azərbaycanlının keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və ətraf rayonların ərazisindən fiziki qovulması ilə nəticələndi.

Beləliklə, qeyd etdiyim kimi, bu, ərazimizin təqribən 20 faizini təşkil edirdi və uzun illər ərzində onlara məxsus olmayan ərazini geri qaytarmaqdan imtina edirdi. Faktiki olaraq sıfır nəticələrə gətirib çıxarmış müxtəlif beynəlxalq vasitəçilik səylərinə baxmayaraq, Ermənistan bizim torpaqlarımızı həmişəlik işğal altında saxlamaq istəyirdi. Mandatı işğala son qoymaq üçün həll yolu tapmaqdan ibarət olan ATƏT-in Minsk qrupu yaradılandan 28 il sonra Azərbaycan beynəlxalq səviyyədə tanınmış ərazilərini özü döyüş meydanında, hərbi gücdən və BMT Nizamnaməsinin özünümüdafiə hüququna dair 51-ci maddəsi ilə bizə verilmiş qanuni imkandan istifadə edərək işğaldan azad etdi.

Biz ümid edirdik ki, bundan sonra Ermənistan öz öhdəliklərinə əməl edəcək və hərbi kontingentinin qalan hissəsini Azərbaycan ərazisindən çıxaracaq, lakin bu, baş vermədi. Biz demək olar ki, 3 il çox səbirli olduq, Ermənistanla birbaşa təmaslarımız, beynəlxalq vasitəçilər vasitəsilə mesaj göndərməyə çalışdıq ki, bu, qəbuledilməzdir, biz hətta Azərbaycanın kiçik bir hissəsində qanunsuz separatçı rejimin olmasına imkan verə bilmərik. Qeyd etdiyim kimi, işğal olunmuş ərazilərin böyük hissəsi 2020-ci ildə azad edilmişdi. Əfsuslar olsun ki, Ermənistan hökuməti bizə qulaq asmadı, Qərbdəki məsləhətçilərinə qulaq asdı. O məsləhətçilər isə onlara yaxşı məsləhət vermədilər. Əfsuslar ki, onların məsləhəti hərbi kontingenti bizim ərazimizdə mümkün qədər çox saxlamaqdan ibarət oldu.

Bizim səbrimiz bu ilin sentyabrında tükəndi və biz beynəlxalq hüquqa tam riayət edərək öz suveren ərazimizdə antiterror əməliyyatını apardıq. Bu əməliyyat 24 saatdan az davam etdi və mülki əhali arasında itkilər olmadı. Düşünürəm ki, indi Yaxın Şərqdə müşahidə etdiklərimizə münasibətdə bu antiterror əməliyyatı mülki əhali arasında hərbi əməliyyatları itkisiz necə aparmaq lazımdır nöqteyi-nəzərdən bir örnək hesab olunmalıdır.

Bunun nəticəsində Dağlıq Qarabağdakı qeyri-qanuni rejim süquta uğradı. Onun qeyri-qanuni olmasına baxmayaraq, onlar özləri “dağlıq qarabağ respublikası” adlandırdıqları bu qeyri-qanuni qurumu buraxdılar. Biz suverenliyimizi bərpa etdik və indi Azərbaycan Bayrağı ərazimizdə hər yerdə dalğalanır.

Beləliklə, bu, vəziyyətin tarixçəsidir. İndi isə biz növbəti mərhələyə gəlirik. Növbəti mərhələdə isə biz – mən bunu cənab Prezidentə bildirdim, – Ermənistandan təklifimizə dair qeydləri gözləyirik. Biz bir neçə dəfə sülh müqaviləsinin layihəsi ilə bağlı təklifləri mübadilə etmişik. Lakin indi biz sentyabrın 11-dən bəri Ermənistan hökumətindən bu qeydlərlə bağlı rəyinin nədən ibarət olduğuna dair cavab verməsini iki aydan artıqdır ki, gözləyirik və bizə heç bir cavab gəlməyib.

Yenə də bunun səbəbinin onlara pis məsləhətlərin, xüsusilə Fransadan pis məsləhətlərin verilməsinin olduğunu düşünürəm. Fransa Cənubi Qafqazda çox destruktiv rol oynayır. Əslində, indi Ermənistan Fransa hökumətinin marionetinə çevrilib və bu, regional sabitliyə ciddi təhlükə ola bilər. Bizə heç bir müharibə lazım deyil. Biz öz ərazimizdə vuruşurduq və ədaləti, beynəlxalq hüququ bərqərar etdik. Lakin Ermənistan hökuməti və siyasi establişmenti qisas haqqında düşünür. Fransa hökumətindən gələn yanlış mesajlar, əslində, Ermənistan hökumətində və ola bilsin ictimai rəyində onların Azərbaycana qarşı növbəti hərbi təcavüzə başlaya biləcəklərinə dair illüziya yaradır. Ermənistanı silahlandırmaqla, hansı ki, Fransa qürur duyur və bunu ictimai şəkildə bildirir, Ermənistan yeni bir müharibəyə başlamaq qərarı versə, bu, ona kömək etməyəcək. Nəticə eyni olacaq. Heç kəs onlara kömək etməyəcək. Üç il bundan əvvəl Fransa onlara kömək etdi? Xeyr. İki ay bundan əvvəl onlara kömək etdi? Xeyr. Onlar burada nə edə bilərlər. Heç nə.

Odur ki, Ermənistan öz gələcəyini regionumuzdan uzaqda yerləşən ölkələrin ambisiyaları üzərində deyil, öz milli maraqlarına əsasən planlaşdırmalıdır. Xüsusilə qanlı müstəmləkə keçmişinə malik olan ölkələrin ambisiyaları üzərində qurmamalıdırlar. Bunların müstəmləkə siyasəti əsasən dünyanın müxtəlif yerlərində müsəlman əhalisinə qarşı yönəlmişdir.

Hesab edirəm ki, qeydlərimiz ilə bağlı Ermənistandan nə qədər tez cavab alsaq bir o qədər də yaxşı olar. Heç bir beynəlxalq təzyiq Azərbaycan xalqının və Azərbaycan hökumətinin iradəsinə təsir göstərə bilməz. Ermənistan indi dünyanın müxtəlif yerlərində olan diaspor təşkilatlarından Azərbaycana hər yerdə hücum etmək üçün istifadə edir. Lakin onlar üçün bu, sıfır nəticə verəcək. Biz sülhə hazırıq, lakin ədalətli sülhə, hər iki ölkənin ərazi bütövlüyünün və suverenliyinin tanınması əsasında olan sülhə. Biz sağlam düşüncəyə və tarixi ədalətə əsaslanan sülhə hazırıq. Beləliklə, mən həmkarımı bu barədə məlumatlandırdım ki, Cənubi Qafqazda real vəziyyəti daha yaxşı anlamaq mümkün olsun.

Bizim ikitərəfli əlaqələrimizə gəldikdə demək istəyirəm ki, biz iqtisadi əməkdaşlıq məsələsini geniş şəkildə əhatə etdik. İki həftədən sonra nümayəndə heyətimiz hökumətlərarası komissiyanın yeni iclasının keçirilməsi üçün Bağdada səfər edəcək. Bizim qarşılıqlı ticarətin necə artırılması ilə bağlı böyük planlarımız var. Həmçinin bu gün enerji sahəsində əməkdaşlıq məsələsini də müzakirə etdik. Növbəti ay nümayəndə heyətimizin səfəri zamanı bu məsələ yenə müzakirə olunacaq.

Biz müdafiə sənayesi, turizm sahələrində əməkdaşlıq imkanlarını müzakirə etdik. Artıq bizə bu gün nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə məlumat verildi ki, iki paytaxt arasında birinci birbaşa uçuş baş tutub. Növbəti həftələrdə bizim Kərkük, Ərbil və Bəsrə şəhərlərinə də birbaşa reyslərimiz olacaq. Biz hər iki istiqamətdə çox sayda turistlərin səyahət edəcəyini gözləyirik. Əlbəttə ki, biz vizaların verilməsi prosesini sadələşdirmək üçün növbəti hansı addımların atılmasını da müzakirə etdik. Əminəm ki, səfərin nəticələri çox yaxşı olacaq. Biz bir daha ölkələrimiz arasında dostluq münasibətlərinin olduğunu təsdiq etdik. Dialoqumuzun davam etdirilməsi əminəm ki, yeni yaxşı nəticələrə gətirib çıxaracaq və bizim əməkdaşlıq güclənəcək. Bir daha cənab Prezident xoş gəlmisiniz və bizimlə bir yerdə olduğunuz üçün Sizə təşəkkür edirəm.

***

**Sonra İraq Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident Əbdüllətif Camal Rəşidin bəyanatı

– Cənab Prezident, hörmətli həmkarlar, xanımlar və cənablar!

Burada olmağa çox şadam. Bu, mənim cənab Prezidentin nəzakətli dəvəti ilə Azərbaycana ikinci səfərimdir. Bizi buraya dəvət etdiyiniz üçün Sizə təşəkkür edirəm.

Düşünürəm ki, səfərimiz çox səmərəli və çox faydalı oldu. Əməkdaşlığımız keçmişdəkindən daha da güclü olmaq üzrədir. Biz bir çox fəaliyyət sahələrində – infrastrukturun inşası, ticarət, neft və qaz, transmilli layihələr, eyni zamanda, İraqa investisiyalar, eləcə də turizm və təhsilin, həmçinin iki ölkə üçün çox əhəmiyyət kəsb edən sahələrin təşviqi ilə bağlı əməkdaşlıq edə bilərik.

Cənab Prezident, icazə verin, Sizə yeni İraqı qısaca təsvir edim, mən onu yeni İraq adlandırıram. Əminəm ki, Zati-aliləri bizim tariximizi, uzun müddət ərzində diktatorluq dövründə, xalq tərəfindən sevilməyən müxtəlif hökumətlər, hərbi hökumətlər, eyni zamanda, birpartiyalı hökumətlər və ya bir şəxsin hökuməti dövründə çəkdiyimiz əziyyətləri bilir. Bu, xeyli müddət davam etdi və bizdə daxili münaqişələrə, bəzən müharibələrə, İraqdakı icmalar arasında, icmalar və hökumət arasında toqquşmalara, İraqla qonşu ölkələrimiz arasında müharibəyə, hətta beynəlxalq ictimaiyyətə meydan oxumağımıza səbəb oldu. İraqın davranışı beynəlxalq ictimaiyyət və qonşularımız tərəfindən qəbul edilmirdi. Bu da İraqın işğalına gətirib çıxardı və eyni zamanda, işğaldan sonra biz terror hücumlarından əziyyət çəkdik. Sonuncu terror hücumları İŞİD-in İraq əhalisinə, İraq şəhərlərinə və İraq mərkəzlərinə hücumları oldu.

Lakin bunun keçmişdə qaldığını Sizə məlumat verməkdən şadam. İraq yaxşı, sağlam vəziyyətdədir. Bizdə sülh, təhlükəsizlik hökm sürür, eyni zamanda, xalq tərəfindən seçilmiş hökumət var. Geniş parlament fəaliyyətimiz var, İraq parlamentinin üzvlərinin ümumi sayı 330 nəfərdir. Biz hökuməti seçmişik və İraq Prezidentini seçmişik. Bu dövr ərzində, baxmayaraq ki, bu qənaətə gəlmək çox vaxt apardı, bu, İraq dövləti üçün faydalı oldu. Çünki biz bu qərarları İraqdakı müxtəlif millətlərlə, müxtəlif dinlər və müxtəlif siyasi partiyalarla dialoq, anlaşma və əməkdaşlıq sayəsində verdik. Onların hamısı bu nəticəyə nail olunmasına öz töhfəsini verdi.

*(ardı 3-cü səhifədə)*

# İlham Əliyevin və Əbdüllətif Camal Rəşidin bəyanatları

**(əvvəli 2-ci səhifədə)**

Qeyd etdiyim kimi, hökumət bir il bundan əvvəl formalaşdırılıb və Prezident hökumət seçiləndən əvvəl seçilib. Bizim parlamentimiz bir ildir ki, fəaliyyət göstərərək İraqdakı məsələlərlə məşğul olur və hökumət ehtiyac olanları həyata keçirməyə çalışır.

Biz məsuliyyətimizi iki əsas hissəyə bölmüşük. Birincisi, infrastrukturumuzu inkişaf etdirmək, ikincisi, xidmətlərimizi yenidən qurmaq. Münaqişələr, müharibələr dövründə İraqdakı bütün infrastruktur zədələnmişdi və bütün xidmətlər geri qalırdı, ona görə də biz İraqın ehtiyacı olduğunu yenidən qurmağa, inkişaf etdirməyə və möhkəmləndirməyə çalışırıq.

İraqın iqtisadiyyatı yaxşıdır. Biz neft hasil edirik, bu, gündə 4–4,5 milyon barel təşkil edir. Bizim kənd təsərrüfatımız, su ehtiyatlarımız var. Düşünürəm ki, İraq iqtisadiyyatı indi yaxşı vəziyyətdədir və gələcəkdə hətta daha da yaxşı olacaq. Biz enerji, neft, kənd təsərrüfatı və digər sahələrlə bağlı çoxmillətli layihələrə start vermişik.

Hesab edirəm ki, bizim buraya səfərimiz faydalıdır və ümid edirik ki, bu səfərlər təkrarlanacaq. Çox şadam ki, Azərbaycan nümayəndə heyəti tezliklə İraqa səfər edəcək. Sizin də qeyd etdiyiniz kimi, cənab Prezident, biz yenə də əməkdaşlıq üçün və bir çox sahələrdə əməkdaşlığın başlanılması üçün zəruri olan bütün məsələləri müzakirə edəcəyik.

Hesab edirəm ki, İraqda biznes üçün və Azərbaycan üçün İraqda biznes imkanları ilə bağlı yeni bir mühit yaratmalıyıq. Cənab Prezident, Azərbaycanda sülh və sabitliyə nail olmağınız münasibətilə Sizi təbrik edirəm. Eyni zamanda, Ermənistanla sülh müqaviləsinin yekunlaşdırılması məsələsində Sizə uğurlar arzulayıram. Düşünürəm ki, müharibə və münaqişələr yalnız vəziyyətin pisləşməsinə gətirib çıxara bilər. Bununla heç bir problem həll edilə bilməz. Hesab edirəm ki, bütün problemlərimiz dialoq, qarşılıqlı anlaşma və əməkdaşlıq əsasında həll olunmalıdır.

Əfsuslar olsun ki, bütün Yaxın Şərq regionu,- bu, hətta bütün dünyaya da təsir edib,- yeni münaqişədən, fələstinlilərin hüquqları ilə bağlı olan münaqişədən əziyyət çəkir. İraqın bu məsələdə mövqeyi çox aydındır. Biz bütün fələstinlilərin hüquqlarını tamamilə dəstəkləyirik, istər onlar Qəzza zolağının Qərb sahilində olsun, istər Qəzza zolağında və dünyanın başqa bir yerində olsun. Biz ümid edirik ki, fələstinlilər öz milli hüquqlarını tamamilə əldə edəcəklər və biz tezliklə fələstinlilərin öz dövləti olacağına da ümid edirik.

Bu münaqişə real olaraq həll olunmazsa, bütün regionda gərginlik qalacaq, sülhə və sabitliyə nail olunmayacaq. Biz Fələstin xalqının dərdinə şərikik və Fələstin xalqını dəstəkləyirik. İraqın bu məsələdə mövqeyi birinci gündən çox aydındır və biz beynəlxalq birliyi öz mövqeyimiz barədə məlumatlandırmışıq. Biz Qəzzada mülki əhaliyə hücum edib öldürülməsi, məktəb və xəstəxanaların, yaşayış binalarının və mülki infrastrukturun dağıdılması hallarını qınayırıq. Ümid edirəm ki, bu böhranlı vəziyyət tezliklə sona çatacaq və Fələstin xalqı öz torpaqlarında öz hüquqlarına yiyələnəcək.

Cənab Prezident, hesab edirəm ki, təfərrüatı ilə müzakirə edə biləcəyimiz bir neçə mövzu var, lakin mən bu razılaşmalara nail olmaq və ya mövcud olduğu halda açıq qalan problemləri həll etmək üçün bunu hər iki ölkədən olan müxtəlif nazirliklərin və təşkilatların öhdəsinə buraxıram.

Hər iki ölkə arasında əməkdaşlığın daha da yaxşılaşması məni sevindirir və biz Sizinlə əlaqə saxlayacaq və nümayəndə heyətinizi onlara münasib olan vaxtda və zəruri olduqda iki ölkə arasında birbaşa reyslər vasitəsilə nəqliyyat əlaqələrini qurmaqla qəbul etməyə və eyni zamanda, Sizin təcrübənizdən faydalanmağa hazırıq.

Yekunda əldə etdiyiniz nailiyyətlər münasibətilə Sizi təbrik etmək istəyirəm. Mən təkcə Bakını görmüşəm, başqa yerləri görməmişəm. Lakin Bakıda infrastruktur, binalara və şəhərdə təşkilati məsələlərə münasibətdə gördüklərim əsasında Sizi təbrik edirəm. Bu, istənilən ölkə üçün heyrətamiz bir nailiyyətdir və siz hamınız Bakıda yaşamaqdan qürur hissi duymalısınız.

Bir daha, cənab Prezident, bizi dəvət etdiyinizə görə çox sağ olun. Sizin həmkarlarınızla bir yerdə vaxt keçirmək bizim üçün çox xoş idi. Bir daha Sizə ən xoş arzularımı çatdırır və gələcəkdə uğurlar diləyirəm.

# Azərbaycan Prezidentinin adından İraq Prezidentinin şərəfinə rəsmi nahar verilib



*Noyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidin şərəfinə rəsmi nahar verilib.*

# Qoşulmama Hərəkatının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda Konfransının iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Qoşulmama Hərəkatının tarixində ilk dəfə olaraq "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda keçirilən Konfransda sizi salamlayıram.

Üzv dövlətlərin yekdil qərarı ilə Azərbaycan 2019-cu ildə BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatının sədri seçilmişdir. Sədrliyimizin müddətinin yekdilliklə 2023-cü ilə qədər bir il daha uzadılması Azərbaycanın Hərəkat çərçivəsində fəaliyyətinə verilən yüksək qiymətin göstəricisidir. Biz ölkəmizə olan bu etimadı yüksək qiymətləndiririk.

Azərbaycan sədrliyi dövründə Bandunq Prinsiplərinə sadiq qalaraq Qoşulmama Hərəkatının gündəliyinin irəlilədilməsi və beynəlxalq aləmdə nüfuzunun artırılması istiqamətində mühüm səylər göstərmişdir.

Qeyd etmək lazımdır ki, məhz Qoşulmama Hərəkatı COVID-19 pandemiyasına qarşı qlobal səylərin səfərbər olunmasında aparıcı rol oynamışdır. 2020-ci ilin dekabr ayında Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının COVID-19 ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyası təşkil edilmişdir.

Biz bəzi ölkələrin yürütdüyü "vaksin milliyyətçiliyi" siyasətinə səssiz qalmadıq və vaksinlərin ədalətli şəkildə bölüşdürülməsini təşviq etdik. Humanist dəyərləri əsas götürərək Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatına üzv dövlətlər olmaqla 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım göstərdi. Bununla yanaşı, bu il Azərbaycan Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərində pandemiyanın fəsadlarının aradan qaldırılması məqsədilə maliyyə vəsaitinin ayrılması barədə qərar qəbul etdi.

Sədrliyimiz dövründə Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində də mühüm addımlar atılmışdı. Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Qoşulmama Hərəkatının Gənclər Təşkilatı təsis edilmişdir. Bu ilin iyul ayında Hərəkatın Bakıda keçirilmiş konfransı zamanı Qoşulmama Hərəkatının Qadınlar Platformasının yaradılması təklifi tərəfimdən irəli sürülmüşdür.

Həmçinin Azərbaycan sədrliyi dövründə dekolonizasiya gündəliyinə xüsusi diqqət ayırmışdı. Biz bəzi ölkələr, xüsusilə də Fransanın yürütdüyü neokolonializm siyasətini qlobal səviyyədə ifşa etmiş, bu utancverici praktikaya son qoyulması tələbini səsləndirmişik.

Kolonializm qadınların hüquqlarına da mənfi təsir göstərmişdir. Bu xüsusda, konfransa paralel olaraq müvafiq mövzuda tədbirin keçirilməsini alqışlayıram.

Qadınların hüquqlarının müdafiəsi, cəmiyyətdə rolunun gücləndirilməsi Qoşulmama Hərəkatının gündəliyində önəmli yer tutur. Hərəkat tərəfindən ardıcıl olaraq qəbul edilmiş sənədlərdə, o cümlədən 2019-cu il Bakı Zirvə toplantısının yekun sənədində bu mövzuya xüsusi diqqət yetirilmiş və bu sahədə üzv dövlətlərin öhdəlikləri müəyyən edilmişdir.

Qadınların ictimai, siyasi, sosial və humanitar sahələrə, o cümlədən elm və maarifçiliyin inkişafına verdikləri böyük töhfələr danılmazdır. Əsrlər boyu Azərbaycan qadınları zəngin mədəniyyətimizin, ənənələrimizin və ailə dəyərlərimizin qorunmasında, milli köklərinə sadiq nəslin yetişdirilməsində vacib rol oynayıb. Hələ 1901-ci ildə müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb məhz Bakıda açılmışdır. Azərbaycan əksər Avropa ölkələrini qabaqlayaraq 1919-cu ildə müsəlman dünyasında qadınlara səsvermə hüququ verən ilk respublika olmuşdur.

Azərbaycanda qadın hüquqlarının təmin olunması və onların cəmiyyətdə və dövlət idarəçiliyində rolunun artırılması daim diqqət mərkəzindədir. Bu gün də Azərbaycan qadınları elm, təhsil, səhiyyə, incəsənət və digər sahələrdəki əzmkar və çoxşaxəli fəaliyyətləri ilə ölkəmizin rifahına və tərəqqisinə dəyərli töhfələr verirlər. Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin 63 faizini qadınlar təşkil edir. Dövlət tibb müəssisələrinin tibbi kadrlarının 70 faizi qadındır. Yerli özünüidarəetmə orqanlarında qadınların təmsilçiliyi 40 faizdir. Dövlət tərəfindən özünüməşğulluq proqramlarına göstərilən dəstək tədbirləri nəticəsində fərdi sahibkar qadınların sayı artmaqdadır.

Torpaqlarımızın Ermənistanın 30 illik işğalından azad olunması, tarixi Zəfərin qazanılması Azərbaycan qadınlarının vətənpərvərlik ruhunda tərbiyə etdiyi oğulların sayəsində mümkün olmuşdur.

Hazırda Azərbaycanın sosial-iqtisadi inkişafının əsas prioritetlərindən biri işğaldan azad edilmiş ərazilərə böyük qayıdışı təmin etməkdir. Bu xüsusda, dədə-baba yurdlarına qayıdan keçmiş məcburi köçkün qadınlara iş imkanlarının yaradılması istiqamətində tədbirlər həyata keçirilir.

Qoşulmama Hərəkatı qadınların hüquqlarının müdafiəsi sahəsində vacib rol oynamaq imkanına malikdir. Qoşulmama Hərəkatının Qadınlar Platformasının təsis edilməsi bu istiqamətdə fəaliyyətə müsbət təkan verəcəkdir.

Qoşulmama Hərəkatına sədrliyimizin sonu yaxınlaşmaqdadır. Böyük qürur hissi ilə qeyd edirəm ki, Azərbaycan Qoşulmama Hərəkatının ən gənc üzvlərindən biri olmasına baxmayaraq, sədrliyi təhvil alacaq növbəti ölkələrə uğurlu miras qoyacaqdır. Ölkəmiz bundan sonra da Qoşulmama Hərəkatının məqsədlərinin və məramının beynəlxalq səviyyədə təşviq edilməsi istiqamətində səylərini davam etdirəcəkdir.

Əminəm ki, bu əlamətdar konfrans qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması ilə bağlı səmərəli fikir mübadiləsinin aparılması üçün əhəmiyyətli platforma rolunu oynayacaq və bu sahədə birgə fəaliyyətin aparılması üçün Qoşulmama Hərəkatının tarixində yeni bir dövrün başlanğıcının əsasını qoyacaqdır.

Konfransın işinə uğurlar və qonaqpərvər Bakı şəhərində xoş vaxt keçirməyi arzu edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 noyabr 2023-cü il**

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid noyabrın 19-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

# Ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət



**İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid noyabrın 19-da Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb.**

Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşidə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

***AZƏRTAC***

# İşçi Qrupun növbəti iclası

**Şuşa şəhərində Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası keçirilib.**



İclasda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəqliyyat və rabitə infrastrukturu üzrə görülən işlərin icrası ilə bağlı geniş müzakirə edilib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, İşçi Qrupunun rəhbəri Rəhman Hümmətov qeyd edib ki, Dövlət Proqramının Tədbirlər Planında avtomobil və dəmir yollarının bərpa və tikintisi, yeni hava limanlarının tikintisi kimi strateji layihələr yer alıb: "Bunlardan artıq bir neçəsi – "Zəfər yolu", Laçın şəhərinə daxil olmadan yeni avtomobil yolu, Füzuli–Hadrut avtomobil yolu, Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının tikintisi uğurla icra olunub. Laçın Hava Limanının tikintisi üzrə işlər sürətlə davam etdirilir, hazırda layihə üzrə işlərin ümumi icra vəziyyəti 53 faiz təşkil edir".

Nazir müavini əlavə edib ki, Bərdə–Ağdam (47,1 km) və Horadiz–Ağbənd (110,4 km) dəmir yolu xətlərinin tikintisi işləri də davam etdirilir. Layihələr üzrə əldə edilmiş fiziki tərəqqi uyğun olaraq 83 və 44 faiz təşkil edir.

Rəhman Hümmətov hazırda ümumi uzunluğu 2157 kilometr olan 17 layihə üzrə avtomobil yollarının tikintisi işlərinin qrafikə uyğun aparıldığını və bunların da əksəriyyətinin respublika əhəmiyyətli yollar olduğunu diqqətə çatdırıb.

Bildirib ki, hazırda ərazidə bərpa edilən radio-televiziya yayım stansiyaları vasitəsilə 10 televiziya və 7 radioproqramın yayımı həyata keçirilir. Mobil telekommunikasiya xidmətlərinin təşkili üçün antiterror tədbirləri nəticəsində azad edilən ərazilər də daxil olmaqla, 330 ədəd baza stansiyası quraşdırılıb.

Rəhman Hümmətov "Yolumuz Qarabağa" portalı üzərindən Şuşa, Ağdam və Füzuli şəhərinə indiyədək təşkil edilən avtobus marşrutları barədə iclas iştirakçılarını məlumatlandırıb. "Bu istiqamət üzrə ümumilikdə 639 reys həyata keçirilib, 26 226 sərnişin işğaldan azad olunmuş əraziləri ziyarət edib".

Nazir müavini, həmçinin Şuşa şəhərində hazırda abunəçilərə yeni texnologiyalar əsasında telefon və sürətli internet xidmətlərinin verildiyini, tikinti və bərpası icra edilən ictimai əhəmiyyətli binaların telekommunikasiya xidmətləri ilə təmin edilməsi üçün layihələndirmə işlərinin aparıldığını, müxtəlif istiqamətlər üzrə magistral və abunəçi fiber-optik xətlərin çəkilməsi işlərinin görüldüyünü qeyd edib.

Prezident Administrasiyasının sektor müdiri Elmir Vəlizadə, Şuşa rayonunda Prezidentinin xüsusi nümayəndəliyinin təmsilçisi Kənan Quliyev, Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Əvəz Qocayev, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədrinin müşaviri Nazim Talıbov, həmçinin digər iştirakçılar çıxışlarında işğaldan azad edilmiş ərazilərdə Proqram üzrə həyata keçirilən layihələrin əhəmiyyəti və digər vacib məsələlər barədə qarşıda duran vəzifələrdən danışıblar.

***XQ***

# 20 il: milli dövlətçiliyin yeni mərhələsinə doğru

## Fəlsəfi-sinergetik təhlil

VI MƏQALƏ

**"Böyük işləri görmək çətindir, ancaq ona rəhbərlik etmək daha ağırdır"**

**Fridrix Nitşe**



### Liderlik sinerjisinin sistem komponentləri

"Liderlik sinerjisi" anlayışının fəlsəfi-sinergetik anlamı mürəkkəblik paradiqmasına əsaslanır. Burada "mürəkkəblik paradiqması" sinergetik yanaşma kontekstində dərk edilir. Onu vurğulayaq ki, bu paradiqma haqqında Azərbaycanda hələ XX əsrin 80-90-cı illərində professor Əbülhəsən Abbasov yazmışdır. Professorlar Əziz Məmmədov və Əli Abasovun da mövcud istiqamətdə tədqiqatları var.

Öncə, "liderlik sinerjisi" anlayışına fəlsəfi və konkret siyasi-nəzəri məzmun vermək lazım gəlir. "Sinerji", ümumiyyətlə, müxtəlif enerjilərin, proseslərin, fəaliyyətin, faktorların, parametrlərin, obyektlərin və s. harmoniyasını, fərqliliklərini sintez edən və ortaq hərəkət etməyi təmin edən yekun effekti ifadə edir. Həmin aspektdə Azərbaycan sosioloqu Əhməd Qəşəmoğlunun istifadə etdiyi "ahəngyol" anlayışı məzmunca sinerjiyə yaxındır. Bəlkə də identikdir.

Bununla yanaşı, sinerjinin ümumi anlamı "liderlik sinerjisi" anlayışına praktiki-tətbiqi aspektdə yeni heç bir məzmun vermir. Bunun üçün "liderliyin sinerjisi"nin nəyi ifadə etməsinin həm fəlsəfi, həm də sinergetik-elmi mahiyyətini müəyyən etmək gərəkdir.

Bizim öncəki məqalələrdə ifadə edilən məntiqi təhlil çərçivəsində liderliyin sinerjisi lider-cəmiyyət-milli+regional+qlobal miqyasların qarşılıqlı münasibətləri sahəsində meydana gələn yeni dəyərlərin (geosiyasi, siyasi, konseptual, sosial-mədəni, diplomatik və s.) konkret müsbət nəticə verən harmoniyasının yekun effektidir.

Kifayət qədər nəzəri və mürəkkəb semantika olduğunu anlayıq və məsuliyyətini dərk edirik. Ancaq XXI əsrin reallıqları elədir ki, yeni liderliyin ciddi və əsaslı fəlsəfi dərki mahiyyətcə mürəkkəb prosesdir. Biz bu mürəkkəbliyi sadələşdirməyə çalışacağıq.

Liderliyin sinerjisi sırf nəzəri faktor deyildir, əksinə yeni liderliyin daim təcrübədə sınanan konseptual və praktiki fəaliyyətinin sintezidir. Hazırda istənilən cəmiyyətin sosial-mədəni, iqtisadi, informasion, mənəvi-əxlaqi strukturu o dərəcədə rəngarəng (heterogen) və qeyri-xətti mahiyyətlidir ki, əsl lider çoxsaylı müsbət emosional-psixoloji, iradi və zəkavi keyfiyyətlərə malik olmalıdır. Bunlar isə konkret olaraq liderin qarşılıqlı təmas məkanlarında yaratdığı konkret dəyərlərdə ifadəsini tapır. Burada hər hansı nəzəri və mücərrəd arqumentlər işlək deyildir. Buna görədir ki, Qərb filosofları və politoloqları müasir liderlikdə faydalı sayıla bilən nəticəli liderliyi, siyasi-diplomatik fəaliyyəti uğurlu hesab edirlər.

Belə çıxır ki, liderliyin sinerjisinə liderin fəaliyyət miqyası ilə missiyasının (İsa Həbibbəyli mənasında) sintezində yanaşmaq olar. Liderliyin miqyası burada liderin cəmiyyət, region və qlobal miqyaslarda fəaliyyətinin konkret nəticələrinin faydalılıq aspektində qiymətləndirilməsi ilə bağlıdır. Liderliyin missiyası isə liderlik fəaliyyətinin strateji məqsədinin siyasi və fəlsəfi-etik aspektlərinin harmoniyası ilə əlaqəlidir. Həmin kontekstdə liderliyin sinerjisi missiya ilə miqyasın bir-birini dövlətçilik aspektində tamamlaması əlaməti kimi təsəvvürə gətirilə bilər. Bir az da konkretləşdirək.

Miqyas və missiya çətiri altında liderliyin sinerjisi fəaliyyətin substantiv və kommunikativ aspektlərinin "kəsişmə sahəsində" liderin şəxsiyyət və idarəedən aparıcı kimi yarada bildiyi yeni dəyərlərin sistemli qarşılıqlı əlaqəsini ifadə edir. Burada sinerjinin siyasi anlamda iki mühüm cəhəti vardır.

Birincisi, lider-cəmiyyət qarşılıqlı münasibətlərində liderliyin missiya və miqyasının bir-birini tamamlaması. Onun üçün liderin strateji zəkası daxili siyasətin prioritetlərini doğru müəyyən etməklə yanaşı, onların səmərəli reallaşdırılması üsullarını da aydın göstərməlidir.

İkincisi, liderin lider-cəmiyyət münasibətlərində nail olduğu sinerjini regional+qlobal miqyasa transformasiya prosesində milli-regional-qlobal maraqları dövlətçilik maraqları çərçivəsində uyğunlaşdıra bilməsi.

Bu iki faktorun harmoniyası siyasi liderlik sinerjisinin konkret səviyyədə sistem komponentlərinin ahəngdarlığı (Ə.Qəşəmoğlu) sayəsində yarana bilər. Deməli, siyasi liderlik sinerjisinin sistem komponentlərinin müəyyənləşdirilməsi və onlar arasında funksional münasibətlərin aydınlaşdırılması deskriptiv (məqsəd nəzərdə tutulmadan fiksasiya) deyil, analitik (təhlil+proqnoz) mahiyyətlidir.

### Prezident İlham Əliyev modelinin 3 aspekti

Buradan biz Prezident İlham Əliyevin son 20 illik fəaliyyətinin nümayiş etdirdiyi təcrübəyə əsaslanaraq, dövlət başçısı və milli lider kimi siyasi liderlik sinerjisinin sistem komponentlərini müəyyən edə bilərik. Bu, Prezidentin nəzəri-konseptual və siyasi-praktiki fəaliyyətinin ortaq kəsişmə sahəsində yaratdığı yeni geosiyasi, siyasi, idarəetmə, mənəvi-əxlaqi və sosial-iqtisadi dəyərlər fonunda mümkündür. Həmin aspektdə siyasi liderlik sinerjisinin ilk komponenti olaraq dövlət tərbiyəsinin XXI əsrin dəyişmə dinamikası kontekstində inkişaf etdirilməsini müəyyənləşdirmək olar.

Liderliyin sistem komponenti kimi "dövlət tərbiyəsi" dedikdə nəyi nəzərdə tuturuq? Nəzəriyyədən məlumdur ki, dövlət tərbiyəsi faktoru həm dövlətin mövcudluğunda, həm də onun dayanıqlı funksionallığında mühüm rol oynayır. Onun substantiv (kadrlar), idarəetmə (siyasi, sosial, informasiya və s. institutlar) və funksional (cəmiyyətin müəyyən təbəqələrinin (stratların) toplum naminə fəaliyyət əmsalı) aspektləri vardır. XXI əsrdə müstəqil milli dövlətçilikdə dövlət tərbiyəsi vurğulanan aspektlərdə böyük əhəmiyyət daşımaqdadır. XXI əsrdə dövlət tərbiyəsinin substantiv, idarəetmə və funksional aspektlərinin bir-birini tamamlaması (ahəngdarlığı) milli dövlətçilikdə strateji əhəmiyyət daşıyır. Bu şərtin ödənməsi isə tamamilə milli liderin üzərinə düşür.

Burada meydana bir neçə sual çıxır: siyasi liderliyin sinerjisinin yaranmasında sistem komponenti kimi əsas rolu cəmiyyətin hansı təbəqəsi oynaya bilər? Cəmiyyətin elitasımı? Liderin tərəfdarlarımı? Bəlkə hakim siyasi partiya? Yoxsa, hansısa başqa sosial təbəqə?

Sosial-siyasi sinergetikanın qanunlarına görə, burada müəyyənedici rolu konkret cəmiyyətin mövcud olduğu real şərait oynayır. Cəmiyyətin qarşısına qoyduğu məqsədlər, daxili və xarici, regional və qlobal proseslərin həmin cəmiyyətə təsiri özəllikləri və dövlətçilik ənənəsinin əsas faktorları kimi parametrlərin sistemi liderə konkret aparıcı amili dəqiqləşdirməyə imkan verir. İlham Əliyev bu şərtlər daxilində dövlət tərbiyəsini başlıca olaraq cəmiyyətin gənc təbəqəsi üzərində inkişaf etdirməyə qərar vermişdir. Bu, dövlət tərbiyəsinin substantiv, idarəetmə və funksional aspektlərinin vəhdəti daxilində reallaşdırılmışdır. Onun əsas təzahür formaları: gənc nəslin ideoloji tərbiyəsini sırf müstəqil dövlətçiliyə bağlayan müstəvidə aparılması (azərbaycançılıq), vətənpərvərlik ruhunun yeni şəraitə uyğun inkişaf etdirilməsi (azərbaycançılıq kontekstində Vətənsevərlik və milli məsuliyyət hissinin inkişafı, şərəfli və qalib əsgər duyğusunun aşılanması), yeni kadrların yetişdirilməsi (təhsil islahatları fonunda dünyanın aparıcı ali məktəblərində təhsil almaq üçün davamlı olaraq gənclərin xaricə göndərilməsi), yeni idraəetmə institutlarında gənclərin yeri və rolunun artırılması (ali dövlət idarəetməsindən tutmuş müxtəlif növ xidmət sahələrində gənclərə üstünlük verilməsi (məsələn, ASAN xidmət), gənc sahibkarlar təbəqəsinin "Azərbaycan naminə" şüarına uyğun yetişdirilməsi və "dövlətçi ziyalılar" təbəqəsinin formalaşdırılması.

Beləliklə, siyasi liderliyin sinerjisində "dövlət tərbiyəsi" anlayışı özündə bir neçə faktoru sintez edir. Onlar aşağıdakılardır:

- Yeni gənc nəslin milli müstəqil demokratik dövlətçilik ruhunda tərbiyəsi və ictimai məsuliyyəti aydın dərk edən vətəndaş kimi yetişdirilməsi;
- İdarəetmədə milli ruhlu dövlətçi gənclərin payının üst səviyyəyə çıxarılması;
- Dövlət və cəmiyyət naminə çalışan gənc sahibkarlar təbəqəsinin formalaşdırılması;
- Ordu quruculuğunda gənclərin vətənsevər, qalib, vətənpərvər, dövlətçi ruhunda yetişdirilməsi üçün kompleks proqramların reallaşdırılması;
- Cəmiyyətin elitasını əsas olaraq dövlətçi ziyalılar təbəqəsindən formalaşdırılmasını nəzədə tutan proqramların həyata keçirilməsi.

Müasir mərhələdə Azərbaycanda müstəqil dövlət quruculuğunda bu tərkib hissələrinin hər birinin böyük əhəmiyyəti vardır. Onu deyək ki, bütövlükdə dünya təcrübəsi üçün də həmin faktorların vacibliyini Qərb tədqiqatçıları və analitikləri vurğulayırlar. Bir nümunə göstərək.

ABŞ-ın tanınmış analitiklərindən olan Corc Fridman bir neçə il öncə "Stratfort"un başçısı kimi qələmə aldığı təhlili-proqnostik xarakterli yazıda vurğulayırdı ki, Rəcəb Tayyib Ərdoğanı digər dünya liderlərindən fərqləndirən başlıca cəhətlərdən biri cəmiyyətə fayda verməyi əsas məqsəd hesab edən gənc sahibkarlar təbəqəsi (stratı) yaratmasından ibarətdir. Gənc türk sahibkarlar qazanclarını həvəslə cəmiyyətin faydası üçün xərcləyirlər. C.Fridmana görə, bu keyfiyyətdə gənc sahibkarlar təbəqəsinin mövcud olması, toplumda orta təbəqinin strateji perspektivinin başlıca göstəricisidir.

Təbii ki, burada bir incə məqama da aydınlıq gətirməyə ehtiyac var. Məsələ ondan ibarətdir ki, fəlsəfə və politologiyanın nəzəri-metodoloji kateqorial aparatından istifadə edərək istənilən nəzəri konstruksiyanı qurmaq olar. Ancaq bunun üçün öncə liderin fəaliyyətinin konkret istiqamətləri və əldə etdiyi nəticələr mövcud olmalıdır. Prezident İlham Əliyevin siyasi liderliyinin sinerjisinin nəzəri təqdimatı birbaşa praktiki fəaliyyətinin ümumi mənzərəsinə, konkret faktlara dayanır. Məhz bu aspektdə bir mühüm cəhəti mütləq vurğulamaq lazımdır.

İlham Əliyevin siyasi liderlik sinerjisi praktiki fəaliyyətdə strateji zəka qabiliyyəti ilə yüksək şəxsi keyfiyyətlərinin vəhdətinə əsaslanır. Bu tezisi təsdiq edən və Prezidentin sistemli olaraq reallaşdırdığı konkret proqramlar mövcuddur. Həmin sırada idarəetmədə vitse-prezidentlik institutunun uğurla reallaşamasını təmin edən proqramı, enerji strategiyasına aid layihələrini, "dəmir yumruq" və "biz birlikdə güclüyük" kəlamlarının ifadə etdiyi həmrəylik və monolitlik proqramlarını, Azərbaycanın siyasi mühitində demokratik sıçrayış effekti verən siyasi dialoq proqramlarını, ordu quruculuğunun strateji humanitarlığını və milli təhlükəsizliklə sıx əlaqəsini təmin edən proqramları göstərə bilərik. Bu məqamların fəlsəfi və politoloji anlamı necə ola bilər?



**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Yeni çağırışlara əsaslanan mütərəqqi ədliyyə islahatlarının banisi



**Müasir dünya təcrübəsi göstərir ki, hansısa ölkədə aparılan hüquqi islahatların səmərəli nəticələr verməsi, ilk növbədə, ədliyyə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi, yeni dövrün tələbləri səviyyəsində qurulması ilə sıx şəkildə bağlıdır. Bu mənada, əminlikdə deyə bilərik ki, respublikamızın hüquq sistemində mühüm yeri və rolu ilə seçilən ədliyyə orqanları mövcudluğunun bütün mərhələlərində xalqa və dövlətə layiqli xidməti özünün əsas fəaliyyət prinsipinə çevirmiş, vətəndaşların qanuni mənafelərini hər zaman uca tutmuşdur.**

Yaranmasının 105-ci ildönümünü qeyd etdiyimiz ədliyyə orqanları mövcudluq tarixinin sərt sınaqlarından üzüağ çıxaraq qarşısında duran vəzifələri şərəflə yerinə yetirmiş və müstəqil respublikamızın mühüm dövlət təsisatlarından birinə çevrilmişdir. Azərbaycanda digər sahələrdə olduğu kimi, ədliyyə sistemində də ardıcıl, sistemli islahatların aparılması, ədliyyə orqanlarının istər keçmiş sovetlər birliyi, istərsə də müstəqillik dövründə hərtərəfli dövlət qayğısı ilə əhatə olunmaları, yeni çağırışlara adekvat şəkildə müasirləşdirilməsi xalqımızın Ümummilli lideri, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin misilsiz xidmətləri ilə bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" sərəncamı ilə anadan olmasının 100-cü ildönümünün böyük təntənə ilə qeyd edilməsi Ulu öndərin müasir tariximizdəki müstəsna roluna verilən yüksək ictimai dəyərin ifadəsidir. Ədliyyə orqanlarının çoxsaylı əməkdaşları Ümummilli liderin dövlət və xalq qarşısındakı tarixi xilaskarlıq və quruculuq missiyasını hər zaman böyük ehtiramla vurğulayır, əziz xatirəsini uca tuturlar.

Ümummilli liderin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi 22 noyabr tarixi ədliyyə işçilərinin peşə bayramı günü kimi təsbit edilmişdir. Ölkəmizdə ədliyyə sisteminin inkişafına hüquqi dövlət quruculuğu prosesinin ayrılmaz tərkib hissəsi kimi yanaşan Heydər Əliyevin həmin sərəncamı həm də tarixi irsimizə, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarına ehtiramın ali təzahürü olmuşdur.

Tarixi faktlar göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində qətiyyətli addımlar atmış, milli dövlət quruculuğunu ədalətə və qanunçuluğa tapınaraq reallaşdırmışdır. Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il mayın 28-dən – Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi tarixi bir gündə, eyni zamanda, Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlamış, təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Həmin il noyabrın 22-də nazirliyin Əsasnaməsi təsdiq edilmiş, funksiya və səlahiyyətləri müəyyən edilmişdir.

Nazirlik həmin dövrdə sosial-iqtisadi, siyasi şəraitin çətinliyinə, imkanların və kadrların məhdudluğuna baxmayaraq, ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı yolunda xeyli iş görmüşdür. İlk növbədə, ədliyyə strukturları yaradılmış, respublikada qayda-qanunun bərqərar olması, yeni hüquq sisteminin təşkili ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunmuşdur. Zəruri hüquqşünas kadrların hazırlanması ilə yanaşı, əhalinin hüquqi maarifləndirilməsi istiqamətində mühüm tədbirlər görülmüşdür.

Xalq Cümhuriyyətinin mövcud olduğu 23 ayda hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmiş, nazirliyin təşəbbüsü ilə "İstintaq hissəsinin quruluşu və gücləndirilməsi haqqında", "Məhkəmə idarəsi sahəsində vəzifələrə namizədlər haqqında", "Azərbaycan andlı iclasçılar məhkəməsinin təsis edilməsi haqqında", "ADR-in yaranmasından il yarım keçməsi münasibətilə ümumi amnistiya haqqında" və digər qanunlar Parlamentin müzakirəsinə çıxarılaraq qəbul edilmişdir.

Fəaliyyəti unudulmaz hadisələrlə zəngin olan Ədliyyə Nazirliyi mövcudluğu illərində bir sıra çətin mərhələləri də inamla adlamışdır. 1920-ci ildə Cümhuriyyətin süqutundan sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilərək, əvəzində Xalq Ədliyyə Komissarlığı yaradılmış, səlahiyyətləri xeyli məhdudlaşdırılmış, funksiyaları ayrı-ayrı vaxtlarda prokurorluq və məhkəmə orqanlarına verilmişdir. Naxçıvan Muxtar Respublikasında ilk ədliyyə orqanı 1924-cü il yanvarın 18-də yaradılmış, 1946-cı ilə qədər Xalq Ədliyyə Komissarlığı, sonra Ədliyyə Nazirliyi adlandırılmışdır.

Azərbaycanda Ədliyyə Nazirliyinin yenidən, eyni zamanda, əsaslı surətdə təşkili, ədliyyə orqanlarının cəmiyyətdəki layiqli yerinin təmini isə məhz ümummilli lider Heydər Əliyevin 1969-cı ilin iyul ayında respublika rəhbərliyinə gəlişindən sonra mümkün olmuşdur. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı əsasında Azərbaycan SSR-in Ədliyyə Nazirliyi, Azərbaycan Kommunist Partiyasının Naxçıvan Vilayət Komitəsinin 5 may 1971-ci il tarixli, 6 nömrəli büro iclas protokolu ilə Naxçıvan MSSR-in Ədliyyə Nazirliyi yenidən təsis olunmuşdur. Beləliklə, Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmış, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yaradılmışdır.

Böyük fransız yazıçısı Viktor Hüqo deyirdi: "Gücün kimin tərəfində olmasının əhəmiyyəti yoxdur, əsas odur ki, haqq kimin tərəfindədir". Haqq-ədalət uğrunda mübarizəni həyat kredosuna çevirmiş ulu öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərliyinin ilk günlərindən etibarən hər bir fərdin qanuni maraq və mənafeyini, ədalət meyarını uca tutmuş, cəmiyyətdə, dövlət idarəçiliyində özünü göstərən neqativ hallarla qarşı prinsipial mübarizə aparmışdır. Böyük strateq qanunçuluğun və hüquq qaydalarının qorunmasını dövlətin ümdə vəzifəsi kimi müəyyən edərək, vətəndaşların hüquq və azadlıqlarının qorunması baxımından mükəmməl ədliyyə sisteminin formalaşdırılmasının vacibliyini daim önə çəkmişdir. 1981-ci ilin dekabr ayında o dövrün nüfuzlu nəşri olan "Literaturnaya qazeta"da dərc olunan "Qoy, ədalət zəfər çalsın!" sərlövhəli müsahibəsində yer almış qətiyyətli fikirləri ulu öndər Heydər Əliyevin şəxsiyyətinin miqyası barədə dolğun təsəvvür yaradır.

Ümumilikdə, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında 70-80-ci illərdə həyata keçirilmiş kompleks iqtisadi, hüquqi, mədəni-humanitar tədbirlər respublikamızın ötən əsrin 90-cı illərə doğru müstəqillik uğrunda mübarizəsinə etibarlı əsaslar yaratmışdır. Böyük strateq 1982-ci ildə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə irəli çəkildikdən sonra respublikaya rəhbərlik edən şəxslər təəssüf ki, Azərbaycanı yenidən iqtisadi və mənəvi tənəzzül məngənəsinə sürüklədilər. 80-ci illərin sonuna yaxın bədxah qonşularımız imperiya rəhbərliyinin himayəsi altında Azərbaycana qarşı aşkar ərazi iddiaları ilə çıxış etməyə başladılar. Bütün bunlara göz yuma bilmədiyi üçün SSRİ rəhbərliyindən istefaya verən ulu öndər Heydər Əliyev sonrakı dövrdə belə, millətinin haqq səsini ucaltmaqdan çəkinmirdi. 1990-cı ilin 20 Yanvar hadisələrindən dərhal sonra ailəsi ilə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlmiş müdrik şəxsiyyət imperiya rəhbərliyini Kremlin bir addımlığında sərt şəkildə tənqid etmiş, qınamış, xalqının faciəsinə vətənpərvərliklə reaksiya vermiş, dərdinə şərik çıxmışdı.

1990-cı ilin iyununda ulu öndər Heydər Əliyevin Moskvadan Azərbaycana – Naxçıvana dönüşü ümumən respublikada milli azadlıq mübarizəsinə yeni təkan vermiş, dövlət müstəqilliyinin bərpasına xidmət edən hüquqi qərarların qəbulu prosesini sürətləndirmişdir. Məhz Ümummilli liderin təşəbbüsü ilə 1991-ci il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yekdil qərarına əsasən müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağımız ilk dəfə muxtar respublikanın rəsmi bayrağı kimi qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası İttifaqın qalıb-qalmaması barədə səsvermə prosesində iştirakdan imtina edərək, "Yeni ittifaq müqaviləsi"ni cəsarətlə rədd etmişdir.

Əsl siyasi lider hansısa taleyüklü mərhələdə məsuliyyəti öz üzərinə götürərək, xalqının gələcəyi baxımından cəsarətli qərarlar qəbul etmək məharəti ilə seçilir. Xalqın təkidli istəyi ilə 1993-cü ilin 9 iyununda Naxçıvandan Bakıya qayıdan ulu öndər Heydər Əliyev yorulmaq bilmədən Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsinə, ictimai-siyasi sabitliyin bərpasına, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə nail olmuşdur. Ulu öndər Heydər Əliyev bu mərhələdən etibarən de-yure mövcud olan Azərbaycanı de-fakto qurmağa, onun milli dövlətçilik sütunlarını möhkəmləndirməyə, milli inkişaf strategiyasını müəyyənləşdirməyə başlamışdır. Ümummilli liderin 1993-cü ilin 15 iyununda Azərbaycan Ali Sovetinin Sədri, həmin ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilməsi isə ölkədə qanunçuluğun, hüquq qaydalarının bütün sahələrdə möhkəmlənməsini təmin etməklə yanaşı, davamlı inkişaf və tərəqqi üçün etibarlı zəmin hazırlamışdır.

Böyük filosof Tur Xander zamanında yazırdı ki, "İdeya və iradə müəyyən sosial bazaya yiyələnəndə siyasətə çevrilir". Ulu öndər Heydər Əliyevin ümummilli liderlik zirvəsinə yüksəlməsi, xalqın qəlbində özünə möhtəşəm abidə ucaltması həm də onun milli inkişaf strategiyasının banisi olması ilə şərtlənir. Bu mərhələdən ictimai həyatın digər sahələrində olduğu kimi, hüquq sistemində də köklü islahatların reallaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. 1995-ci ildə Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyası demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuşdur. Əsas Qanunun qəbulundan sonra respublikamızda bir sıra sahələrlə yanaşı, ədliyyə orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni dövrün tələbləri ilə təkmilləşdirilməsi istiqamətində də kompleks islahatlar həyata keçirilmişdir.

Heydər Əliyev şəxsiyyəti bu mərhələdən etibarən Ədliyyə Nazirliyinin inkişafı, hüquqi və demokratik dövlətdə layiqli yerini tutması üçün əlindən gələni əsirgəməmiş, ədliyyə orqanlarının fəaliyyətinin yeni dövrün çağırışlarına adekvat şəkildə müasirləşdirilməsini zəruri saymışdır. Dahi rəhbərin təşəbbüsü ilə ədliyyə sisteminin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatların həyata keçirilməsi nazirliyin səlahiyyətlərini genişləndirmiş və cəmiyyətdə rolunu artırmışdır. Aparılan köklü islahatlar respublikamızın dövlət quruluşu sistemində ədliyyə orqanlarının layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi məqsədinə yönəlmişdir. Onun təşəbbüsü ilə Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təsis edilməklə yanaşı, keçmiş MDB-də ilk olaraq Azərbaycanda istintaq təcridxanaları Ədliyyə Nazirliyinin tərkibinə verilmişdir. Ədalət mühakiməsi əleyhinə olan və bəzi digər cinayətlərin ibtidai istintaqının aparılması, bütün qeyri-tibbi məhkəmə ekspertizalarının həyata keçirilməsi, Azərbaycan Respublikası adından xarici dövlətlər və beynəlxalq təşkilatlarla hüquqi sahədə əməkdaşlıq üzrə müqavilələrin bağlanması və onların icrasının təmin edilməsi, cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, o cümlədən ekstradisiya və digər məsələlərin həlli Ədliyyə Nazirliyinə tapşırılmışdır.

Ölkəmizdə aparılan hərtərəfli islahatların səmərəli iqtisadi sistemin bərqərar olmasına gətirib çıxarması əhalinin hüquq və mənafelərinin daha etibarlı qorunması, vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi zərurətini yaradırdı. 2000-ci ildə iqtisadi və hüquqi proseslərin tənzimlənməsində mühüm əhəmiyyəti nəzərə alınaraq, notariat və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı – Notariat və VVADQ orqanlarında da köklü dəyişikliklər və əsaslı tədbirlər həyata keçirilmiş, yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə metoloji yardımın göstərilməsi Ədliyyə Nazirliyinin funksiyalarına aid edilmişdir.

Ümumiyyətlə, 1993-2003-cü illərdə hüquqi dövlət quruculuğu prosesində yaxından iştirak edən Ədliyyə Nazirliyinin fəaliyyət dairəsi genişlənmiş, cəmiyyətdəki rolu artmışdır. Ədliyyə fəaliyyətinin yeni qanunvericiliyin tələbləri səviyyəsində qurulması məqsədilə müvafiq struktur dəyişiklikləri aparılmış, yeni qurumlar yaradılmış, onların işinin təşkili üzrə zəruri tədbirlər görülmüşdür.

Xüsusi vurğulamaq istərdik ki, ulu öndər Heydər Əliyevin "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi barədə" 2002-ci il 24 avqust tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, cəzaların icrası, normativ aktların dövlət qeydiyyatı və digər sahələr üzrə əlavə səlahiyyətlər verilmişdir. Əgər həmin əlavə və dəyişikliklərə qədər nazirlik azsaylı ştat vahidi ilə fəaliyyət göstərirdisə, həmin fərmanın qəbulundan sonra qurumun mərkəzi aparatının yeni strukturu təsdiq edilmiş, yeni şöbə və bölmələri yaradılmış, təkcə aparatının ştat sayı 3 dəfədən çox artırılmışdır.

Ulu öndər Heydər Əliyevin şəxsiyyət kimi müdrikliyi və nəhəngliyi onun həm də özündən sonra dövləti inamla irəli aparan, Azərbaycan dövlətini böyük uğur və tarixi zəfərlərə qovuşduran layiqli siyasi lider yetişdirməsi ilə ölçülür. Ümummilli liderin ən layiqli siyasi davamçısı – Prezident İlham Əliyevin ötən 20 ildə imzaladığı mühüm fərman və sərəncamlar, dövlət proqramları ədliyyə sisteminin işinin əhəmiyyətli dərəcə təkmilləşməsini, keyfiyyətcə yeni dövrün tələbləri səviyyəsində qurulmasını təmin etmişdir. Dövlət başçısının rəhbərliyi, Azərbaycan Respublikasının ədliyyə naziri cənab Fikrət Məmmədovun yüksək təşkilatçılığı ilə aparılan bu islahatlar ədliyyə orqanlarının cəmiyyətdəki nüfuzunu və layiqli mövqeyini təmin etmişdir.

Prezident İlham Əliyevin 18 aprel 2006-cı il tarixli fərmanı ilə Ədliyyə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi, nazirliyə ədliyyə sahəsində vahid dövlət siyasətini və tənzimlənməsini həyata keçirən hüquq-mühafizə orqanı statusunun verilməsi onun roluna verilən yüksək qiymət olmuşdur. Bu sənədə əsasən, Ədliyyə Nazirliyi qanunvericilik aktlarının layihələrini hazırlayır, rəy verir, normativ-hüquqi aktların, normativ xarakterli aktların hüquqi ekspertizasını, dövlət uçotunu, dövlət qeydiyyatını həyata keçirir, notariat orqanlarının fəaliyyətinə nəzarəti təmin edir, vətəndaşlıq vəziyyəti aktlarının, hüquqi şəxslərin, həmçinin Azərbaycan Respublikası əhalisinin dövlət reyestrini aparır, penitensiar müəssisələrin fəaliyyətini təşkil edir. Eyni zamanda, bələdiyyələrin işinin təşkilinə kömək edir, onlara metodoloji yardım göstərir, fəaliyyətinə inzibati nəzarəti həyata keçirir, hüquq sahələrinə dair elmi-tədqiqat işlərini aparır, məhkəmə ekspertizalarının keçirilməsini təşkil edir.

26 may 2006-cı il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında" Qanun isə ədliyyə qulluqçularının fəaliyyət prinsiplərini, bu orqanda işə qəbulun hüquqi əsaslarını müəyyənləşdirən əhəmiyyətli sənədlərdən olmuşdur. Qanunla ədliyyə sistemində, onun strukturlarında – idarə və təşkilatlarında, penitensiar xidmətdə qulluqkeçmə qaydaları və şərtləri, ədliyyə qulluqçularının hüquqi vəziyyətinin əsasları müəyyən edilmişdir.

Dövlətimizin başçısı İlham Əliyevin "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli fərmanı isə Azərbaycan ədliyyəsi üçün mühüm və proqram xarakterli sənəd olaraq, nazirliyin strukturunda yeni dövrün tələblərindən irəli gəlın dəyişikliklərin edilməsinə, bir sıra qurumların funksiyalarının dəqiqləşdirilməsinə imkan yaratmışdır. Ümumən, fərman dövlət başçısının ölkədə güclü ədliyyə sisteminin formalaşmasına dair siyasi iradəsinin təzahürü olmuşdur. Sənəddən irəli gələn vəzifələrin icrası ilə bağlı konkret işlər görülmüş, o cümlədən normativ sənədlərin hazırlanması üzrə təcrübəli ədliyyə işçilərindən ibarət xüsusi işçi qrup yaradılmış, mərkəzi aparatın yeni strukturu, onun tərkibinə daxil olan baş idarə və idarələrin əsasnamələri təsdiq edilmişdir.

Yerlərdə ədliyyə orqanlarının işinin əlaqələndirilməsi, onlara nəzarətin gücləndirilməsi, əhalinin bu qurumlara müraciətetmə imkanlarının asanlaşdırılması, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəsinin artırılması üçün 10 regional ədliyyə şöbəsi yaradılmış, onların strukturu və ştat bölgüsü təsdiq edilmiş, səlahiyyətlərinə aid məsələlər və ərazi yurisdiksiyaları müəyyən olunmuşdur. Həmçinin, regional ədliyyə şöbələrinə zəruri şəraitin yaradılması, onlara ayrılmış binalarda təmir, abadlıq işlərinin aparılması, maddi-texniki təminat üzrə müvafiq tədbirlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009–2013-cü illər üçün Dövlət Proqramı" isə milli ədliyyə sisteminin müasirləşdirilməsi və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində reallaşdırılmış məqsədyönlü tədbirlər sisteminin uğurlu davamı olmuşdur. Proqramla ədliyyə sahəsində islahatlar, bu sahədə inkişafın təmin edilməsi; ədliyyə sistemində yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi işinin sürətləndirilməsi, müasir tələblərə cavab verən yeni iş prosesinin təşkili; cəzaçəkmə müəssisələrinin fəaliyyətinin müasirləşdirilməsi; vətəndaşların ədliyyə orqanlarına və məhkəmələrə müraciət imkanlarının genişləndirilməsi və digər mühüm hədəflər uğurla reallaşdırılmışdır.

Onu da qeyd etmək lazımdır ki, dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli fərmanı ədliyyə sistemində islahatlar üçün də "yol xəritəsi" rolunu oynayaraq, ədliyyə orqanlarının fəaliyyətində müəyyən yeniliklərə hüquqi zəmin yaratmışdır.

İnsan hüquq və azadlıqlarınının müdafiəsinə xidmət edən islahatlatların uğurla reallaşdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xidmətlərini də xüsusi qeyd etmək lazımdır. Mehriban xanım Əliyeva eyni zamanda Heydər Əliyev Fondunun rəhbəri kimi son 19 ildə aztəminatlı, həssas təbəqələrdən olan insanların hüquq və azadlıqlarının müdafiəsi, sosial problemlərinin həlli istiqamətində bütün zəruri tədbirləri həyata keçirmişdir. Milli Məclisin deputatı kimi 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya təşəbbüsü ilə çıxış edən Heydər Əliyev Fondunun prezidenti insan hüquq və azadlıqlarına necə həssaslıqla yanaşdığını bir daha göstərmişdi. Milli parlamentarizm tarixində ilk dəfə olaraq məhz Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış amnistiya aktları böyük mənəvi-əxlaqi və siyasi məzmun kəsb etmişdir. Fondun prezidentinin təşəbbüsü əsasında gerçəkləşmiş amnistiya aktları cəmiyyətdə ürəkdən dəstəklənmiş, təqdir olunmuşdur.

İnsan amilini daim uca tutan Prezident İlham Əliyevin vətəndaş məmnunluğuna xidmət edən siyasətinin mahiyyətinə uyğun olaraq milli ədliyyə sistemi yeni dövrün çağırışlarına uyğun müasirləşdirilir, ədliyyə orqanlarının fəaliyyətində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqi xüsusi diqqət mərkəzində saxlanılır. "Elektron hökumət" sisteminin fəal iştirakçısı olan Ədliyyə Nazirliyi tərəfindən vətəndaşlara hazırda 30-dan çox müxtəlif elektron xidmətlər göstərilir. Son illərdə reallaşdırılmış "Elektron notariat", "Elektron icra" "Mobil notariat", "Mobil əhali", habelə məsafədən ədliyyə xidmətlərini təmin edən "ƏN TEZ" (Ədliyyə Nazirliyinə Təcili Elektron Zəng) kimi innovativ layihələr mövcud istiqamətdəki keyfiyyətin və operativliyin yüksəldilməsinin bariz nümunəsidir.

Azərbaycan Respublikasında aparılan ardıcıl hüquqi islahatlar, eləcə də ədliyyə sisteminin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinin fəaliyyətinin də müasir çağırışlara uyğun qurulmasını şərtləndirir. Xüsusi vurğulanmaq istərdik ki, Prezident İlham Əliyevin siyasi iradəsilə reallaşdırılan əsaslı kadr islahatları çərçivəsində 2022-ci il 22 dekabr tarixində hörmətli Fuad Nəcəflinin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edilməsi, eləcə də "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə"nin təsdiqi qısa müddətdə öz müsbət nəticələrini vermiş, Naxçıvan Muxtar Respublikasında digər sahələrlə yanaşı, Ədliyyə Nazirliyinin fəaliyyətində də əsaslı islahatlara, innovativ yeniliklərin tətbiqinə imkan yaratmışdır.

Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin milli ədliyyə sistemi qarşısında müəyyənləşdirdiyi strateji vəzifələrə uyğun quraraq, vətəndaş məmnunluğunun təmini istiqamətində bütün zəruri tədbirləri reallaşdırmağa çalışır. Ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən nazirlik muxtar respublika əhalisinin hüquqi maarifləndirilməsində iştirak edir, qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatına və dövlət reyestrinə, penitensiar sistemə, notariat orqanlarının və qeydiyyat orqanlarının fəaliyyətinə rəhbərliyi həyata keçirir, bələdiyyələrə metodoloji yardımı, inzibati nəzarəti, məhkəmə ekspertizalarının keçirilməsini, normativ hüquqi aktların və normativ xarakterli aktların hüquqi ekspertizasını, dövlət uçotunu və dövlət qeydiyyatını aparır, həmin aktların layihələrinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğu barədə hüquqi rəylər verir, sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrini aparır və digər vəzifələri təmin edir.

Dahi rəhbər Heydər Əliyevin anadan olmasının 100 illiyi, eləcə də Azərbaycanın ən ağır və taleyüklü məsələsini, işğal altında olan torpaqlarımızın azad olunması missiyasını uğurla reallaşdırmış müzəfər Ali Baş Komandan cənab İlham Əliyevin ölkəyə rəhbərliyinin 20 illiyi ilə əlaqədar Muxtar Respublikanın ədlyyə orqanlarında silsilə tədbirlər təşkil edilmişdir. Ədliyyə fəaliyyəti ilə əlaqədar maarifləndirici toplantılar və görüşlər, həmçinin vətəndaşları narahat edən müxtəlif məsələlərlə bağlı davamlı qəbullar keçirilmiş, bir sıra problemlər yerindəcə həllini tapmış və digər məsələlərlə bağlı Nazirliyin tabeliyində olan qurumlara müvafiq tapşırıqlar verilmişdir.

Azərbaycanın ədliyyə sisteminin çoxsaylı təmsilçiləri bu il peşə bayramlarını daha yüksək ovqatda – yüksək təntənə, milli qürur və fəxarət hissi ilə qeyd edirlər. Azərbaycan Ordusunun 2023-cü il sentyabr 19-20-də həyata keçirdiyi, cəmi 23 saat davam edən lokal xarakterli uğurlu antiterror tədbirləri nəticəsində Ermənistanın tarixi ərazimiz olan Qarabağda formalaşdırdığı qanunsuz rejimin özünü buraxmağa məcbur edilməsi, regionda separatizmə son qoyulması, suverenliyimizin bərpası ədalətin, beynəlxalq hüquq normalarının təntənəsi və xalqımızın böyük zəfəridir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin suverenliyimizin tam təmin olduğu ərazilərimizdə üçrəngli Dövlət Bayrağımızı ucaltması, noyabrın 8-də – Zəfər Günündə Xankəndidə keçirilən hərbi paradda iştirakı və möhtəşəm çıxışı çağdaş tariximzin qızıl səhifəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə qazanılan həlledici uğurlar, eyni zamanda, ərazi bütövlüyümüzün, suverenliyimizin təmini ölkəmizin daha sürətli tərəqqisinə, qarşıya qoyduğu strateji hədəflərə doğru inamla irəliləməsinə, inkişaf etmiş ölkələrlə bir sırada dayanmasına etibarlı təminat yaradır. Ədliyyə orqanlarının əməkdaşları əmindirlər ki, ölkəmizin ən müasir tarixinin bu möhtəşəm uğurları insan və vətəndaş hüquq-azadlıqlarının reallaşdırılması istiqamətində həyata keçirilən islahatlara yeni təkan verəcək, o cümlədən ədliyyə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi, keyfiyyətcə yeni dövrün tələblərinə uyğunlaşdırılması istiqamətində həyata keçirilən kompleks islahatlar ölkəmizin beynəlxalq nüfuzunu daha da yüksəldəcəkdir.

**Hüseyn SƏFƏROV,**
**Naxçıvan MR ədliyyə naziri vəzifələrini müvəqqəti icra edən, nazir müavini**

# Paşinyan hökuməti Qarabağ ermənilərinin geri dönüşünə qarşıdır

## *Dövlət Miqrasiya Xidmətində yaradılmış xüsusi portala Ermənistan ərazisində girişin qapadılması bunun göstəricisidir*

**Ermənistan hökuməti Qarabağ ermənilərinin sentyabrın sonlarında bölgədən könüllü gedişini ölkəmizə qarşı yeni təzyiq alətinə çevirib. Ölkənin baş naziri Nikol Paşinyan hər yerdə Azərbaycanla sülh müqaviləsinin imzalanmasına hazır olduqlarını bəyan etsə də, atdığı addımlar mahiyyətlə uzlaşmır. Sirr deyil ki, Paşinyan xarici ölkə nümayənələri, əsasən də avropalı tərəfdaşları ilə keçirdiyi ikitərəfli və çoxtərəfli görüşlərdə Qarabağ ermənilərinin bölgədən gedişini "etnik təmizləmə", "blokadadan xilas olmaq" və sair sözlərlə ifadə edir. Eyni zamanda, Ermənistan rəsmiləri xarici dövlətlər və beynəlxalq təşkilatlar qarşısında ermənilərin Qarabağa qayıdışı ilə bağlı məsələləri qaldırırlar.**



Ancaq bugünlərdə rəsmi İrəvanın Qarabağ ermənilərinin qayıdışına məqsədli şəkildə əngəl törətdiyi məlum olub. Belə ki, Azərbaycan Dövlət Miqrasiya Xidməti tərəfindən Qarabağ ermənilərinin ilkin qeydiyyata dair müraciətlərinin qəbulu və qeydiyyata alınma prosesinin həyata keçirilməsi məqsədilə yaradılmış xüsusi portala (reintegration.gov.az) Ermənistan ərazisində giriş qapadılıb. Bu barədə erməni bloger, sülhməramlı təşəbbüsləri ilə tanınan İşxan Verdyan məlumat yayıb. O, "Telegram-kanal"ında yazıb ki, Ermənistan Respublikası bununla dövlət səviyyəsində Qarabağ ermənilərinin bölgəyə qayıdışının qarşısını alır. İ.Verdyan bildirib ki, Qarabağ ermənilərinin reinteqrasiyası ilə bağlı Azərbaycanın proqramı Ermənistanın ideologiyası, bugünkü reallıqlara görə isə Ermənistan dövlətçiliyi üçün də ekzistensial (ekzistensializm – mövcudluq, varlıq deməkdir) təhlükədir: "Əgər müəyyən sayda erməni Qarabağa qayıtsa və onlara Azərbaycan Prezidentinin səsləndirdiyi mədəni azadlıqlar verilsə, Qarabağ münaqişəsinin bütün tarixinin yalan və saxtakarlıq üzərində qurulduğu üzə çıxacaq. Qarabağ münaqişəsi Ermənistanda həmişə ərazi deyil, millətlərarası münaqişə kimi təsnif edilib. Nəticə etibarı ilə, əgər ermənilərin Azərbaycanda etnik səbəblərdən "zülmə məruz qaldıqları" tezisi onların uğurlu reinteqrasiyası ilə məhv edilirsə, o zaman Azərbaycan istənilən məhkəmədə asanlıqla sübut edə bilər ki, münaqişənin başlanğıcından bu günə kimi Ermənistan sırf təcavüzkar və işğalçı olub. Məhz buna görə də ölkə reinteqrasiya ilə bağlı istənilən cəhdin qarşısını alır".

Qeyd edək ki, Azərbaycan dövləti Qarabağ ermənilərini hər zaman özünün vətəndaşı hesab edib. Azərbaycan 44 günlük Vətən müharibəsini beynəlxalq hüquqa və beynəlxalq humanitar huquqa əməl etməklə aparıb. Müharibə dövründə mülki insanlar və yaşayış evləri, infrastruktur obyektləri hədəfə alınmayıb. Bunun sayəsində mülki insanlar arasında itkilər minimum olub. Bu faktı xarici dövlətlər və beynəlxalq təşkilatlar, həmçinin Ermənistanın özü də etiraf edib. Azərbaycan tərəfi müharibə zamanı saxlanılmış hərbi əsirlərlə də nümunə ola biləcək davranış nümayiş etdirdi. Bunu isə erməni əsirlər Azərbaycan televiziyalarına müsahibələrində bildirmişdilər.

Müharibədən sonra Azərbaycan dövləti Qarabağ ermənilərinin reinteqrasiyasını elan etdi. Onlara Azərbaycan qanunvericiliyi çərçivəsində ölkənin digər vətəndaşları kimi hüquqlar veriləcəyini bildirildi. Ancaq müharibədən ötən üç ilə yaxın dövr ərzində Qarabağdakı keçmiş separatçı rejim bu təşəbbüslərin həyata keçirilməsinə mane oldu. Qanunsuz rejim hər cür reinteqrasiya təşəbbüsünü blokladı. Nəticədə aydın oldu ki, onun varlığının özü reinteqrasiyanın baş tutması yolunda ən böyük maneədir. Prezident İlham Əliyev hələ 2023-cü il mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşdə çıxışı zamanı bildirmişdi ki, separatçı rejimin ünsürləri üçün yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq, ölkəmizin loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Dövlətimizin başçısı tarixi çıxışında demişdi: "Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər".

Burada bir haşiyə çıxaraq qeyd edək ki, separatçılar onların xilası üçün yaranmış tarixi fürsəti əldən verdilər. Nəticə göz önündədir: Təkəbbürlə Bakıya gəlib çay içəcəklərini bəyan edənlər bu gün Dövlət Təhlükəsizliyi Xidmətinin istintaq təcridxanasında miskin aqibət yaşayırlar!

Separatçı rejimin nümayəndələri Azərbaycan Prezidentinin nümayəndəsi ilə bu il martın 1-də Xocalıda keçirilən görüşə qatılsalar da, Bakıya gəlməkdən imtina etdilər. Beləliklə, dialoq baş tutmamış qaldı. Sonra isə onlar özləri qaça-qaça Yevlaxa gəldilər.

Bütün bunlar Azərbaycanın sentyabrın 19-da Qarabağ iqtisadi rayonunun separatçı rejimin əsarətində olan hissəsində antiterror tədbirləri keçirməsini zəruri etdi. Cəmi bir neçə saat sonra rejimin mənsubları atəşkəsə razı olduqlarını bildirdilər. Azərbaycan isə onların tamamilə təslim olmasını tələb etdi. Nəticədə separatçı ünsürlər təslim olaraq "ağ bayraq" qaldıraraq təslim oldular. Ancaq rejimin səpdiyi nifrət toxumları artıq çoxdan boy atıb cücərmişdi. Nəinki cücürəmişdi, qollu-budaqlı ağaca çevrilmişdi. Bunun yaratdığı əhval-ruhiyyə ilə Qarabağ erməniləri Ermənistana köç etməyə başladılar. Halbuki onlara həm "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsində sərhədçilər və polis əməkdaşları tərəfindən, həm də Xarici İşlər Nazirliyinin bəyanatında Azərbaycan cəmiyyətinə reinteqrasiya ilə bağlı təkliflər edilirdi. Ermənilərin Qarabağdan Ermənistana köçdükləri günlərdə – sentyabrın 28-də Xarici İşlər Nazirliyinin bəyanatda deyilirdi: "Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin, guya, "etnik təmizləmə"yə məruz qaldığı barədə verdiyi bəyanatı qətiyyətlə pisləyir və rədd edirik. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin gedişinin onların şəxsi və fərdi qərarı olduğu, bunun məcburi yerdəyişmə ilə heç bir əlaqəsi olmadığı baş nazir Paşinyana yaxşı məlumdur. Əgər erməni sakinlərin hansısa hissəsi Azərbaycan qanunvericiliyi və hakimiyyəti çərçivəsində yaşamaq və ona tabe olmaq istəmirsə, onları buna məcbur edə bilmərik. Bunun əksinə, biz erməni sakinləri öz yaşayış yerlərini tərk etməməyə və multietnik Azərbaycan cəmiyyətinin bir hissəsi olmağa çağırırıq".

**Məsələ ilə bağlı fikirlərini "Xalq qəzeti" ilə bölüşən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev** deyib ki, Ermənistan hökumətinin



reinteqrasiyaya imkan verməməkdə əsas məqsədi ilk növbədə Azərbaycanı "etnik təmizləmə"də ittiham etmək üçün "əsaslar" yaratmaqdır. Onun sözlərinə görə, Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsində Azərbaycana qarşı qaldırdığı iş üzrə dinləmələrdə də belə cəhdlər var idi. Eyni zamanda digər platformalarda da Azərbaycana qarşı "etnik təmizləmə" ittihamı səsləndirilir: "Onlar buna nail olmaq istəyirlər. Əgər Qarabağ erməniləri geri qayıtsalar, yenidən orada yaşasalar faktiki olaraq, Ermənistan gələcəkdə nə ərazi iddiası irəli sürə, nə də ümumiyyətlə Azərbaycanı nədəsə itiham edə biləcək. Halbuki Ermənistanda bəziləri düşünürlər ki, gələcəkdə bu məsələyə qayıda bilərlər. Hesab edirlər ki, guya, Azərbaycan burada "etnik təmizləmə" törədib. Guya, bundan irəli gələn müəyyən öhdəliklər var və hansısa beynəlxalq missiya, Fransa, ABŞ kimi ölkələr gəlib Ermənistana kömək edəcəklər. Hər halda Azərbaycan Qarabağ ermənilərinin reinteqrasiyasına şərait yaradıb, Ermənistan hökuməti isə buna mane olur".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** isə bildirib ki, Ermənistan hakimiyyəti Qarabağ ermənilərinin geri qayıdışında, Azərbaycan cəmiyyətinə reinteqrasiyasında maraqlı deyil. Onun sözlərinə görə, ötən aylar ərzində baş nazir Nikol Paşinyan tərəfindən bununla bağlı heç bir açıqlama eşitməyib: "Paşinyan heç yerdə demədi ki, Qara-



bağ erməniləri mütləq qayıtmalıdırlar və sair. Ona görə də reinteqrasiya mövzusu Ermənistan üçün aktual deyil. Açığı bizim üçün də aktuallığını itirib. Biz onlara müraciət etdik, dedik ki, gəlsinlər, amma Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər. Onlar istəmirdilər və çıxıb getdilər. Gəlmirlərsə, Azərbaycan vətəndaşlığını qəbul etmək istəmirlərsə, bu onların öz seçimidir. Mən burada israr etməyin faydasını görmürəm".

Elxan Şahinoğlu deyib ki, Qarabağ ermənilərinin bir hissəsi qayıtsa, Azərbaycan vətəndaşlığını qəbul etsə, Ermənistan hökumətinin ölkəmizə qarşı "etnik təmizləmə arqumenti" zəifləyəcək. Ermənistan hakimiyyəti bunun baş verəcəyi təqdirdə, beynəlxalq aləmdə mövqelərinin zəifləyəcəyini düşünür. Ona görə də onlar Qarabağ ermənilərinin qayıdışında maraqlı deyillər.

Qeyd edək ki, Qarabağ ermənilərinin reinteqrasiya planı Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədovun sentyabrın 21-də, 25-də və 29-da Yevlax və Xocalı şəhərlərində erməni sakinlərin nümayəndələri ilə görüşündə onlara təqdim edilmiş, oktyabrın 2-də isə Azərbaycan Prezidentinin Administrasiyası tərəfindən Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı tədbirlər proqramı açıqlanmışdı. Sənəddə etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə, o cümlədən hər kəsin təhlükəsizliyinə təminat verildiyi bildirilir. Ancaq ermənilər bundan da imtina etdilər və Ermənistanda yaşamağı üstün tutdular. İndi isə məlum olur ki, Ermənistan dövlət səviyyəsində Qarabağ ermənilərinin reinteqrasiyasında maraqlı deyil. Reinteqrasiyanın həyata keçirilməsi üçün yaradılmış reintegration.gov.az saytına girişin qapadılmasını başqa cür izah etmək mümkünsüzdür. Seçim onlarındır: istəyirlər qayıtsınlar, istəmirlər qayıtmasınlar. Heç kim onlara minnətçi düşən deyil. Sadəcə, bu mövzuda manipulyasiya etməyə, Azərbaycanı suçlamağa son qoysunlar.

**Səxavət HƏMİD**
**XQ**

---

# Klaarsayağı ermənipərəstlik

## *Aİ-nin xüsusi nümayəndəsi İrəvanın silahlanmasına mütərəqqi don geydirməklə məşğuldur*

**Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Toivo Klaarın erməni mediasına müsahibəsində səsləndirdiyi fikirlər onu göstərir ki, kollektiv Qərbin məqsədi Ermənistana avantürist planlarının reallaşmasında dəstək verməkdən ibarətdir. O bildirib ki, Cənubi Qafqazda kommunikasiyaların açılması nəticəsində Ermənistan ərazisindən keçən istənilən avtomobil və dəmir yolunun ölkənin özü tərəfindən idarə olunması tamamilə məntiqidir. Ən əsası isə T.Klaar baş nazir Nikol Paşinyan administrasiyasının Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi imzalanmasının mümkün variantı kimi təklif etdiyi "Sülhün kəsişməsi" layihəsinə toxunub. O, Qarabağın erməni əhalisinin yaşayış yerlərinə qayıtmalarını da sülh müqaviləsinin tərkib hissəsi kimi gördüyünü açıqlayıb.**

***

Bəli, cənab Klaar birbaşa İrəvanın maraqları üzərində dayanır və bu maraqları sülh müqaviləsinə gətirmək kimi yaramazlığa əl atır. Görünən budur ki, kollektiv Qərb Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolda təhlükəsizliyi İrəvanın təmin etməli olduğunun tərəfdarıdır. Hər halda Azərbaycanın məsələnin belə bir qoyuluşu ilə razılaşmadığı və razılaşmayacağı aşkardır. Ölkəmiz mövcud xüsusda 10 noyabr 2020-ci il tarixdə imzalanmış üçtərəfli bəyanatda əksini tapanların icrasını vacib sayır. O bəyanatda ki, orada Ermənistanın baş nazirinin də imzası var və həmin imza təhlükəsizlik üzrə başlıca təminatın Rusiya Federal Təhlükəsizlik Xidməti olduğunu təsdiqləyir. İrəvan isə hazırda bunu inkar yolu tutmaqdadır.

Məsələ həm də ondadır ki, Bakı İrəvanın təhlükəsizlik təminatına etibar etmir və etibar etməməkdə haqlıdır. Buna görə Ermənistan şərtlərlə razılaşmayacağı təqdirdə, ölkəmiz Naxçıvana gedən yolun İrandan keçməsi təklifini irəli sürür. Ancaq Qərb istəyir ki, yolda təhlükəsizliyi Ermənistan özü təmin etsin, eyni zamanda, Azərbaycanın İran üzərindən marşrut variantı həllini tapmasın. Mövcud məqamı ötən həftə ABŞ Dövlət Departamenti rəhbərinin köməkçisi Ceym O'Brayn da vurğuladı. Azərbaycanın Xarici İşlər Nazirliyinin Vaşinqtondan səslənmiş məsələyə sərt münasibəti ortadadır. Qurum ABŞ-ın ölkəmizin daxili işinə qarışmasının yolverilməzliyini açıqlayıb. Yeri gəlmişkən, O'Braynın dominant tonlu yanaşmasına İrandan da sərt reaksiya gəlib. T.Klaarın fikirləri isə amerikalı diplomatın söylədiklərinin bir qədər mədəni üslubdakı təkrarından başqa bir şey deyil. Yəni ki, qəbuledilməzdir.

***

Qarabağ ermənilərinə gəlincə, onların bölgəyə geri dönmələrinin təmin olunması məsələsinə toxunan avropalı diplomatın fikrincə, prosesin reallaşması üçün, kifayət qədər, təhlükəsizlik hissi və bu hissi təmin edən şərait yaradılmalıdır. Cənab Klaar "təhlükəsizlik hissi və təhlükəsizliyi təmin edən şərait" dedikdə nəyi nəzərdə tutduğunu açıqlamasa da, əslində belə bir deyimin gündəmə gəlməsi əvvəlki mətləblərin yada salınmasıdır. Biz də xatırlayaq.

Məlum olduğu kimi, Aİ Şurasının Prezidenti Şarl Mişel bir müddət əvvəl demişdi ki, Qarabağa BMT sülhməramlıları yeridilməli və onlar Qarabağ əhalisinin təhlükəsizlik təminatı funksiyasını yerinə yetirməlidirlər. Problemin belə qoyuluşu isə Azərbaycana, qətiyyən, sərf edə bilməz. Çünki Qərbin təklif etdiyi, əslində Ermənistanın Qarabağ iddiasının davamına hesablanıb. Mövcud hesablamada ölkəmizin suverenliyi və konstitusyon əsasda verdiyi təminatlar heçə sayılır, Qarabağ erməniləri ayrıca təbəqə statusunda vurğulanır. Əslində qərəzli yanaşma da elə budur.

Göründüyü kimi, Aİ haqqında söz açdığımız məsələni qabardaraq, onları şərt kimi irəli sürür. Niyyətini pərdələmək üçün Klaarın şəxsində bildirir ki, hər şey Ermənistan və Azərbaycanın son nəticədə necə qərar verəcəyindən, müqavilənin mətnini hansı formada tərtib edəcəyindən asılıdır. Elə isə sual yaranır: Nəyə görə, Azərbaycan və Ermənistan özləri tam müstəqil şəkildə bir masa ətrafında əyləşməsinlər? Azərbaycan buna razıdır və dəfələrlə də mövqeyini bəyan edib. Cavab sadədir. Ona görə əyləşməsinlər ki, Qərb Ermənistanın üzərindən öz əlini çəkməkdən, ona Cənubi Qafqazla bağlı qlobal planlarını



diktə etməkdən vaz keçmək niyyətindən uzaqdır.

***

T.Klaar müsahibəsində yekun sülh sazişinin imzalanmasından və ondan sonra gələcək şərtlərin yerinə yetirilməsinin vacibliyindən, mövcud xüsusda kommunikasiyaların açılmasından, sərhədlərin demarkasiyasından, sərhəd boyunca qüvvələr arasında məsafəni təmin etməkdən, sakinlərə real təhlükəsizlik hissini aşılamaqdan, qarşılıqlı şəkildə Azərbaycanda və Ermənistanda səfirliklərin açılmasından, ölkələrin birbaşa hava əlaqəsinin təminatından söz açır. Necə deyərlər, avazı yaxşı gəlir, oxuduğu Quran olsa. Nəyə görə bu misalı çəkərək, şübhə yaradırıq? O səbəbdən ki, Aİ-nin kiminsə tərəfində olmaq məcburiyyətində qalmadığını deyən Klaar Prezident İlham Əliyevin bu il oktyabrın 5-də Qranada sammitində iştirakdan imtina qərarını yada salır və bunu məyusluğunu ifadə edirmiş kimi gündəmə gətirir. O sammitdə ki, orada Aİ, ümumilikdə kollektiv Qərb aşkar ermənipərəst mövqe tutdu. Görünür, Qərb öz baxışını erməni maraqlarına xidmət prizmasında dəyərləndirmir.

Digər tərəfdən, Qərbin ermənipərəst mövqeyində Cənubi Qafqazla bağlı problemlərin bölgə müstəvisində həllinin vacibliyindən uzaqlıq məntiqi əsasdır. Buna görə də T.Klaar müsahibəsində bildirir ki, sülh müqaviləsi, nizamlanma prosesi "3+3" regional platformasında həllini tapa bilməz.

Əlbəttə, sözügedən platforma birbaşa sülh platforması kimi qiymətləndirilmir. Əslində bunu təşəbbüsün tərəfdarları da vurğulayırlar. Ancaq başlıca məsələ budur ki, "3+3" regiona bağlı əməkdaşlıq müstəvisidir və mövcud platformadakı məsələlərin həlli, eyni zamanda sülh üçün də etibarlı təminatdır, nəinki uzaq Avropadan, ümumən Qərbdən irəli sürülmüş hansısa mürəkkəb və mübahisəli ideya.

***

Maraqlıdır ki, Bakı–İrəvan nizamlanma prosesində ciddi irəliləyişə maneçilik törədəcək səbəblərin olmadığını, müzakirə üçün masa üzərində çox az məsələlərin qaldığını və onların dəfələrlə qarşılıqlı diskussiya predmetinə çevrildiyini vurğulayan T.Klaar anlamaq istəmir ki, məhz indiki həssas durumda Ermənistanın sürətli silahlanmaya üstünlük verməsi mənfi təzahürdür, ona etimadı azaldır. Əvəzində heç nə olmamış kimi bildirir ki, hər ölkənin silahlanması onun daxili işidir. "Avropa Sülh Fondu çərçivəsində Ermənistana dəstək məsələsinə gəlincə, bizim nöqteyi-nəzərimizdən burada söhbət Ermənistanın özünü həssas hesab etdiyi bəzi sahələrdə ona potensial dəstəyin göstərilməsindən gedir. Məsələn, onlardan biri kimi kibertəhlükəsizlik qeyd olunub".

Kibertəhlükəsizlik. Bəli, Klaarın diqqəti əsas məsələdən yayındırdığı aşkardır. O vurğulayır ki, Ermənistanın silahlanması ölkənin suverenliyinin möhkəmləndirilməsi məqsədi ilə edilir. Bu isə guya, təkcə İrəvana deyil, həm də onun qonşularına və geniş beynəlxalq ictimaiyyətə faydalıdır. "Biz Avropa İttifaqı üçün yaxşı tərəfdaş və qonşuları, o cümlədən Azərbaycan üçün də eyni dərəcədə yaxşı tərəfdaş olacaq güclü, özünə güvənən Ermənistana sahib olmaq istəyirik", – deyən T.Klaarın məzələnmək üçün başqa nələrdən söz açmasını vurğulamağa ehtiyac yoxdur. Çünki hər şey göz qabağındadır. Görünür, avropalı ali rütbəli diplomat özünü İrəvanın hər cür oyunbazlığına haqq qazandırmaq kimi həyasızlığa kökləyib. Başqa nə deyəsən?

**Ə.CAHANGİROĞLU**
**XQ**

Baxış bucağı

# Futbol üzərindəki məkrdən De Byazinin "Fiat" minnətinədək

## *Belçikada dövlət himnimizə qarşı hörmətsizliyə sözardı*

(əvvəli 1-ci səhifədə)

Məlum olduğu kimi, Azərbaycan-Ermənistan nizamlamasında Brüssel formatı var. Əlbəttə, söhbət artıq ermənipərəstliyə köklənmiş formatdan gedir. Nəticə etibarilə hazırda himn söhbətini də Qərbin Azərbaycana münasibəti baxımından dəyərləndirmək üçün əsaslar var. Yəni, Azərbaycanı dövlət kimi qəbul etmədiklərini göstərmək istəyiblər. Bu yerdə sonradan himnin çalınmasının da heç bir önəmi yoxdur. Əsas odur ki, hörmətsizlik edildi və "elə dövlətsiniz ki, himninizi də tapa bilmirik, tapmağa ehtiyac görmürük" mesajı verildi. Məhz buna görə üzrxahlıq da ikinci dərəcəli məsələdi. Özü də üzr istəyən stadionun diktorudur. Yəni, fikrimizcə, bunu etməli olan ən axırıncı şəxs. Bəs, birinci və ya birincilər?..

***

Digər tərəfdən, doğrudur, İsveç milli komandamızın yer aldığı qrupdadır. Düşünmək olardı ki, bu ölkənin himninin yerinə qrupdakı, məsələn, Estoniyanın, yaxud Avstriyanın himni də səhvən səslənə bilərdi. Amma orada məhz İsveçin himni əsas götürülüb. O İsveçin ki, Azərbaycan millisi üç gün əvvəl Bakıda gözlənilməz şəkildə onu 3-0 hesabı ilə məğlu-



biyyətə uğratmışdı.

Söhbət həm də o İsveçdən gedir ki, öz meydanında futbolçularımızın qapısından nə az, nə çox, düz 5 cavabsız top keçirmişdi. İndi isə Belçikanın Azərbaycan üzərində hansı hesabla qalib gəldiyinə diqqət yetirək – 5:0. Görünür, millimizin Bakıdakı böyük hesablı – 3:0-lıq qalibiyyəti kimlərdəsə nəinki narahatlıq, hətta hiddət doğurub. Ona görə də Azərbaycan himnini yerinə, İsveçin himnini səsləndiriblər. İkincisi isə İsveçin öz meydanında Azərbaycana qalib gəldiyi hesabı təkrarlayıblar. Beləliklə, Azərbaycana qarşı, bir növ, mübarizə həmrəyliyi ortaya qoyublar, müəyyən mənada duruma tarazlıq gətirmək yolu tutublar. Yəni, hesab 5:0-dır məntiqi. Onu da nəzərə alaq ki, ilk baxışdan görünən mənzərə hazırkı Belçika millisinin Azərbaycan millisinin qapısından 5 deyil, daha çox da top keçirə biləcəyi təəssüratını yaradır. İlk hissədə dörd topun ard-arda vurulması da bunun təsdiqi olaraq qiymətləndirilə bilər.

***

Bəli, sonda məsələ yenə də futbolumuzun üzərinə gəlir. Həqiqətən, idmanın bu növü zəif yerimizdi və görünür, vəziyyət belə hələ çox davam edəcək. Davam etdikcə də hansısa qüvvələr bu amilin üzərindən də Azərbaycana, loru dildə desək, sataşmaqlarına ara verməyəcəklər. Yaxşı olmazdımı ki, himnlə bağlı hörmətsizliyə görə, Belçika millisi meydanda cəzalandırılaydı. Əla olardı. Amma təəssüf ki, milli komandamızın səviyyəsi indiki kimi aşağı qaldıqca, dediyimiz ancaq yuxu olacaq.

Yuxudan söz düşmüşkən, Azərbaycan millisinin baş məşqçisi Canni De Byazinin Belçikaya məğlubiyyətdən sonrakı mətbuat konfransında azərbaycanlı jurnalistləri təhqir etməsinə diqqət yetirək. Əlbəttə, onun media təmsilçilərimizə münasibətdə hansı ifadələr seçməsi üzərində dayanmaq istəməzdik. Onu öz tərbiyəsi ilə baş-başa qoyuruq. Yalnız italiyalı mütəxəssisi qəzəbləndirən sualın məzmununu diqqətə çatdıraq: "Azərbaycandan getdikdən sonra jurnalistlər üçün darıxacaqsızmı?".

Əlbəttə, sualda baş məşqçinin getməsinin vacibliyinə eyham vuran haqlı kinayə var və bu kinayə yalnız De Byaziyə ünvanlanmayıb. Belə nəticəyə gəlirik ki, baş məşqçidən biabırçı məğlubiyyətə görə, belə demək mümkünsə, hesab soran yalnız jurnalistlərdir. Elə italiyalını qəzəbləndirən də budur ki, nə üçün ona pul verənlərin yox, medianın tənqidinə tuş gəlir. Görünür, o, "musiqini kim sifariş edirsə, o da oynamalıdır" məntiqini əsas tutur. Əlbəttə, indiki halda, bu, son dərəcə axmaq məntiqdir. De Byazinin fikirlərindən anlaşılan budur ki, azərbaycanlı jurnalistlər millimizin Bakıda Avstriya, İsveç və Belçika ilə oyununa görə onun üzərinə yüklənməməli, səfərdə sonuncu ilə 0:5 məğlubiyyətindən söz açmamalı idilər: "Onlar "FIAT 500" ilə "Ferrari"yə qalib gələ bilməyəcəyimizi görməyə qadir deyillər".

Yeri gəlmişkən millimiz doğma divarlar arasında Belçika və Avstriyaya uduzub. Çox da ki, qənaətbəxş təsir bağışlayıb. Əsas nəticədir. Əslində, De Byazini nəinki indiki nəticəyə, hətta ədəbsizliyinə görə günahlandırmaq niyyətindən uzağıq. Onun yuxarıdakı fikirləri söylədikdən sonra tərcüməçisindən dediklərini belçikalı jurnalistlərin də başa düşməsi üçün tərcümə etməsini bildirməsini, nümayişkəranə şəkildə mətbuat konfransının keçirildiyi salondan uzaqlaşmasını da bir kənara qoyuruq. Əsas məsələ necə deyərlər, "FIAT 500" ilə "Ferrariyə" qalib gələ bilinməməsi məntiqidir.

Mövcud xüsusda uzun-uzadı yazmaq istəməzdik. Bir məsələni qeyd edəcəyik. Nə qədər ki, ciddi, real islahatlar getmir, uşaq futbolu yüksək inkişaf mərhələsində deyil, ordan-burdan gətirilmiş, "istifadə müddəti bitmiş" şəxslərə vətəndaşlıq verilib oyuna salınacaq, Azərbaycan futbolu elə "FIAT 500" olaraq qalacaq. De Byazi kimilər isə bu mənzərədə özünü klinik ölüm anındakı şəxsə verilən süni nəfəs aparatına oxşadaraq minnət qoyacaq, jurnalistlərə qarşı kobud davranacaqlar. Nəticədə 0:5-lər yuxumuzu hələ çox ərşə çəkəcək. Elə dövlət atributlarımıza hörmətsizliklər də.

**Ə.RÜSTƏMOV**
**XQ**

---

Ekspert rəyi

**Asif NƏRİMANLI,**
**siyasi şərhçi**



Fransanın Ermənistanı silahlandırması ermənilərin müdafiəsinə yox, Cənubi Qafqazdakı maraqlarını təmin etməyə hesablanıb. Hazırda rəsmi Paris Ermənistana müdafiə xarakterli silahlar verir, hücum silahlarını isə Hindistan üzərindən təmin edir. Bu silahlandırmanın konkret hədəfləri var. Qərb cəbhəsi Rusiyanı Cənubi Qafqazda sıxışdırmaq niyyətindədir və bunu Ermənistan üzərindən edir. Rəsmi İrəvana böyük vədlər verilib və belə görünür ki, ermənilər 100 il öncə Osmanlıya qarşı etdikləri xəyanəti bu gün Rusiyaya qarşı edirlər. Moskva bunu bağışlamayacaq, artıq iqtisadi müstəvidə müəyyən addımlar atılır. Prosesin inkişafında Kreml həm siyasi, həm iqtisadi təzyiqləri artıracaq. O baxımdan, Ermənistanın silahlandırılmasının, ilk növbədə, bu ölkənin özünə qarşı mənfi fəsadları olacaq.

Bununla yanaşı, silahlanan Ermənistanın Azərbaycana qarşı təxribata sövq ediləcəyi də istisna deyil. İrəvana KTMT-dən çıxmaq, Rusiyadan uzaqlaşmaq üçün bəhanə lazımdır. Sərhəddə təxribat törətməklə yeni eskalasiya yarada, daha sonra Rusiyanın və KTMT-nin müdafiə öhdəliklərini yerinə yetirmədiyini irəli sürə bilər. Bu ssenaridə də Ermənistanı ağır zərbələr gözləyir. Çünki Azərbaycana qarşı istənilən təxribata cavab ağır olacaq. Ordumuzun potensialı, eləcə də sərhədboyu ərazilərdə strateji mövqelərin bizim nəzarətimizdə olması mümkün təxribatların qarşısını almağa və adekvat cavab verməyə tam imkan verir. Ermənistan belə təxribatlar zamanı həmişə ağır itkilər verib, növbəti cəhdində eyni aqibətlə üzləşəcək.

Proseslər göstərir ki, İrəvandan bölgədə plasdarm kimi istifadə etmək niyyətindədirlər. Bu isə Ermənistanın mövcudluğunu sual altına salır.

# Çanaq Ermənistanın başında çatlayacaq

## *Deyəsən, İrəvan "müttəfiqlər"inin ona qurduqları silahlanma oyununun fərqində deyil*

(əvvəli 1-ci səhifədə)

### Hindistan bazarı boş görüb

İkinci Qarabağ müharibəsindən sonra Rusiya hərbi texnikasının effektivliyinə şübhələrini dəfələrlə bəyan edən rəsmi İrəvanın alternativ silah tədarükçülərindən biri də Hindistandır. Cənubi Qafqaza silah ixracı bazarında Rusiyanın yerini tutmağa can atan Dehlinin marağının gəlir əldə etmək olduğu aydındır. Yerli "Idrw" nəşrinin yazdığına görə, Hindistanın "Bharat Forge" müdafiə şirkəti indi də Ermənistana özüyeriyən "MarG" qaubitsalarını çatdırmağı planlayır. Artilleriya sistemlərinin istehsalı üzrə ixtisaslaşmış bu şirkət rezin təkərli həmin qaubitsaları bu yaxınlarda sərgidə nümayiş etdiribmiş. Nəşr onu da qeyd edir ki, bu layihə Hindistana özünün milli müdafiə avadanlığını beynəlxalq partnyorlara ixrac etmək səyləri istiqamətində vacib addım sayılır: "Ermənistanla hərbi-texniki sövdələşmə iki ölkə arasında artan strateji tərəfdaşlığa əsaslanır. Hindistan Ermənistana müdafiə texnikasının əsas tədarükçüsü rolunu oynamaqdadır. 2020-ci ildə İrəvan Hindistandan Swathi üçün mobil radar qurğuları alıb. Keçən il oxşar müqavilənin dəyəri 245 milyon ABŞ dolları həcmində olub. Bir il əvvəl "Pinaka" çoxlüləli raket qurğuları, tank əleyhinə raketlər və müxtəlif növ silah-sursatın alınması üzrə razılıq əldə edilmişdi".

• **QEYD: 155 millimetrlik lüləyə, 39 yivli mərmiyə malik, 4x4 aparıcı təkərlərlə 30 dərəcə bucaq altında yoxuşu aşmağa qadir MArG 155 artilleriya sisteminin Hindistanın hərbi arsenalında olması barədə ilk informasiya KİV-də cari ilin martında peyda olub.**

Bir qədər əvvəl Rusiyaya yaxın media seqmentləri belə bir məlumat yaymışdılar ki, Ermənistan ABŞ-ın birbaşa yardımı ilə Ukraynaya "Toçka-U" raket komplekslərini çatdırmağa razılaşıbmış. Bu barədə məlumat Müharibəni Öyrənmə İnstitutunun (ISW) hesabatında yer almışdı. Düzdür, müəlliflər informasiyanı təsdiqləyəcək sübutun olmadığını da nəzərə çatdırmışdılar. Fəqət, necə deyərlər, od olmasa tüstü çıxmaz. Həm də Moskva ilə münasibətləri gərginliyin zirvəsinə çatmış İrəvanın belə bir addımı atacağı təəccüblü sayılmamalıdır. Həmin mənbə, həmçinin Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsindən (KTMT) çıxmağa hazırlaşdığını da təsdiqlənmiş informasiya kimi vermişdi.

### İrəvanın havaya sovurduğu pullar

Yeri gəlmişkən onu da oxucuların nəzərinə çatdıraq ki, 2020-ci il müharibəsindən sonra Rusiya Ermənistana 20 illik kredit şərti ilə 1 milyard 400 milyon dollar dəyərində silah və sursat təklif edib. 400 milyon dollar məbləğində ilkin müqavilə imzalanmağa hazır idi. Bir milyard dollarlıq müqavilənin iki ölkə hökumətləri və maliyyə nazirlikləri tərəfindən təsdiqlənməsinə bir neçə gün qalmış İrəvan birdən-birə sövdələşmədən imtina edib. Bunun əvəzində Hindistanda özəl hərbi şirkətlərlə müqavilələr bağlayaraq, onların hesabına 500 milyon dollar maliyyə vəsaiti köçürüb. Ödədiyi məbləğin qarşılığında isə hələlik silahların 5-10 faizini alıb. Bir qədər əvvəl isə KİV İrəvanın Dehli ilə pilotsuz uçan aparatlarla (PUA) mübarizə sistemlərinin – ZADS-ların (Zen Anti-Drone System) alınmasına dair saziş imzaladığı üzə çıxarıb. 41,5 milyon ABŞ dolları həcmində olan müqaviləni Hindistan tərəfindən Zen Tech-



nologies şirkətinin imzaladığı bildirilir. Həmin şirkət PUA-lardan müdafiə qurğuları ilə yanaşı, onunla işləyəcək operatorların təlimini də həyata keçirəcək. Yerli rəsmi saytlar ZADS sisteminin Hindistan HHM tərəfindən uğurla sınaqdan çıxarıldığını və özünün effektivliyini təsdiqlədiyini yazıblar.

Beləliklə, iqtisadi infrastruktur "can üstə" olan Hayastan ordusuna silah alınmasına milyardlar xərcləməkdədir. Əlbəttə ki, Fransa və Hindistanla (indi də ABŞ Ermənistanın "militarizasiya kampaniyasına" qoşulmağa hazırlaşır –red.) məlum hərbi-texniki sövdələşmələrə Paşinyan hakimiyyəti özbaşına getmir. Bunu etməyə onu kənar sponsorlar təhrik edirlər. İrəvan onların çaldığına oynamağa məhkumdur. Çünki musiqini onlar sifariş verirlər. Bu "simfoniyanın həlledici partiturası" Fransaya məxsusdur. Afrikada mahnısı oxunmuş, qatarı yola salınmış Paris Ermənistanın simasında Qafqazda yeni koloniyalar axtarışındadır.

### Qafqaz Afrika deyil, müsye Makron!

İntəhası, "qara qitə"dən fərqli olaraq, bizim bölgəmizdə Fransanın oyun meydançası tanınmayacaq. Çünki Cənubi Qafqazda artıq bunu Emmanuel Makronun üzünə açıq şəkildə bəyan etməkdən çəkinməyən güc var.

Dünən Bakıda öz işinə başlayan Qoşulmama Hərəkatının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda konfransın iştirakçılarına müraciətində ölkəmizin QH-ya sədrliyi dövründə dekolonizasiya gündəliyinə xüsusi diqqət ayırdığını bildirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kolonializmin qadınların hüquqlarına mənfi təsir göstərdiyini xüsusi vurğulayıb: "Biz bəzi ölkələrin, xüsusilə də Fransanın yürütdüyü neokolonializm siyasətini qlobal səviyyədə ifşa etmiş, bu utancverici praktikaya son qoyulması tələbini səsləndirmişik".

Bəli, Afrikadan qovulmuş Fransa hazırda Ermənistanı silahlandırmaqla neokolonializmin "Qafqaz variantını" sınaqdan çıxarmağa girişib. Görünür, İrəvan hələlik bunun fərqində deyil. Ermənistan 29,8 min kvadratkilometrlik bütün ərazisini cəbbəxanaya döndərsə belə, Azərbaycanla hərbi müstəvidə heç nəyə nail ola bilməyəcək. Rəsmi İrəvanın özünün etiraf etdiyi kimi, Azərbaycanın hərbi büdcəsi onların sahəyə ayırdıqları vəsaitdən üç dəfə çoxdur. Heç kəsə gizli deyil ki, Azərbaycan öz ordusu üçün dünyanın qabaqcıl ölkələrindən ən müasir, NATO standartlarına uyğun texnika və silah-sursat alır. Ermənistanın gücü isə Fransanın Ukraynadan geri qaytarılan, orada bir işə yaramayan, qabıqlarını güllənin dəlib keçdiyi "zirehli transport-yorları", bir də Hindistanın yöndəmsiz və geridə qalmış özüyeriyən qaubitsalarını almağa çatır. Çanağın öz başlarında çatlayacağının fərqinə varmayan Paşinyan hərəsi bir tanka bərabər Azərbaycan xüsusi təyinatlılarının, komandolarının qarşısına bu silahlarlamı çıxmağa hazırlaşır?

**İmran BƏDİRXANLI**
**XQ**

---

Ekspert rəyi

**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq**



Ermənistanın dörd ölkə ilə quru sərhədi var, Türkiyə və Azərbaycanla sərhədlər bağlı olduğu üçün geriyə İran və Gürcüstan qalır. Hindistandan alınan silahların, hərbi texnikanın İran, Fransa və digər Avropa ölkələrindən göndərilənlərin isə Gürcüstan üzərindən daşınması müzakirə edilirdi. Daşınan silah və hərbi texnika mütləq şəkildə reqlamentləşdirilməlidir. Yəni Ermənistan ilə Fransa arasında müvafiq saziş olmalı və bu, eyni zamanda rəsmi Tiflisə də təqdim edilməlidir. Prosesin həyata keçirilməsi üçün isə Gürcüstan Müdafiə Nazirliyinin xüsusi icazəsi lazımdır. O ki qaldı Azərbaycanla münasibətlərə, fikrimcə, bu məsələ ikitərəfli münasibətlərə ciddi təsir göstərməyəcək. Xarici İşlər Nazirliyinin də sözügedən faktla bağlı verdiyi rəsmi açıqlamada Gürcüstanın adı çəkilmir.

Rəsmi Tbilisi 44 günlük müharibə dövründə hər iki tərəfə öz ərazisindən silah daşınmasına icazə verməyəcəyini bəyan etmişdi. Bu da anlaşılan idi. Doğrudur, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanmasa da, aktiv hərbi əməliyyatlar getmədiyi üçün daşınmaya sülh dövründə həyata keçirilən saziş şərti kimi baxılır. Digər tərəfdən indiki məqamda Azərbaycan Gürcüstanı Ermənistanla danışıqlar üçün ən məqbul məkan hesab edir. Bütün sadaladıqlarımızın fonunda, əlbəttə, rəsmi İrəvanın silahlanması qəbuledilməzdir. Amma aktiv müharibə fazasında olmadığımız üçün hələlik bunun qarşısını almaq çox çətindir.



# Azərbaycan “yaşıl gücü”nü sürətlə yüksəldir

## Ölkəmiz bərpaolunan enerji ilə bağlı hədəfinə 3 il tez çatacaq

(əvvəli 1-ci səhifədə)

Energetika naziri çıxışında daha sonra bərpaolunan enerji mənbələrinin dayanıqlı inkişafdakı rolu və karbon emissiyalarının azaldılmasının zəruriliyi kontekstində enerji keçidinin çağırışları və imkanlarını da diqqətə çatdırıb. O qeyd edib ki, enerji keçidi ölkələrinin inkişafı, enerji təhlükəsizliyinin səviyyəsi, investisiyaların qeyri-bərabər paylanması kimi bir çox amillərdən asılılığı vahid formula malik olmasa da, ədalətli, əlverişli və inklüziv keçid hamının ortaq marağıdır.

Sammitdə yuxarıda vurğulananlarla bərabər, regional və Avropa miqyasında enerji təchizatında strateji rol oynayan Azərbaycanın enerji keçidinə balanslı yanaşmanın tərəfdarı olduğu və bu baxımdan ölkəmizin ənənəvi, həmçinin bərpaolunan enerji mənbələrini vəhdətdə inkişaf etdirdiyi diqqətə çatdırılıb. Eyni zamanda bu siyasətin enerji təchizatında dayanıqlığı, enerji resurslarına olan ehtiyacları qarşılamağı və “yaşıl plan”ların icrasını gerçəkləşdirmək baxımından mühüm önəm daşıdığı vurğulanıb.

P.Şahbazov Azərbaycanın enerji ixracı və regional əməkdaşlıq sahəsində strateji prioritetlərindən də bəhs edərək bildirib ki, “Xəzər-Qara dəniz-Avropa” və Azərbaycan–Türkiyə–Avropa dəhlizlərini yaratmaq və şaxələndirilən marşrutlarla 5 QVt-dan çox “yaşıl enerji” ixrac etmək respublikamız qarşısında duran strateji prioritetlərdən biridir. Bu dəhlizlər Mərkəzi Asiya ölkələrindən də “yaşıl enerji”nin nəqli imkanlarını vəd edir.

Xatırladaq ki, Azərbaycanın dənizdə külək enerjisi potensialı 157 QVt həcmində hesablanıb. Bu potensialın icrası məqsədilə xarici investorlarla müqavilələr də imzalanıb. Azərbaycan Energetika Nazirliyi, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası (IFC) tərəfindən ötən il təqdim edilən Yol Xəritəsində 2040-cı ilədək ölkəmiz nəzərdə tutulan infrastruktura inkişaf etdirməklə, eyni zamanda investisiya qoyuluşu sayəsində dəniz küləyindən 7 qiqavatlıq enerji hasilatını reallaşdıra bilər. Bununla da respublikamız dekarbonlaşma kimi qarşıya qoyulan vəzifənin həllində mühüm rol oynayar.

Proqnozlaşdırmaya görə, Azərbaycanda 2040-cı ilədək 1,5 qiqavat qoyuluş gücünü gerçəkləşdirəcək və dekarbonlaşdırılmış enerji istehsalının 7 faizini reallaşdıracaq. Həmçinin bu dövrdə dəniz külək energetikasının qoyuluş gücü 7,2 qiqavata çatdırılaraq enerji təchizatının 37 faizi təmin olunacaq.

Göründüyü kimi, respublikamızda iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün bərpaolunan enerji mənbələrinin böyük potensialı var. Belə ki, ölkəmizin quruda 27 qiqavat enerji potensialı (günəş və külək enerjisi), dənizdə isə 157 qiqavat enerji potensialı mövcuddur. Bu enerjinin əldə olunması, istehsalı və ixracı isə böyük layihələr, habelə investisiyalar tələb edir.

Prezident İlham Əliyev çıxışlarının birində ölkəmizin bərpaolunan enerji potensialından bəhs edərkən deyib: “İstər hidro, istər külək enerjisi sahəsində həm Gürcüstanda, həm də Azərbaycanda, o cümlədən Qarabağda böyük potensial var. Biz 25 qiqavat enerjini istehsal etmək məqsədilə bərpaolunan enerji sahəsində məşhur olan bir neçə əsas beynəlxalq şirkətlə müqavilə və anlaşma memorandumları imzalamışıq. 700 meqavatdan artıq günəş və külək enerjisini biz ola bilsin, maksimum 2025-ci ilə qədər təmin edəcəyik. Qalan güclərin yaradılması plandadır. Bir sözlə, gələcəyimizin böyük üfüqləri var”.

Növbəti illərdə elektrik enerjisinin istehsal dinamikası artıq bərpaolunan enerji mənbələrinə əsasən formalaşacaq. Bunun üçün zəngin potensial, bərpa olunan enerjinin inkişafını prioritetləşdirən dövlət siyasəti, yeni qanunvericilik bazası və xarici investisiyaların cəlbi kimi bütün zəruri şərtlər mövcuddur.

Yeri gəlmişkən, bu il ərzində ölkə üzrə elektrik enerjisinin istehsalı ilə bağlı göstəricilərə də nəzər salmaq istərdik. Energetika Nazirliyindən verilən məlumata görə, cari ilin 10 ayında respublikada elektrik enerjisinin istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 278,5 milyon kilovat-saat, yəni 1,2 faiz artaraq 24 milyard 33 milyon kilovat-saat olub. Hesabat dövründə elektrik enerjisi istehsalı istilik elektrik stansiyalarında (İES) 22 milyard 214 milyon kilovat-saata, su elektrik stansiyalarında (SES) 1 milyard 529 milyon kilovat-saata, digər mənbələr üzrə isə 289,7 milyon kilovat-saata çatdırılıb. Bu dövrdə külək elektrik stansiyalarında (KES) 49,1 milyon kilovat-saat, günəş elektrik stansiyalarında (GES) 58,6 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 182 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Hesabat dövründə elektrik enerjisinin istehsalı “Azərenerji” ASC üzrə 21 milyard 675 milyon kilovat-saat (İES-lərdə 20 milyard 242 milyon kilovat-saat, SES-lərdə 1 milyard 432 milyon kilovat-saat), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 402,6 milyon kilovat-saat (İES-lərdə 264,7 milyon kilovat-saat, SES-lərdə 84 milyon kilovat-saat, Günəş ES-də 53,9 milyon kilovat-saat), “Azərişıq” ASC üzrə KES-lərdə 37,8 milyon kilovat-saat, müstəqil elektrik stansiyaları üzrə isə 1 milyard 918 milyon kilovat-saat təşkil edib.

2023-cü ilin yanvar–oktyabr ayları üzrə elektrik enerjisinin ixracı 2 milyard 357 milyon kilovat-saat, idxalı isə 190,1 milyon kilovat-saat olub.

Qeyd edək ki, 2023-cü ilin oktyabr ayında respublika üzrə elektrik enerjisinin istehsalı 2 milyard 494 milyon kilovat-saat təşkil edib. Bu ayda elektrik enerjisinin idxalı 10,5 milyon kilovat-saat, ixrac isə 519,4 milyon kilovat-saat təşkil edib.

**M.YAQUBZADƏ**
**XQ**

**Dünən Gülüstan Sarayında Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə “Gömrük-Biznes Forumu 2023”ün açılış mərasimi keçirilib.**

# Bakıda Gömrük forumu keçirilir

Əvvəlcə Azərbaycan Respublikası Prezidentinin köməkçisi Şahmar Mövsümov, Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və iştirakçılar sərgi ilə tanış olublar.

Azərbaycanda fəaliyyət göstərən yerli və xarici şirkətlərin nümayəndələrinin, aparıcı media qurumlarının rəhbərləri və digər rəsmi şəxslərin iştirak etdiyi forum Ulu öndər Heydər Əliyevin Dövlət Gömrük Komitəsinin



1997-ci il yanvarın 30-da keçirilmiş beşillik yubiley tədbirində söylədiyi proqram xarakterli nitqindən hazırlanmış video-çarxın nümayişi ilə başlayıb.

Açılış mərasimində Prezidentin köməkçisi Şahmar Mövsümov çıxış edib. Qeyd olunub ki, Prezident İlham Əliyev tərəfindən ölkəmizin dayanıqlı inkişafı istiqamətində həyata keçirilən irimiqyaslı iqtisadi islahatlar çərçivəsində gömrük xidməti tərəfindən reallaşdırılan layihələrin vətəndaşlara və biznes subyektlərinə çatdırılması üçün təşkil edilən forumun əsas məqsədi gömrük və biznes əməkdaşlığına Komitənin korporativ hesabatı, görüləcək işlərin anonsu və gerçəkləşdirilən layihələrdə fəal iştirak üçün biznes subyektlərinə çağırış, habelə yeni xidmət və məhsulların faydasından bəhs ediləcək işgüzar ortam yaratmaqdır.

## Neft-qaz sektorunda investisiyanın həcmi 20 faiz çoxalıb

**Dövlət Statistika Komitəsindən bildirilib ki, bu ilin 9 ayında neft-qaz sektoruna 4 milyard 913 milyon manatlıq vəsait yönəldilib. Həmin dövr ərzində ölkənin neft sektoruna yatırılan investisiyaların həcmi isə 20 faiz artıb.**

Qeyd edək ki, 2022-ci ilin müvafiq dövründə bu göstərici 3 milyard 945 milyon manat səviyyəsində olub.

**XQ**



# Şimal–Cənub Dəhlizinin illik gəliri 20 milyard dollara çatacaq

**İranın Nəqliyyat İnfrastrukturunun Tikintisi və İnkişafı Dövlət Şirkətinin icraçı direktoru Xeyrulla Xademi mediaya müsahibəsində Rəşt–Astara dəmir yolunun tikintisinin davam etdirilməsi istiqamətində Rusiya ilə aparılan danışıqlarda texniki məsələlərin 70 faizinin razılaşdırıldığını, ilin sonuna kimi isə digər məsələlərlə bağlı razılıq əldə olunacağını bildirib.**

X.Xademinin sözlərinə görə, yolun tikintisinin maliyyələşmə qrafiki, yük daşıma imkanının artırılması, stansiyaların inşası, istismar qaydaları haqqında Rusiya ilə razılıq əldə olunaraq sənəd imzalanıb.

Xatırladaq ki, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən Rəşt–Astara yolu Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolunun davamıdır. Asiya ilə Avropanı nəqliyyat baxımından birləşdirəcək bu dəhlizin fəaliyyətə başlaması nəticəsində İran, Azərbaycan və Rusiyanın tranzit yükdaşıma imkanları artacaq. Cənub Şərqi Asiya ölkələrindən daşınan yüklər Hindistanın Mumbai limanına, buradan isə İranın Çabahar və Bəndər-Abbas limanlarına daxil olacaq. Bu limanlardan isə yüklər qatarla Qəzvin–Rəşt–Astara (İran)–Astara (Azərbaycan) dəmir yolu ilə ölkəmizin ərazisindən keçərək Rusiya və Avropaya daşınacaq.

İranın Prezident Administrasiyasının rəhbərinin müavini Məhəmməd Cəmşidi İSNA İnformasiya Agentliyinə verdiyi müsahibədə qeyd edib ki, Şimal–Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin gətirəcəyi gəlir neft satışından əldə olunan gəlirə bərabər olacaq. Onun sözlərinə görə, bu dəhlizin illik gəliri 20 milyard dollara çatacaq.

İranın “Jam-e Jam” qəzeti isə adıçəkilən dəhlizi “ticarətin qızıl yolu” adlandıraraq 162 kilometrlik Rəşt-Astara yolunun Rusiya ilə Hindistan arasında yükdaşımaları asanlaşdıracağını proqnozlaşdırır. Ona görə də Rusiyanın bu yolun tikintisinə 1,6 milyard avro həcmində sərmayə yatırması da təsadüfi xarakter daşımır.

**XQ**

# Özəl sektorun özəl hədəflərimizə töhfəsi artır

## Sahibkarlığın ÜDM-də payı 83,5 faizə çatıb

**Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi layihələr nəticəsində respublikamızda iqtisadiyyatın dayanıqlığı gücləndirilir, sahibkarlığın təşviqi və biznes mühitinin təkmilləşdirilməsi ilə qeyri-neft-qaz sektorunda investisiya qoyuluşunun həcmi artırılır, bununla ölkənin neft amilindən asılılığı azaldılır.**



Büdcəyə vergi və gömrük daxilolmalarının ifadə edən göstəricilərin davamlı olaraq yüksəlməsi də, əsasən, ölkədə özəl bölmənin dinamik inkişafı, sahibkarlar üçün biznes mühitinin təkmilləşdirilməsi, legal fəaliyyətin gücləndirilməsi, vergiödəyiciləri ilə təmassız münasibətlər və rəqəmsal xidmətlərin əhatəsinin genişləndirilməsi ilə bağlıdır. 2023-cü ilin yanvar–oktyabr aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmaları həcminin 2022-ci ilin eyni dövrü ilə müqayisədə 4,2 faiz artaraq 14 milyard 593 milyon manat təşkil etməsi, bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının ötən ilin müvafiq dövrü ilə müqayisədə 19,2 faiz artaraq 8 milyard 387 milyon manata çatması da məhz yuxarıda vurğulanan tədbirlərin məntiqi nəticəsidir.

Burada bir məqamı da xüsusi vurğulamaq istərdik. Vergi daxilolmaları həcminin yüksəlməsində “kölgə iqtisadiyyatı”nın getdikcə “ağarması” nəticəsində fərdi sahibkarların sayının davamlı artması mühüm rol oynayıb. Respublikada biznes mühitinin təkmilləşdirilməsi, biznesin leqal fəaliyyətinin genişlənməsi də iş adamlarının fəaliyyətini canlandırıb. Bu, eyni zamanda özəl sektorun əhatə dairəsini genişləndirib. Belə bir fikri konkret rəqəmlə ifadə etsək, deyə bilərik ki, bu il oktyabrın 1-nə respublikamızda aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 5,7 faiz çox – 752 min olub. Dövlət Vergi Xidmətinin məlumatına görə, həmin göstəricinin 44,3 mini əlavə dəyər vergisi (ƏDV) ödəyicisi kimi qeydə alınıb. Bu isə ilin əvvəlinə nisbətən 11 faiz çoxdur. Hesabat dövründə fəal obyektlərin (təsərrüfat subyektlərinin) sayı isə 6,8 faiz artaraq 202,1 minə çatıb.

Onu da deyək ki, məşğulluğun, qeyri-neft ixracının artırılması və digər strateji məsələlərdə son illər ərzində inkişafı diqqətdə saxlanılan özəl sektor önəmli rol oynayır. Azərbaycanda azad rəqabət mühitinin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, vergi güzəştləri və subsidiyalar, real sektora maliyyə dəstəyi və digər tədbirlər sahibkarlığın inkişafını sürətləndirir. Bunun nəticəsi olaraq ölkədə biznes fəaliyyəti davamlı şəkildə geniş miqyas alır. Hazırda respublikada sahibkarlıq fəaliyyəti göstərən iş adamlarının sayının 683 mini keçməsi, özəl bölmənin ÜDM-də payının isə 83,5 faiz təşkil etməsi qeyd olunan fikrin bariz ifadəsidir.

Burada bir məqamı da vurğulamaq yerinə düşərdi. Ötən illər ərzində ölkədə özəl sektorun inkişafında Sahibkarlığın İnkişafı Fondu mühüm rol oynayıb. Bu qurum 2003–2022-ci illərdə sahibkarlıq subyektlərinin 42 min 703 investisiya layihəsinin maliyyələşdirilməsinə 2,83 milyard manat güzəştli kredit ayırıb. Bunun hesabına 178 mindən çox yeni iş yeri yaranıb. Xatırladaq ki, Bakı və Abşeron iqtisadi rayonu istisna olmaqla, ayrılmış güzəştli kreditlərin 62,2 faizi regionların, 50,7 faizi kənd təsərrüfatının, 49,3 faizi isə sənayenin müxtəlif sahələrinin payına düşüb.

Yeri gəlmişkən, özəl sektorun inkişafı, eyni zamanda sahibkarlıq fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması üçün bir sıra hallar istisna olmaqla, yoxlamalar 2015-ci ildən bu ilin sonunadək dayandırılıb.

Hazırda ölkə üzrə sahibkarlıq subyektlərinin 99,6 faizi mikro, kiçik və orta sahibkarlıq (KOB) subyektləridir. Bu subyektlərin iqtisadiyyatda rolunun artırılması, maliyyə resurslarına və satış bazarlarına çıxışının genişləndirilməsi, dövlət xidmətlərinə əlçatanlığını təmin edilməsi istiqamətində müxtəlif dəstək mexanizmləri həyata keçirilir. Bir sıra şəhər və rayonlarda sahibkarlara yerində xidmət göstərən “KOB dostu” ofislərinin, biznes biliklərinin artırılmasında mühüm rol oynayan KOB inkişaf mərkəzlərinin yaradılması və sərgilərə çıxışa dəstək mexanizmlərinin tətbiqi bunun bariz ifadəsidir. Eyni zamanda sənaye zonalarında sahibkarlıq fəaliyyəti üçün zəruri infrastrukturun yaradılması, səmərəli iş təşkili üçün müxtəlif xidmətlərin göstərilməsi, 4-cü Sənaye İnqilabının elementlərinin tətbiqi, qlobal dəyər zəncirinə inteqrasiya, klasterləşmə, sənayenin rəqəmsal transformasiyası kimi məsələlər də özəl sektorun inkişafını sürətləndirir.

İqtisadiyyat naziri Mikayıl Cabbarovun mediaya bildirdiyinə görə, özəl sektorun inkişafında lisenziyalar və icazələrin alınması sahibkarlıq fəaliyyətində əsas şərtlərdəndir. Bu prosesi sadələşdirmək üçün adıçəkilən nazirlik tərəfindən, dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla, sahibkarlara lisenziyaların “ASAN xidmət” mərkəzləri və “KOB evləri” vasitəsilə təqdim olunması həyata keçirilir. Həmçinin lisenziya və icazələr elektron qaydada “Lisenziyalar və icazələr” portalı vasitəsilə verilir.

Biznes mühitinin yaxşılaşdırılması üçün davamlı islahatların nəticəsi beynəlxalq hesabatlarda da qeyd olunur. Dünya İqtisadi Forumunun “Qlobal Rəqabətlilik İndeksi” hesabatında ölkəmiz 11 pillə irəliləyərək 141 ölkə arasında 58-ci mövqedə qərarlaşır. Hesabata əsasən, Azərbaycan 12 indikatordan 8-i üzrə irəliləyərək MDB ölkələri arasında lider mövqelər sırasında yer alır, həmçinin Cənubi Qafqaz regionunda ilk sırada dayanır. Bu hesabatda “biznesin dinamikliyi” üzrə Azərbaycan 8 pillə irəliləyərək dünya sıralamasında 23-cü yerdə qərarlaşıb ki, bununla ölkəmizin biznes mühitinin inkişafı istiqamətində apardığı intensiv islahatlar bir daha təsdiqini tapır.

**V.BAYRAMOV**
**XQ**

# Yurd sevgisi, yüksək hədəflər qədim Naxçıvana yeni həyat gətirir

**Sübh tezdən Heydər Əliyev Beynəlxalq Aeroportundan səmaya qalxan təyyarə Naxçıvan şəhərindəki hava limanına enəndə sərnişinləri şıdırğı payız yağışı qarşıladı. Çox keçməmiş seyrəlməkdə olan buludların arasından boylanan günəş səliqə-sahmanı, təmizliyi ilə göz oxşayan qədim şəhərə əlavə bir gözəllik gətirdi. Sübh günəşinin yaratdığı xoş mənzərə burada həyata keçirilmiş abadlıq-quruculuq işləri ilə həmahənglik təşkil edir. İlk andaca qurub-yaratmağa sonsuz həvəsi olan insanların yaşadıqları bir məkana gəlməyinə əmin olursan.**



Quruculuq işləri, inkişaf və tərəqqi təkcə Naxçıvan şəhərini deyil, muxtar respublikanın bütün guşələrini əhatə edir. Bu qədim diyarın sakinləri ilə həmsöhbət olduqca hiss edirsən ki, ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində blokada şəraitinə mətanətlə sinə gərmiş, düşmənin bəd niyyətlərini gözündə qoymuş Naxçıvan Muxtar Respublikası indi yeni yüksəliş və üstün tərəqqi dövrünü yaşayır.

Son zamanlar ölkəmizdə reallaşdırılan yeni və çevik iqtisadi yanaşmalar, iqtisadiyyatın şaxələndirilməsi, əlverişli biznes mühitinin yaradılması, investisiya cəlbediciliyinin daha da artırılması, vergi və gömrük sistemində köklü dəyişikliklər, şəffaflığın artırılması kimi mühüm amillər Naxçıvanın da dayanıqlı sosial-iqtisadi inkişafı üçün əlverişli imkanlar yaradır. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin məlumatına görə, biznes subyektlərinin maliyyə resurslarına çıxışının asanlaşdırılması məqsədilə Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən bölgədə fəaliyyət göstərən bütün banklara 15 milyon manat vəsait ayrılıb. Cari ilin 9 ayı ərzində həmin vəsait hesabına Naxçıvanda fəaliyyət göstərən sahibkarlara 1 milyon 375 min manat güzəştli şərtlərlə kredit verilib ki, bunun da 450 min manatı sənayenin, 250 min manatı kənd təsərrüfatının, 675 min manatı isə xidmət sektorunun payına düşüb.







Sahibkarların biznes fəaliyyətini stimullaşdıran, onların vergi və gömrük güzəştləri əldə etməsi üçün əlverişli şərait yaradan və 2016-cı ildən tətbiq edilən investisiya təşviqi mexanizmi çərçivəsində ötən 7 ildən artıq müddətdə 18 sahibkarlıq subyektinin 24 layihəsi təşviq olunub, indiyədək dəyəri 77 milyon manatdan artıq olan texnika, texnoloji avadanlıq və qurğular güzəştli şərtlərlə muxtar respublikaya idxal edilmiş və müasir istehsal sahələri qurulub.

Məlum olduğu kimi, ümumi iqtisadi inkişafa təsir göstərən amillərdən biri də yüksək keyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılması, ixrac potensialının gücləndirilməsidir. Son illər Naxçıvan Muxtar Respublikasında istehsal olunan vafli, peçenyelər, mineral sular, üzüm, siqaret, travertin, mərmər, mebel, gipsolet karton lövhə, sement, məsaməli beton bloklar Türkiyə, Rusiya, Gürcüstan, İran, İraq, Ukrayna, BƏƏ, Əfqanıstan, Yəmən və digər ölkələrə ixrac olunması məqsədilə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC tərəfindən 1500-dən çox mənşə sertifikatı verilib.

Son 20 il ərzində muxtar respublikada dövlət əmlakının idarə edilməsi və özəlləşdirmə proqramlarının reallaşdırılması prosesi müasir təcrübələr əsasında optimallaşdırılıb. Nazirliyin məlumatında bildirilir ki, 2003-cü ildən sonrakı dövrdə özəlləşdirmə prosesi çərçivəsində dövlət mülkiyyətində olan 1432, o cümlədən 323 kiçik müəssisə, obyekt, 1085 nəqliyyat vasitəsi və 1 milyon kvadratmetrdən artıq 24 torpaq sahəsi özəl mülkiyyətə keçib. Bu dövrdə dövlət müəssisələrinin bazasında yaradılmış 53 səhmdar cəmiyyətindən 43-ü özəlləşdirilib. Ötən müddətdə dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində 21 milyon 668 min manatdan artıq vəsait dövlət büdcəsinə, müəssisə və təşkilatların hesabına köçürülüb. Dövlət əmlakının özəlləşdirilməsi isə ÜDM-də özəl sektorun payının artmasına səbəb olub.

Göründüyü kimi, muxtar respublikada sağlam biznes mühitinin yaradılması istiqamətində həyata keçirilən tədbirlər sosial-iqtisadi inkişafı yeni məcraya yönəldib. Hazırda bölgənin iqtisadi potensialından daha səmərəli istifadə edilməsi məqsədilə yeni sənaye müəssisələrinin sayının artırılması və onların infrastruktur imkanlarının genişləndirilməsinə xüsusi diqqət göstərilir. Bunun nəticəsidir ki, sənayenin əsas hissəsini təşkil edən emal sənayesində çörəkbişirmə, şəkər, mineral su, spirtli içkilər, siqaret, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, sement, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metaləritmə və digər istehsal sahələri yaradılıb. Həmin müəssisələr xarici ölkələrdən gətirilmiş yüksək keyfiyyətli avadanlıqlarla təmin olunub. Sevindirici haldır ki, yeni müəssisələrdə daxili bazarla yanaşı, ixracyönümlü məhsullar da istehsal olunur. İndi muxtar respublikanın böyük sənaye müəssisələrinin istehsalı olan məhsullar özünə bazar tapmaqda ciddi çətinliklərlə üzləşmir.

Hazırda Naxçıvan Muxtar Respublikasında mövcud iri müəssisələrin istehsal etdikləri məhsulların həm daxili bazarda satışının dəstəklənməsi, həm də xarici bazarlara çıxışının artırılması istiqamətində də lazımi dəstək tədbirləri həyata keçirilir. Bununla yanaşı, muxtar respublikanın zəngin təbii ehtiyatları və xammal bazası əsasında sənaye sahələrinin yaradılması imkanları genişləndirilir. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli fərmanı ilə 4,8 hektar ərazidə yaradılmış Şərur Sənaye Məhəlləsi, hələlik, muxtar respublikada yeganə olsa da, artıq bölgənin iqtisadi həyatında fəal rol oynamağa başlayıb. Mülkiyyətinə görə dövlət tərəfindən qurulan və idarə olunan Şərur Sənaye Məhəlləsi bölgədə hərtərəfli xidmət, stimullaşdırma tədbirlərinin həyata keçirilməsi ilə rəqabətqabiliyyətli, daxili və xarici bazarın tələbatına uyğun məhsul istehsalına, istehsalın perspektiv fəaliyyətinə, istehsal vasitələrindən səmərəli istifadəyə və beləliklə, sənayenin kompleks inkişafını tənzimləməyə imkan yaradır.

Ötən müddətdə Şərur Sənaye Məhəlləsinin ərazisində 24 istehsal sexi, 1 konfrans zalı, 6 inzibati və 5 texniki otaqdan ibarət bina və 3 istehsal korpusu inşa olunub. Artıq burada ayaqqabı, tikiş malları, unlu qənnadı məmulatları, qapılar, mebel, kağız kisə və karton tara istehsalı sahələri üzrə 7 sahibkarlıq subyekti fəaliyyət göstərir. Bitki yağı, qəlyan tütünü istehsalı sahələrinin yaradılması istiqamətində işlər isə davam etdirilir.

Şərur Sənaye Məhəlləsi ilə tanışlığımız zamanı sahibkarlar dövlətimizin yeni iqtisadi siyasətinin nəticəsi olan sənaye məhəllələrinin yaradılmasından razılıqlarını dilə gətirdilər. Bildirdilər ki, dövlətin hərtərəfli dəstəyi nəticəsində yaradılmış bu tip müəssisələrdə rəqabətədavamlı, yüksək keyfiyyətli məhsul istehsalı üçün lazımi şərait yaradılıb. Bu da həmin müəssisələrə inamı xeyli artırıb. İnam olan yerdə isə çoxsaylı sifarişlərlə yanaşı, iş də var, yaxşı dolanışıq da. Yeri gəlmişkən, bu yaxınlarda Şərur şəhərində istifadəyə verilmiş "Yaşıl bazar" ticarət mərkəzini sənaye məhəlləsində fəaliyyət göstərən sahibkarlar üçün, necə deyərlər, göydəndüşmə fürsət hesab etmək olar. Son günlər ticarət mərkəzindən sənaye məhəlləsinin ayrı-ayrı istehsal müəssisələrinə çoxsaylı sifarişlər daxil olub. Bu da sahibkarların məmnunluğuna səbəb olmaqla yanaşı, onları istehsal prosesini daha da genişləndirməyə ruhlandırır.

Sənaye məhəlləsindəki "Tortilla" şirniyyat müəssisəsində isə 30-dan artıq çeşiddə məhsul istehsal olunur. Burada çalışan şirniyyat ustalarının əməyi ilə ərsəyə gələn məhsullar Şərurla yanaşı, Naxçıvan şəhərində, həmçinin muxtar respublikanın digər rayonlarında da məşhurdur. Bundan əlavə, müəssisədə hazırlanmış toy, nişan və ad günləri tortları da dadı və münasib qiyməti ilə sifarişçini tam razı salır.

Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi məsələləri dövlət tərəfindən həyata keçirilən prioritetlər sırasındadır. Ötən əsrin sonlarında muxtar respublikanın blokadaya salınması energetika sektorunun inkişafını ləngitsə də, indi bu sahə yeni yüksəliş dövrünü yaşayır. Əvvəllər elektirk enerjisini kənardan alan Naxçıvan Muxtar Respublikası artıq enerji ixracatçısı kimi mövqeyini getdikcə artırır.





Əlverişli coğrafi mövqedə yerləşən bu bölgə ekoloji cəhətdən təmiz, bərpaolunan enerji mənbələri ilə də zəngindir. Həmin potensialın hərkətə gətirilməsi üçün imkanlar da olduqca genişdir. Mütəxəssislərin hesablamalarına görə, burada günəşli saatların orta illik miqdarının 2600-2800 saat, hər kvadratmetrə düşən günəş enerjisinin intensivliyi isə 0,8-1,2 kilovat-saat təşkil edir. Bütün bunların nəticəsidir ki, muxtar respublika artıq regionun "yaşıl enerji" diyarına çevrilməkdədir. Təkcə onu demək kifayətdir ki, son bir neçə ildə Naxçıvanda bərpaolunan enerji mənbələri hesabına elektrik enerjisi istehsalı sahəsində əhəmiyyətli artım qeydə alınıb.

Muxtar respublikanın ərazisində ilk Günəş Elektrik Stansiyası 2015-ci ildə Babək rayonunun Xalxal kəndi yaxınlığında tikilib istismara verilib. 20 meqavat gücündə olan "Naxçıvan" Günəş Elektrik Stansiyasının gücü 2017-ci ildə daha 2 meqavat artırılaraq 22 meqavata çatdırılıb. Stansiyada il ərzində 33 milyon kilovat-saat elektrik enerjisi istehsalı nəzərdə tutulur. 2015-2022-ci illər ərzində isə burada 233 milyon 719 min kilovat-saat elektrik enerjisi istehsal edilib.

2019-cu ildə Kəngərli rayonunun Qabıllı kəndi yaxınlığında 2 meqavat, bir il sonra isə 3 meqavat gücündə "Kəngərli" Günəş Elektrik Stansiyası işə salınıb. Bölgənin "yaşıl enerji" potensialından səmərəli istifadənin artırılması məqsədilə 2021-2023-cü illərdə Şərur rayonunun Zeyvə kəndinin yaxınlığında 11 meqavat gücündə yeni "Şərur" Günəş Elektrik Stansiyası, 2021-ci ildə 1,1 meqavat gücündə "Culfa" Külək-Günəş Hibrid Elektrik Stansiyası", 2022-ci ildə isə 0,3 meqavat gücündə "Culfa" Külək Elektrik Stansiyası istismara verilib. İndi bu qurğular Naxçıvanın etibarlı və dayanıqlı enerji təminatında mühüm rol oynayır.

Bununla belə, ölkə Prezidenti İlham Əliyev Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə yanaşı, Naxçıvanın da "yaşıl enerji" zonasına çevrilməsini qarşıya mühüm vəzifə kimi qoyub. 2023-cü ilin iyun ayında Bakı Enerji Həftəsi çərçivəsində Naxçıvanda xüsusi sessiyanın keçirilməsi də bölgənin bərpaolunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədi daşıyırdı. Həmin tədbirdə energetika naziri Pərviz Şahbazovun Naxçıvanda 1500 meqavat gücündə "yaşıl enerji" layihələrinin reallaşdırılmasının hədəfləndiyini diqqətə çatdırması da yaxın illərdə bu sahədə ciddi işlərin görüləcəyindən xəbər verir.

Xatırladaq ki, sessiyanın gedişində Azərbaycanın Energetika Nazirliyi "Total Energies" şirkəti ilə "250 meqavat gücündə quruda külək, Naxçıvan Muxtar Respublikasında 250 meqavat gücündə günəş elektrik stansiyaları, habelə enerji saxlanc sistemləri layihələrinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu", həmçinin "Nobel Energy Management MMC" ilə "Naxçıvan Muxtar Respublikasında 400 meqavat gücündə günəş elektrik stansiyasının tikintisi və istehsal ediləcək elektrik enerjisinin Türkiyə Respublikasına ixracı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Sessiyada, həmçinin Naxçıvan və Şərqi Zəngəzurun günəş enerjisi potensialından ətraflı bəhs edilərək bu regionların Azərbaycanda günəş enerjisi layihələrinin inkişafına böyük töhfə verəcəyi vurğulanıb.

Artıq ənənəyə çevrilmiş Azərbaycan–Türkiyə Enerji Forumu iki qardaş ölkə arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi üçün geniş imkanlar yaradır. Qeyd edək ki, əsasən, "yaşıl enerji konsepsiyası" çərçivəsində formalaşdırılan bu platforma enerji sahəsində əməkdaşlığın müttəfiqlik səviyyəsinə yüksəldilməsini hədəfləyir. Sentyabrın 28-də keçirilmiş budəfəki forumda regionun bərpaolunan enerji potensialı bir daha nəzərdən keçirilib, qarşılıqlı əməkdaşlıq imkanlarının genişləndirilməsi müzakirə edilib.

Bütün bunlar, həm də Naxçıvanın "yaşıl enerji" dəhlizinə çevrilməsi üçün geniş imkanlar yaradır. Məlum olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurun bərpaolunan enerji mənbələrindən istehsal edilən "yaşıl enerji"nin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana, oradan isə Türkiyə və Avropaya ötürülməsi qarşıdakı iqtisadi hədəflərdən biri kimi müəyyənləşdirilib. Digər tərəfdən, muxtar respublikanın bərpaolunan enerji mənbələri ilə zəngin olması bilavasitə Naxçıvanın özünün potensial enerji dəhlizi kimi rolunu artırır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Naxçıvanda həm günəş, həm külək, eyni zamanda, su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə buradan Türkiyəyə ən azı 1000 meqavat həcmində "yaşıl enerji" ixracına imkan yaranacaq.

Füsunkar və əsrarəngiz təbii gözəllikləri ilə zövq oxşayan Naxçıvan Muxtar Respublikası turistlərin ən çox sevdiyi məkanlardandır. Əlverişli coğrafi mövqeyi, müxtəlif iqlim qurşaqlarının mövcudluğu, zəngin mədəni irsi, təbii müalicə mərkəzləri, mineral suları, özünəməxsus mətbəxi, yüksək qonaqpərvərlik ənənələri və müasir inkişaf səviyyəsi muxtar respublikada turizmin inkişafını şərtləndirən başlıca amillərdir. 200-dən çox mineral bulağı, nadir fauna və florası olan muxtar respublikanın zəngin təbiəti və onun qorunması sahəsində həyata keçirilən tədbirlər turizmin bir çox növünün inkişafına şərait yaradıb. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Arazboyu, Ordubad və Arpaçay dövlət təbiət yasaqlıqları hesabına xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 28 faizini təşkil edir. Bundan əlavə, Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili, Xanəgah, Dırnıs kimi əksər yaşayış məntəqələrində kənd turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Həmin kəndlərdə asudə vaxtını səmərəli keçirmək istəyən turistlər həm də onlarla çeşiddə təmiz ekoloji məhsullarla tanış olmaq imkanı əldə edirlər. Muxtar respublikada Ağbulaq Xizək Mərkəzinin fəaliyyət göstərməsi ənənəvi turizm növlərinin inkişaf etdirilməsi ilə yanaşı, yeni turizm istiqamətlərinin formalaşması üçün də geniş imkanlar yaradır.

Bu gün muxtar respublikada fəaliyyət göstərən 5 ulduz kateqoriyasına malik "Təbriz" və "Duzdağ" otelləri, "Saat Meydanı" Turistik İstirahət Mərkəzi, Ağbulaq İstirahət Mərkəzi və digər turizm obyektlərində yüksək keyfiyyətli xidmətlər təklif olunur. Göründüyü kimi, son illər qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizmin inkişafına təkan verib ki, bu da muxtar respublikaya turist axınını xeyli sürətləndirib.

Hazırda qədim Naxçıvan diyarının gələcək inkişafının yeni konturları cızılır, qarşıda duran vəzifələr müəyyənləşdirilir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə təsdiq olunmmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ı növbəti 5 il üçün əsl fəaliyyət proqramı kimi qəbul edilir. Belə ki, yeni proqramda təklif olunan istiqamətlərin qlobal təşəbbüslərə açıq olması sürətlə dəyişən dünyanın innovativ tələblərinə inteqrasiyasını da hamı üçün əlçatan edir.

Müasir çağırışlara uyğunluğu nəzərə alınaraq hazırlanmış bu mühüm dövlət sənədi muxtar respublikaya daha yaxşı günlər vəd edir. Bir sözlə, Azərbaycan dövlətinin hərtərəfli diqqət və qayğısı insanlarda Naxçıvanın sabahına inamını bir qədər də möhkəmləndirir, onları qurub-yaratmağa ruhlandırır. İndi muxtar respublikada böyükdən kiçiyə hamı dövlət başçısının qarşıya qoyduğu vəzifələrin icrasına, doğma diyarının inkişafına öz töhfəsini verməyə çalışır. Bu da Naxçıvan şəhərinin, eləcə də muxtar respublikanın digər yaşayış məskənlərinin daha parlaq, bundan da gözəl gələcəyinə ümidləri artırır.

**Mirbağır YAQUBZADƏ,**
**Səbuhi HƏSƏNOV**
**XQ**
**Bakı-Naxçıvan-Bakı**

*(Yazı "Xalq qəzeti", "İki sahil" və "Şərq qapısı" qəzetlərinin birgə layihəsi əsasında hazırlanıb.)*

# Ermənistanın Qarabağda törətdiyi hərbi cinayətlər



**Noyabrın 20-də Xarici İşlər Nazirliyində Silahlı Qüvvələr tərəfindən həyata keçirilən antiterror tədbirlərindən sonra Qarabağda aşkar edilmiş Ermənistanın qeyri-qanuni hərbi fəaliyyəti və planlaşdırdığı növbəti hərbi cinayətlərə dair yeni faktlarla bağlı Xarici İşlər Nazirliyinin və Müdafiə Nazirliyinin birgə mətbuat brifinqi keçirilib. Hər iki qurumun mətbuat xidməti idarəsinin rəhbərləri - Ayxan Hacızadə və Anar Eyvazov çıxış ediblər.**



Brifinqdə həm Ermənistanın ərazilərimizi işğal altında saxladığı 30 ilə yaxın müddət ərzində, həm də postmünaqişə dövründə beynəlxalq ictimaiyyətin diqqətinin Azərbaycan ərazilərində sülh və təhlükəsizliyə hədə törədən Ermənistan silahlı qüvvələrinin mövcudluğuna, həmçinin mina təhdidinə cəlb edildiyi xatırlanıb. 44 günlük Vətən müharibəsindən sonra ərazilərimizdə piyada əleyhinə 10 mindən çox, tank əleyhinə 3000-dən çox mina və 12 minədək partlamamış döyüş sursatının aşkarlandığı və neytrallaşdırıldığı bildirilib.

Bu il sentyabrın 19-20-də 24 saatdan az müddətdə antiterror tədbirlərindən sonra bölgədə mina təmizləmə fəaliyyəti, habelə kommunikasiya xətlərinin və yeni təchizat yollarının bərpası məqsədilə Müdafiə Nazirliyinin digər aidiyyəti qurumlarla apardığı fəaliyyətin ərazilərimizdəki dəhşətli hərbiləşmənin miqyasını bir daha göstərdiyi vurğulanıb. Aparılan işlər nəticəsində ərazilərimizdə böyük bir hissəsi mülki infrastrukturlarda yerləşdirilən hərbi maşınlar, müxtəlif çaplı silahlar və sursatların aşkarlandığı bildirilib. Xüsusilə "Kornet" və "Faqot" tank əleyhinə idarə olunan raket sistemlərinin, 2021-ci il istehsalı olan TOS-1A tipli reaktiv yaylım atəşi sistemlərinin raketlərinin aşkarlandığı qeyd olunub. Bununla yanaşı, son 30 il ərzində Ermənistan Xankəndidə hərbi texnika və dronların modifikasiyası ilə məşğul olan hərbi istehsalat mərkəzində apardığı fəaliyyət barədə məlumat verilib.

Brifinq zamanı, həmçinin bölgədəki hərbiləşmənin miqyasını göstərən görüntülər təqdim olunub. Ermənistanın ərazilərimizdə mülki əhaliyə və hərbçilərə kustar üsulla hazırlanmış dronlardan keçirilən təlimlərinin və Azərbaycanın mülki obyektlərinin hədəf alındığı barədə kadrların əks olunduğu antiterror tədbirlərindən sonra aşkar edilmiş videolar nümayiş etdirilib.

Brifinqə qatılan şəxslər antiterror tədbirlərindən sonra ərazidən müsadirə edilmiş modifikasiya olunmuş silahlar, dronlar, 2021-ci il istehsalı olan sursatlar və minaların nümunələri ilə tanış olublar.

Xatırladaq ki, tədbirdə ölkəmizdə akkreditə olunmuş diplomatik korpus, hərbi attaşelər, habelə yerli və beynəlxalq media nümayəndələri iştirak ediblər.

*XQ*

# Səudiyyə Ərəbistandan olan qonaqlar ölkəmizdə səfərdədir

**Baş prokuror Kamran Əliyevin dəvəti ilə Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya qarşı Mübarizə Qurumunun Prezidenti Mazin bin İbrahim Əl-Kahmusun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdədir.**



Baş Prokurorluğunda keçirilən ikitərəfli görüş zamanı Kamran Əliyev Prezident İlham Əliyevin prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi barədə qonaqlara ətraflı məlumat verib.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən Mazin bin İbrahim Əl-Kahmus rəhbərlik etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib, xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib.

Sonra Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

*XQ*

# YAP VKP ilə Əməkdaşlıq Sazişi imzalayıb



**Vyetnamda səfərdə olan Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti ilə Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi, Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri Le Hoay Çunq arasında görüş keçirilib.**

Le Hoay Çunq Vyetnamın Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib.

YAP Sədrinin müavini ötən il Azərbaycan ilə Vyetnam arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu xatırladıb, ölkələrimizin bu müddət ərzində əhəmiyyətli nailiyyətlər qazandıqlarını bildirib. Ötən il Vyetnam Kommunist Partiyasının nümayəndə heyətinin ölkəmizə səfər etdiyini və YAP ilə VKP arasında səmərəli fikir mübadiləsinin aparıldığını söyləyib.

Xatırladaq ki, partiyalar arasında Əməkdaşlıq Sazişi imzalanıb.

*XQ*

# Gürcüstanlı soydaşlarımız ADA Universitetində oxuyacaqlar

**ADA Universitetinin nümayəndə heyəti Gürcüstanda səfərdədir.**

Universitetinin prorektoru Vəfa Kazdalın sözlərinə görə, əsas məqsəd Gürcüstandakı soydaşlarımızın Azərbaycanda yüksək səviyyədə bakalavriat və magistratura səviyyələrində təhsil almalarına və onların öz ölkələrinə qayıdaraq bilik bacarıqlarını soydaşlarımıza öyrətməsinə kömək etməkdir.

Xatırladırıq ki, hazırda Gürcüstandan 24 soydaşımız ADA Universitetində təhsil alır. Məqsəd onların sayını artırmaqdır.

*XQ*



# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 418 Bakı şəhəri, 18 noyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında***

"Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanının 5.2-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084, № 12, maddə 1566; 2023, № 8 (II kitab), maddə 1258; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli 354 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 17-ci hissəsinə aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"17-3/ Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 419 Bakı şəhəri, 18 noyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189; 2022, № 7, maddə 811; 2023, № 4, maddə 583, № 7, maddə 1067) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının aeroportlarında (hava limanlarında) xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın 3.8-ci bəndində "Azərbaycan Respublikası Prezidentinin Protokol xidməti" sözləri "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 420 Bakı şəhəri, 20 noyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 121 nömrəli Qərarı ilə təsdiq edilmiş "Atçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Polis haqqında", "Baytarlıq haqqında" və "Atçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 868-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Polis haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 11 noyabr tarixli 205 nömrəli, "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 22 noyabr tarixli 316 nömrəli, "Atçılıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 22 may tarixli 580 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 iyun tarixli 2174 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 121 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 444; 2014, № 2, maddə 201, № 7, maddə 942; 2015, № 2, maddə 230; 2017, № 5, maddə 964, № 10, maddə 1911) ilə təsdiq edilmiş "Atçılıq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.1-ci bəndə "Kənd Təsərrüfatı Nazirliyi" sözlərindən sonra "və Qida Təhlükəsizliyi Agentliyi (baytarlıq (baytarlıq-sanitariya) qaydalarına riayət edilməsinə münasibətdə)" sözləri əlavə edilsin.

**2.** 2.2.1-ci yarımbənddə "müvafiq qanunvericiliyin, o cümlədən atçılığa dair normativ sənədlərin" sözləri "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən qaydaların, seleksiya nümunələri və damazlıq heyvandarlığın norma və qaydalarının" sözləri ilə əvəz edilsin.

**3.** 2.3-cü bəndə "baytarlıq-sanitariya" sözləri "baytarlıq (baytarlıq-sanitariya)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Ağdərə yenidən rayona çevriləcək



**Azərbaycanda 1992-ci ildə ləğv edilən Ağdərə rayonu yenidən bərpa edilir. Bununla bağlı Milli Məclisə qanun layihəsi daxil olub.**

Layihəyə əsasən, rayonun ərazisi Kəlbəcər, Tərtər və Ağdam rayonlarının ərazisindən təşkil edilir.

Xatırladaq ki, 1993-cü ildə Ağdərə rayonu ermənilər tərəfindən işğal olunmuşdu. Bu il sentyabrın 19-20-də Silahlı Qüvvələrimizin antiterror tədbirləri nəticəsində rayon Azərbaycanın nəzarətinə qayıdıb. Prezident İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaldıb.

*XQ*

Bakının qış qayğıları

# Payız yarılanıb, soyuqlar isə hələ qabaqdadır



## *Qarşıdakı ayların sərt keçəcəyi gözlənilir*

**Mövzu ilə bağlı əvvəlcə bir məqama toxunmağı zəruri bilirik. Respublikamızda müvafiq qurumların payız-qış mövsümünə necə hazırlaşmasından asılı olmayaraq bu aylarda güclü yağış, yaxud qar yağarsa, şübhəsiz ki, əhali ciddi problemlərlə üzləşir, yollar keçilməz vəziyyətə düşdüyündən saatlarla müşahidə olunan tıxaclar yaranır. Təbii ki, belə şəraitdə lazımi hazırlıq olmasa, necə deyərlər, həyat "sönər", ictimai-sosial müəssisələrin fəaliyyəti dayanar. Onu da deyək ki, problemlər təkcə bununla qurtarmır. Ucqar yaşayış məntəqələrində evlərə istiliyin verilməsi, qaz, elektrik enerjisi təchizatı da kəsilər.**

Bu məsələni qeyd etməklə vurğuladığımız kimi, paytaxt Bakıda, eləcə də rayonlarda payız–qış mövsümünə hazırlığın, adətən, hansı səviyyədə gerçəkləşməsinə baxmayaraq təbiətin soyuq aylarında mövcud sahəyə cavabdeh qurumların qəfil sınağa çəkilməsi gözlənilməz olur. Düzdür, Azərbaycanın yerləşdiyi coğrafiyada əksər vaxt belə bir "imtahan" nəzərə çarpmır, payız-qış ayları mülayim keçir. Amma bütün hallarda ölkə payız-qış mövsümünə ciddi hazırlaşmalıdır, Bakı Şəhər İcra Hakimiyyətində, eləcə də yerli icra orqanlarında bununla bağlı keçirilən müşavirələrdə verilən tapşırıqlar daim diqqətdə saxlanılmalı, şəhər və rayonların kommunal, təsərrüfat xidmətləri tərəfindən mülayim hava şəraitinin qəfil kəskinləşib fəsadlar törədə biləcəyi həqiqəti unudulmamalıdır.

Yeri gəlmişkən, bir müddət əvvəl paytaxtın ayrı-ayrı icra strukturlarının payız–qış mövsümünə hazırlığının vəziyyəti barədə "XQ"də verdiyimiz geniş materialda kommunal, təsərrüfat xidmətlərində həyata keçirilən tədbirlər barədə ətraflı bəhs edilirdi. Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) mətbuat xidmətindən aldığımız məlumatda da görülən işlər haqqında geniş danışılırdı.

Açıqlamada BŞİH-də paytaxtda qışa hazırlığın vəziyyəti ilə bağlı keçirilən müşavirədə verilən tapşırıqlara uyğun olaraq rayonların kommunal, təsərrüfat xidmətləri, idarə və təşkilatlarının, təhsil müəssisələrinin və özəl sektor nümayəndələrinin iştirakı ilə müşavirələr keçirildiyi bildirilib.

Qeyd edilirdi ki, həmin müşavirələrdə rayon xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığın vəziyyətinin araşdırılması, bu zaman görüləcək zəruri tədbirlər müzakirə olunub.

BŞİH-nin şöbə müdirlərinin, şəhərin kommunal və digər xidmətləri rəhbərlərinin iştirak etdikləri müşavirələrdə qeyd edilib ki, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hər bir rayona cavabdeh şəxs təyin edilib, həmin şəxslər yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birgə rayonlarda qış mövsümünə hazırlığı, verilən tapşırıqların və görülən işlərin icra vəziyyətini yoxlayıblar.

Bildirilib ki, son günlərdə ölkənin dağ rayonlarına əvvəlki illərlə müqayisədə daha çox qar yağması qışın sərt və yağmurlu keçəcəyindən xəbər verir. Bununla əlaqədar rayon icra hakimiyyətlərində qışa hazırlıqla bağlı yaradılan qərargahlar, kommunal və təsərrüfat xidmətləri və aidiyyəti təşkilatların rəhbərləri həmin günlərdə üzərlərinə düşən vəzifələrin tam şəkildə yerinə yetirilməsi üçün hazır olmalıdırlar. Hər bir quruma qarın təmizlənməsi üçün lazımi qədər alətlərin, inventarın (bel, kürək, ling və s.) toplanması, duz ehtiyatı yaradılması, xüsusi texnikaların vəziyyətinin yoxlanılması ilə bağlı tapşırıqlar verilib. Rayonlardakı küçə və məhəllələrin qardan təmizlənməsinə cavabdeh şəxslərin siyahıları hazırlanıb, bu işlərə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Həmçinin rayonlardakı idarə, təşkilat və özəl qurumlar, bələdiyyələr, o cümlədən ictimai-iaşə müəssisələri rəhbərlərinə, ictimaiyyət nümayəndələrinə qarlı günlərdə Avropa ölkələrində də diqqət mərkəzində saxlanılan qaydalara uyğun özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etmələri tövsiyə edilib.

Bura bir məqamı da xatırlatmağı zəruri bilirik. Respublikamızda istilik mövsümü noyabrın 15-dən başlasa da, mərkəzi istilik sistemindən yararlana bilməyənlər də az deyil. Bax, belə bir vəziyyətdə qazla işləyən qızdırıcılara üstünlük verilir. Ümumiyyətlə, havaların soyuması "mavi yanacağ"a tələbatı daha da artırır, eyni zamanda, qazın təzyiqi müxtəlif ərazilərdə aşağı düşür.

Bununla bağlı mediaya açıqlama verən "Azəriqaz" İstehsalat Birliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Eldəniz Vəliyev payız-qış mövsümünə hazırlığın may ayından başlandığını, bu istiqamətdə həyata keçirilən tədbirlərin soyuq aylarda abonentlərə təhlükəsizlik şəraitində davamlı olaraq qazın verilməsinə müsbət təsir göstərdiyini bildirib.

Hazırlıq işləri istənilən xidmət nöqtələrində, məsələn, korroziyaya uğrayan hissələrin yeniləri ilə əvəz olunması, yeraltı boru xətlərinin dayaqlar üzərinə qaldırılması, şkafların və avadanlıqların yoxlanılması, yenilənməsi, təzələnməsi, yeni xətlərin çəkilməsi kimi sahələrdə həyata keçirilir. Builki hazırlıq işləri miqyasına görə, daha çox diqqət çəkir.

Hazırda payız-qış mövsümü başlayandan ötən qısa müddətdə elə bir ciddi problemlə üzləşilməyib, 2 milyon 500 min abonentin qazla təminatında hər hansı çatışmazlıq aşkarlanmayıb. Nə vaxtsa müəyyən ərazilərdə nəzərdə tutulmayan təzyiq müşahidə olunarsa, həmin sahələrdə çətinliklərin aradan qaldırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

**Vaqif BAYRAMOV**
**XQ**

### Ekspert rəyi

**Elməddin MURADLI, nəqliyyat məsələləri üzrə ekspert**



Əvvəla onu qeyd edim ki, ölkədə yağış sularının küçə və prospektlərdən kənarlaşdırılması sistemi düzgün idarə olunmur. Yağış suları, təəssüf ki, qeyri-qanuni olaraq kanalizasiya sisteminə birləşdirilir. Belə şəraitdə isə təbii ki, kanalizasiya xətləri yüklənir və nəticədə daşan su küçələri basır. Beləliklə, çirkab suları küçələrə axır. Deməli, yağış sularının kənara nəzərdə tutulan qaydada yönləndirilməməsi təhlükəsizliklə bağlı problem kimi narahatlıq doğurur, digər tərəfdən isə bu, müxtəlif xəstəliklərin yaranmasına səbəb olur.

Digər tərəfdən, qış aylarında güclü qar, yağış yol hərəkəti təhlükəsizliyinə mənfi təsir göstərir, yollarda qəzalara səbəb olur, sıxlıq, tıxac yaradır. Məsələn, qar yağır, onun təmizlənməsi isə yalnız bəzi mərkəzi küçə və prospektlərdə sürətlə aparılır. Kənar ərazilərdə isə vəziyyət Allah ümidinə buraxılır, problem havalar düzələndən, buz əriyəndən sonra həll olunur.

Qışa tam hazır olmaq ifadəsi bütün küçə və prospektlərin eyni vaxtda texnika, canlı qüvvə ilə təmizlənməsi anlamını əhatə etməlidir. Amma əksər hallarda bu, belə olmur. Paytaxtda, eləcə də rayonlarda bəzi yollar həmin günlərdə diqqət mərkəzində saxlanılsa da, digər ərazilərdə bu, unudulur.

Ümumiyyətlə, bu istiqamətdə görülən işləri qiymətləndirməklə bərabər, illərlə müşahidə olunan narahatlıq doğuran bir məqamı da qeyd edim. Belə ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi qarlı günlərdə respublika əhəmiyyətli yolların qardan təmizlənməsində operativ fəaliyyət göstərə, vəziyyətə vaxtında müdaxilə edə bilmir. Məsələn, Bakı–Şamaxı magistralında, Ağsu aşırımında gecənin bir aləmində qar yağmağa başlayır, dərhal da yol buz bağlayır. Yalnız bundan sonra əraziyə texnika çıxarılır ki, bu da magistralın qısa müddətdə qardan təmizlənməsini, işlək vəziyyətə salınmasını çətinləşdirir.






Sosial xəbərlər

# "Uşaqları peyvənddən kənarda qoymayaq"

**Avropa İttifaqının maliyyə dəstəyi ilə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və Azərbaycan Pediatriya Cəmiyyəti (AzPC) Lənkəranda uşaqların peyvəndlənməsi ilə bağlı növbəti maarifləndirmə tədbiri keçirib. Mərasim Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) dəstəyi, Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə birlikdə təşkil edilib.**



İndiyə qədər ardıcıl olaraq müxtəlif regionlarda keçirilən "Mifə yox, elmi sübutlara inanaq: Peyvəndlə bağlı biliklərin artırılması üzrə təlim" adlı tədbir ÜST-nin Avropa İmmunlaşdırma Gündəliyi 2030 təşəbbüsünə uyğun olaraq "Heç bir uşağı peyvənddən kənarda qoymayaq" şüarı altında keçirilib.

ÜST-nin ölkəmizdəki ofisindən bildiriblər ki, təlimin məqsədi tibb işçilərinin və valideynlərin peyvəndlənmə ilə bağlı məlumatlılığını artırmaq və vaksinlər barədə yaranmış yanlış təsəvvürləri aradan qaldırmaqdır. Təlimə Lənkəran, Lerik, Yardımlı, Masallı və Astara rayonlarında fəaliyyət göstərən 100-ə yaxın pediatr, tibb işçiləri (tibb bacısı və qardaşı), həmçinin peyvənddən imtina edən valideynlər cəlb olunub.

Mərasimin birinci hissəsində AzPC-nin İdarə Heyətinin üzvləri və Səhiyyə Nazirliyinin mütəxəssis-ekspertləri Nigar Bayramova, Erkin Rəhimov və Əli Quliyev peyvəndlə bağlı tərəddüdlər barəsində valideynlərlə söhbətlər aparıb və onları maraqlandıran sualları cavablandırıblar. Həmçinin mütəxəssislər son dövrdə yayılan qızılca xəstəliyindən qorunmaq üçün uşaqların peyvənd olunmasının vacibliyi ilə bağlı valideynlərə çağırış ediblər.

Məclisin 2-ci hissəsində isə mütəxəssislər tibb işçiləri üçün uşaq vaksinasiyası, peyvəndlə qarşısının alınması mümkün olan xəstəliklərin ağırlaşmaları, yanlış əks göstərişlər və digər mövzuları əhatə edən sessiyalar keçiriblər.

# Qarabağda ilk əmək yarmarkası

**Böyük Qayıdış proqramına uyğun olaraq, işğaldan azad olunmuş ərazilərimizə köçürülən sakinlərin fəal məşğulluq proqramları ilə əhatə olunması tədbirləri davam etdirilir. Dövlət Məşğulluq Agentliyi Qarabağ iqtisadi rayonuna daxil olan ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəliyinin dəstəyi ilə Füzuli şəhərində əmək yarmarkası təşkil edib.**



Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən XQ-yə verilən xəbərdə bildirilir ki, işğaldan azad edilən ərazilərimizdə keçirilən ilk əmək yarmarkası Mirzə Uluqbəy adına 1 saylı tam orta məktəbdə təşkil edilib. Dövlət və özəl sektorun Füzulidə fəaliyyət göstərən 20 işəgötürən qurumun iştirak etdiyi aksiyada müxtəlif istiqamətlər üzrə 200-ə yaxın vakansiya təqdim edilib. Yarmarkaya qatılan sakinlərə iş yerləri və öhdəlikləri haqqında məlumat verilib. Müraciət edənlərin qeydiyyatı aparılıb.

Sonra keçirilən görüşdə işəgötürənlərə agentliyin fəaliyyəti, məşğulluq tədbirləri, köçürülən sakinlərin məşğulluqlarının təmini istiqamətində görülən işlər barədə məlumat verilib. Bildirilib ki, köçürülən ailə üzvlərinin məlumatları təhlil olunub, onların məşğulluğa cəlb edilməsinə başlanılıb. Hazırda 73 nəfər münasib işlə təmin olunub, 20 nəfər özünüməşğulluq proqramına cəlb edilib və daha 150-dək sakinin məşğulluğu üçün işlər aparılır.

# Şəhid ailəsi üzvü qadınların reabilitasiyası



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, Sosial Dəstək Mərkəzi "Bölgələrdə müharibədən əziyyət çəkmiş qadınların psixoloji reabilitasiyasına və şəxsi inkişafına dəstək" layihəsinə başlayıb.**

Layihənin məqsədi həmin xanımların müharibə nəticəsində üzləşdikləri psixoloji sarsıntılar, travmalar və digər bu kimi fəsadların aradan qaldırılmasına, psixoloji sağlamlıqlarının bərpasına, yeni bacarıqlar qazanmaları və şəxsi inkişafına dəstək olmaqdır. Layihəyə Tovuz və Beyləqan rayonlarında yaşayan, müharibə nəticəsində ailə üzvünü itirmiş 20 qadın cəlb olunub. Onlara psixoloji reabilitasiya xidmətləri göstərilməklə, müasir inkişafyönümlü bacarıqlar üzrə təlimlərə də cəlb olunublar.

# Bərdədə məşğulluğa dəstək dinləməsi

**Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək layihəsi" ilə bağlı Bərdə rayonunda ictimai dinləmə keçirilib.**



Mərasimdə layihənin hədəf və məqsədləri, əhatə dairəsi, icrası zamanı ətraf mühit və sosial məsələlərə dair tələblər, gözlənilən faydaları, müraciət və iştirak qaydaları barədə ətraflı məlumat verilib.

İştirakçıları maraqlandıran suallar cavablandırılıb, eləcə də layihə çərçivəsində öz biznesini qurmaq istəyən işsiz və işaxtaranlara müvafiq tövsiyələr verilib.

**Zərifə BƏŞİRQIZI**
**XQ**

# ABŞ-ın ikili standartı və Avropanın ondan asılılığı

**Uinston Çörçill bir dəfə demişdir ki, "Amerikalılar həmişə yeganə düzgün həlli tapırlar. Ancaq geridə qalan bütün yanlış həll yollarını təkrar-təkrar yoxlayandan sonra"! Rəsmi Vaşinqtonun Cənubi Qafqazla bağlı apardığı siyasətin bir sıra məqamları göstərir ki, amerikalılar mövcud istiqamətdə hələlik yanlış olan bütün həll yollarını təkrar-təkrar yoxlamaq mərhələsindədirlər. Bununla yanaşı, qoca U.Çörçill də bir məqamı unutmuşdur: avropalılar da amerikalıların təsirinə təkrar-təkrar uyub böyük zərər görəndən sonra düzgün mövqe seçirlər! Burada da hələlik Amerikanın təsiri altında olmaq mərhələsini yaşayırlar!**



ABŞ və Avropa Azərbaycanın Zəfər Savaşından və suvereneliyini tam təmin edəndən sonra səhvlərini artırdılar. Bədnam "907-ci düzəliş"in utancını doya-doya yaşamadan rəsmi Vaşinqton ondan böyük yanlışlıq etdi. Bəyan etdi ki, Azərbaycan Ermənistana hücum etsə, İrəvanın yanında olacaq, rəsmi Bakı ermənilərin hüquqlarını pozmamalıdır və ermənilər Qarabağa qayıtmalıdırlar. ABŞ Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayen Qarabağdan Rusiya sülhməramlılarını çıxarılmasının lazımlılığını vurğulamaqla yanaşı, Azərbaycana qarşı da bir sıra absurd ittihamlar irəli sürmüşdür. Azərbaycanı qondarma ittiham üzərində amerikalılar ona nail olmaq istəyirlər ki, birincisi, "ABŞ və Qərb sülh prosesinə dərindən daxil olsun", ikincisi, "ən yaxşı yanaşma ABŞ və Qərblə işləməkdir"!

Bax, bu məqamda nəinki U.Çörçill, hətta amerikalı analitik Martin Sif də tam haqlıdır. Sonuncu 2018-ci ildə Vaşinqtonun Türkiyə siyasətinin yanlışlığını vurğulayaraq demişdi ki, "ABŞ Çörçillin I Dünya Savaşında Osmanlıya etdiyi yanlışlığı indi Türkiyəyə qarşı edir". O zaman Qərb Osmanlını hərbi baxımdan cəzalandırmaq fonunda onunla həm də yaxın olmaq kimi absurd mövqe tutmuşdu. İndi də Azərbaycanı süni arqumentlər əsasında ittiham etməyin fonunda həm də bildirilir ki, "yeganə düzgün yanaşma ABŞ və Qərblə birgə hərəkət etməkdir"! Bunun realpolitikadakı adı ikili standartdır.

Həmin ikili standarta görə, Amerika indi Azərbaycana hər cür yardımı dayandırıb və birbaşa Ermənistanı müdafiə edir, İrəvanın təcavüzkarlığına min bəhanə ilə haqq qazandırmağa çalışır. Və bu prosesdə Avropa onun hərəkətlərini yamsılayır və bir sıra məqamlarda hətta daha irəli gedir.

Düşündürücüdür ki, BMT-nin nəzdindəki məhkəmə sistemi də siyasi sifarişləri yerinə yetirməklə məşğuldur. Konkret olaraq, BMT-nin Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın şikayəti əsasında Azərbaycanla bağlı qəbul etdiyi qərarda ölkəmizdən "doqquz aylıq blokadadan (??- F.Q.) sonra Qarabağdan deportasiya olunmuş erməni əhalisi"ndən geri qayıtmaq istəyənlərin hüquqlarının, təhlükəsizliyinin, əmlakının toxunulmazlığının təminatını tələb edir.

Eyni zamanda, həmin məhkəmə Qarabağda yaşayan erməniləri çıxarmaq məqsədilə güc tətbiqindən çəkinməyə də çağırmışdır. Bununla kifayətlənməyərək, BMT məhkəməsi Azərbaycandan iki ay ərzində qərarlarının icrası ilə bağlı hesabat verməyi tələb etmişdir. Ekspertlər bu müddəaları Azərbaycanı "blokada və deportasiya"da ittiham etmək kimi qiymətləndirirlər. Reallıq isə ondan ibarətdir ki, Azərbaycan öz ərazi bütövlüyünü təmin etmişdir və tam suverenliyə nail olmuşdur!

Məsələnin daha acınacaqlı tərəfi ondan ibarətdir ki, Avropa ölkələri Amerikanın dediklərini müxtəlif ritmlərdə təkrar edirlər. Onlar özlərini okeanın o tayından tam asılı aparırlar. Budur, Aİ rəsmisi Jozep Borrell deyir ki, biz Azərbaycana dəfələrlə ismarıc göndərmişik ki, Ermənistanın ərazi bütövlüyünün istənilən pozulmasına sərt reaksiya verəcəyik. Bu baxımdan qərara gəlmişik ki, sərhədin daha həssas hissələrində daha çox müşahidəçi yerləşdirək. Bundan başqa, J.Borrell vurğulamışdır ki, Ermənistana Avropa Sülh Fondu çərçivəsində dəstək verək.

Əlbəttə, Zəngəzur dəhlizi məsələsi də ABŞ və Avropa İttifaqı dövlətlərinin diqqətindən kənarda qalmır. Avropalılar amerikanların dediklərini təkrarlayaraq, bölgədə ancaq Qərb sülhməramlılarının ola biləcəyindən bəhs edirlər. Bu, o deməkdir ki, Zəngəzur məsələsinə də Rusiya və İran qarışmamalıdırlar.

Əslində, Amerika və Avropa Rusiya və İrandan cavab alıblar. Tehran və Moskva qərbliləri regionun işinə qarışmamağa çağırıblar. Ancaq bu səviyyədə diplomatik duel adi haldır və faktiki olaraq detalları əks etdirmir. Hər bir halda Brüssel Vaşinqtonun mövqeyini təkrar edir. Bunlardan Cənubi Qafqazla bağlı geosiyasi xarakterli bir neçə nəticə çıxarmaq olar.

Birincisi, hiss olunur ki, Qərb (ABŞ+Avropa) artıq Ukraynanı bir qədər arxa plana atmağa hazırlaşırlar. Onlar Rusiya ilə Şərqi Avropada daha dərindən çəkişməyə ehtiyat edirlər. Bununla Ukrayna taleyin ixtiyarına atılır və onun gələcəyində qeyri-müəyyənlik ssenarisinin çəkisi artır.

İkincisi, bu gedişatın fonunda Qərb Cənubi Qafqazda fəallaşır və keçmişdəki yanlışlıqlarını təkrar edir. Konkret olaraq, Azərbaycana qarşı ikili standart mövqe tutaraq təcavüzkara haqq qazandırmağa çalışır. Hətta köhnə üsullardan yararlanaraq Bakıya təzyiqlər göstərməyə cəhdlər edir. Bu zaman Avropa Amerikanın "geosiyasi forpostu" kimi çıxış edir.

Üçüncüsü, belə qənaət formalaşır ki, Qərbin Cənubi Qafqazda fəallığı qeyri-müəyyənliyi, riskli durumu və qarışıqlığı daha da artırır. Çünki əgər regionun ən güclü dövləti olan Azərbaycana qarşı ikili standart siyasəti tətbiq edilirsə, burada hər hansı qalıcı sabitlikdən danışmaq mümkün deyildir. Üstəlik, Bakını etmədiyi əməllərdə ittihama çalışmaq yaranmış vəziyyəti daha da ağırlaşdırmaq deməkdir. Belə bir şəraitdə regional sabitlik və əməkdaşlıq imkansız görünür.

Vurğuladıqlarımızın fonunda Qərbin hərəkətləri Ermənistanla Azərbaycan arasında imzalanmalı olan sülh müqaviləsini də təhlükəyə atır. Hər bir halda ABŞ və Aİ-nin hazırkı mövqeyi prizmasında ümidverici bir əlamət gözə dəymir.

Qeyd etdiyimiz geosiyasi məqamlar daha ümumi bir nəticə çıxarmağa da əsas verir. Yaxın Şərqdəki gərginlik fonunda Qərb Cənubi Qafqazda sabitliyin təminatında maraqlı görünmür. Paradoksdur və qlobal geosiyasətin sağlam məntiqinə uyğun deyildir. Çünki nəzəri araşdırmalar da göstərir ki, hazırda qlobal təhlükəsizlik regional təhlükəsizliyin üzərində bərqərar ola bilər. Bunun üçün bütün regionlarda sabitlik, sülh və əməkdaşlıq mühiti yaradılmalıdır. Cənubi Qafqazda isə ABŞ ikili standart mövqeyi ilə regionda maraqların toqquşmasına səbəb olur və bu zaman təcavüzkara əlavə imkanlar yaradılır. Məsələn, Vaşinqtonun Azərbaycana hər cür dəstəyi dayandırması və Aİ-nin Ermənistana dəstəyi yeni səviyyəyə yüksəltməsi bunun əlamətləri sayıla bilər.

Faktdır ki, bir sıra Avropa ölkəsi Ermənistanı silahlandırır. İndi Gürcüstan ərazisi vasitəsi ilə İrəvana hərbi texnika daşıyırlar. Naticədə rəsmi İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının yardımlarından imtina etdiyini bildirmişdir. KTMT isə Ermənistana hərbi dəstəyin son mərhələsinə başlamışdı.

Bəli, bu tendensiyalar regionu kifayət qədər təhlükəli istiqamətə sürükləyir. Artıq bu gedişatın dayanıqlı geosiyasi trekə çevrilməsi ehtimalından bəhs edirlər. Lakin nə Vaşinqton, nə Brüssel, nə də İrəvan sanki düşünmürlər, məsuliyyət hiss etmirlər! Bu isə regionu xaosa aparan yoldur!

***F.MƏHƏMMƏDOĞLU***
***XQ***

# Bakıda beynəlxalq qadın konfransı




**Noyabrın 20-də Bakıda "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfrans öz işinə başlayıb. Konfrans Qoşulmama Hərəkatının hazırkı sədri qismində Azərbaycan Respublikası ilə yanaşı, təsisatın növbəti sədrləri kimi Uqanda və Özbəkistanın birgə təşkilatçılığı ilə keçirilir.**

Konfransda əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciəti səsləndirilib. Müraciəti Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova oxuyub.

Tədbir Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun cari ilin iyul ayında nazirlər səviyyəsində təşkil edilən iclasında səsləndirdiyi təşəbbüsləri əsasında təşkil edilib. Konfransda Qoşulmama Hərəkatı çərçivəsində qadın hüquqlarının inkişaf etdirilməsi və qadınların səlahiyyətləndirilməsi, habelə onların dayanıqlı inkişaf, iqtisadi artım, sülh, təhlükəsizlik məsələləri və digər sahələrdəki önəmli rolu kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Konfransda Hərəkata üzv ölkələrin rəsmiləri, o cümlədən 15 nazir, həmçinin təsisat yanında müşahidəçi statusuna malik dövlətlərin, 10-a yaxın beynəlxalq təşkilatın nümayəndələri, həmçinin xüsusi qonaq qismində yüksəkvəzifəli rəsmi şəxslər də daxil olmaqla, ümumilikdə dünyanın 50-dən çox ölkəsindən nümayəndə heyətləri iştirak edir.

Tədbiri giriş sözü ilə açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dönəmində öz vəzifəsinə böyük məsuliyyətlə yanaşdığını, çoxsaylı üzvü olan təsisatın çoxtərəfli formatda əməkdaşlığının genişləndirilməsi üçün lazım olan bütün addımları atıb və bu, artıq öz töhfəsini verməkdədir.

"Azərbaycan Qoşulmama Hərəkatına üzv olduğu müddətdə bu təsisatın prinsiplərinə sadiqliklə yanaşı onun institusional inkişafına və beynəlxalq müstəvidə nüfuz və rolunun daha da artmasına təkan verən bir sıra ideya və təşəbbüslərlə çıxış edib. Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının Sədri İlham Əliyevin liderliyi ilə təsisat inkişafının keyfiyyətcə yeni bir mərhələsinə qədəm qoyub. Bu ardıcıl fəaliyyəti üzv ölkələrin dəstəyi ilə hərəkatdaxili proseslər sistemli xarakter alıb, hazırkı beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və təsir gücü möhkəmləndirilmiş bir təsisata çevrilmək yolunda mühüm nəticələr əldə edilib", - deyə Bahar Muradova vurğulayıb.

Komitə sədri Azərbaycanın COVID 19-la mübarizədə qlobal səylərin birləşdirilməsində mühüm rol oynadığını da diqqətə çatdırıb. Həmçinin bildirib ki, Hərəkatın yeni yaradılmış Parlament şəbəkəsi və Gənclər Təşkilatı kimi təsisatları çoxtərəfli əməkdaşlığa ciddi töhfədir.

Sonra BMT Baş katibinin birinci müavini Əminə Məhəmmədin konfrans iştirakçılarına müraciəti səsləndirilib. BMT rəsmisi Qoşulmama Hərəkatına üzv ölkələri qadınların hüquqlarının qorunması istiqamətində fəal olmağa çağırıb. O deyib ki, qadınlar hərəkətverici qüvvə kimi cəmiyyətdə böyük rol oynayırlar.

Qoşulmama Hərəkatının Bakı konfransının üzv ölkələrin daha da yaxınlaşmasına töhfə verəcəyini vurğulayan Özbəkistanın Baş nazirinin müavini Zulayho Mahkamova qeyd edib: "Qadınların hüquqlarının qorunması, gender bərabərliyinin təmin edilməsi BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən biridir. Düşünürəm ki, Azərbaycanın evsahibliyi etdiyi bu konfrans Qoşulmama Hərəkatına üzv ölkələrin bir-birinə daha da yaxınlaşmasına, həmçinin qadınların səlahiyyətləndirilməsinə öz töhfəsini verəcək.

Azərbaycanın Qoşulmama Hərəkatına uğurla evsahibliyindən, təsisatın fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təşəbbüslərindən söz açan Baş nazirin müavini Özbəkistanda 40 minə yaxın azərbaycanlının yaşadığını bildirib.

O, dünyada gender bərabərliyinin təmin edilməsinin mühüm məsələlərdən olduğunu bildirib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva diqqətə çatdırıb ki, təmsil etdiyi qurumun Azərbaycandakı və digər ölkələrdəki nümayəndəliklərinin məqsədlərindən biri qadınların hüquqlarının qorunması və onların imkanlarının artırılmasıdır.

Konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycana və digər ölkələrə təşəkkürünü ifadə edən Mərakeşin həmrəylik, sosial inteqrasiya və ailə naziri Hayar Avatif bu görüşün üzv ölkələrin nümayəndələri üçün fikir mübadiləsi aparmaq, yaxından əməkdaşlıq etmək baxımından əhəmiyyətini vurğulayıb.



O, bütün sahələrdə qadınların fəaliyyətinin təqdirəlayiq olduğunu qeyd edib.

Dünyada və ölkəsində qadınların hüquqlarının qorunması və bu sahədə mövcud problemlərdən danışan Uqandanın gender, əmək və sosial inkişaf naziri Amongi Betty Ongom konfransın əhəmiyyətini qeyd edib. Bildirib ki, mövcud problemlərin müzakirəsi və həlli üçün belə tədbirlərin təşkili vacibdir.

"Əminik ki, Bakı konfransının yekununda qəbul edilən sənəd qadınların hüquqlarının qorunması və həyatın bütün sahələrində imkanlarının artırılmasına töhfə verəcək", – deyə nazir vurğulayıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva bildirib ki, Bakı konfransı çox aktual mövzuya həsr olunub. Qadınlara hörmət mədəniyyətə, tarixə olan hörmətdir. O, tədbirin müxtəlif ölkələri təmsil edən qadınlar arasında vəhdətin qurulmasında önəmli rol oynayacağından əminliyini ifadə edib.

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibinin müavini Kashif Zaman, ICESCO-nun Sosial və Humanitar Elmlər Departamentinin direktoru Ramata Almamy Mbaye və digər məruzəçilər Qoşulmama Hərəkatına üzv ölkələrdə qadınların səlahiyyətlərinin artırılması istiqamətində görülən işlərdən və görüləcək tədbirlərdən danışıb, təkliflərini səsləndiriblər.

Sonda Qoşulmama Hərəkatının "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda konfransının yekun Bəyannaməsi qəbul olunub.

Noyabrın 21-də konfrans öz işini panel müzakirələrlə davam etdirəcək.

Qeyd edək ki, Azərbaycan BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına (QH) 2019-cu ildən etibarən sədrlik edir. Ölkəmizin təsisata rəhbərliyi dövründə gördüyü işləri yüksək qiymətləndirən QH-nin üzv dövlətlərinin yekdil qərarı ilə Azərbaycanın sədrliyi daha bir il uzadılıb.

Prezident İlham Əliyevin BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsi, peyvənd millətçiliyinə qarşı mübarizə və bu istiqamətdə qətnamələrin qəbul edilməsi Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyinin göstəricisidir. Azərbaycanın uğurlu sədrliyi nəticəsində bu gün Qoşulmama Hərəkatı dünyada multilateralizm nümunəsi kimi qəbul edilir.

***XQ***

# Beqlaryan cinayətlərin törədildiyi yerləri göstərib

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mövcud olmuş qanunsuz erməni silahlı birləşmələri tərəfindən ötən müddətdə törədilmiş terrorçuluq, sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətləri ilə bağlı kompleks araşdırmalar aparılır.**




Dövlət Təhlükəsizlik Xidmətinin mətbuat xidmətindən bildirilib ki, əvvəllər azadlıqları məhdudlaşdırılmaqla Xankəndi şəhərində yerləşən 3 saylı uşaq xəstəxanasında saxlanılmış azərbaycanlı əsirlərə və beynəlxalq humanitar hüquqla müdafiə olunan başqa şəxslərə işgəncə verməkdə, eləcə də sülh və insanlıq əleyhinə, müharibə cinayəti kimi digər ağır cinayət əməllərini törətməkdə, həmçinin qanunsuz erməni silahlı birləşmələrinin fəaliyyətində digər formada iştirak etməkdə şübhəli bilinən Beqlaryan Raşid Aramayisi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 112, 113, 115.2, 279.1 və 318.1-ci maddələri ilə ittiham olunaraq həbs edilib. Qeyd olunan işgəncələrə məruz qalmış həmin şəxslər müəyyən edilərək hazırkı cinayət işi üzrə zərərçəkmiş şəxs qismində tanınıblar.

Dindirilməsi zamanı təqsirləndirilən şəxs Raşid Beqlaryan 1992-ci ilin fevral ayında Xocalı faciəsinin törədilməsində iştirakçı olması barədə məlumat verərək bildirib ki, 1992-ci il fevralın 25-də Ermənistan silahlı qüvvələri və onların tabeçiliyində fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin Xankəndi şəhərindən mülki əhalinin sıx yaşadığı Xocalı şəhərinə etdikləri hücum vaxtı qabaqcadan qurulmuş plana uyğun olaraq, sağ qalmış azərbaycanlı dinc sakinlərə təhlükəsiz qaydada Əsgəran rayonundan keçməklə Ağdam rayonu istiqamətində gedə biləcəklərinə dair yalan vədlər verilmiş, 1992-ci il fevralın 26-da özünün də daxil olduğu həmin silahlı birləşmələr azərbaycanlıları kütləvi qırğına məruz qoymaq məqsədilə Qarqarçayın sahili boyunca Ağdam rayonuna doğru hərəkət edən, əksəriyyəti qadın, uşaq və yaşlı insanlardan ibarət 200 nəfərədək mülki şəxsi Əsgəran qalasına yaxın ərazidə pusquya salaraq avtomat silahlardan atəş açmaqla qətlə yetirmişlər. Cinayətkar dəstə üzvləri tərəfindən həlak olanların üzərlərindəki şəxsi əşyalar talan edildikdən sonra onların meyitləri Əsgəran qalası ətrafında basdırılıb.

İfadənin yerində yoxlanılması istintaq hərəkəti zamanı Raşid Beqlaryan mülki əhaliyə qarşı cinayət əməllərinin törədildiyi yerləri əyani şəkildə göstərərək bu barədə ətraflı məlumat verib.

Hazırda qeyd olunan cinayət əməlləri ilə bağlı araşdırmalar davam etdirilir.

***XQ***

# “Tudə” ermənilər üçün göz yaşı tökür

**Xəbər verildiyi kimi, mərkəzi qərargahı Almaniyada olan “Hizbi Tudeyi İran” partiyasının açıq mətbuat orqanında Azərbaycanın Qarabağda suverenliyini bərpa etməsini bədxahlıqla qarşılayan qərəzli yazıda əksini tapmış böhtan və xəyanətkar mövqe ilə bağlı Azərbaycan Demokrat Firqəsi Siyasi Heyəti bəyanat yayıb. Sənəddə bildirilir:**



– İran Xalq Partiyası adlandırılan “Hizbi Tudeyi İran”, əslində, xalqla heç bir əlaqəsi və bağlılığı olmayan, heç bir sosial təbəqəni təmsil etməyən bir qrup marginal insanlardan ibarət icmadır. Bu icmanın kimə qulluq etdiyi haqqında müxtəlif fikirlər var və ilk baxışdan müəyyənləşdirmək çətindir. Bu siyasi qurum bir vaxtlar İran İslam Respublikası üçün “risalə” yazması, eyni zamanda Kommunist partiyasının ilkin mənbələrini fars dilinə tərcümə etməsi, fəhlə sinfi olmayan ölkədə proletariat diktaturası yaratmaq şuarları ilə İran siyasi tarixində özünə yer edib.

Azərbaycan Demokrat Firqəsi İran siyasi həyatının müxtəlif aktorları ilə fərqli tarixi mərhələlərdə əməkdaşlıq erdiyindən “Tudə” partiyasını da dərindən tanıyır və onun hansı “məzhəb”ə qulluq etdiyini də yaxşı bilir. Məhz bu səbəbdən xəyanətkar “Tudə”nin təxribat məqsədli bəyanatlarına cavab vermək ADF-nin üzərinə düşür.

Bəyanatda bildirilir ki, İran Xalq Partiyasının “Name-ye Mərdom” qəzetin 9 oktyabr 2023-cü il tarixli sayında çap olunmuş “Dağlıq Qarabağın süqutu” adlı məqalədə Avropada oturub İranda baş verən xalq hərəkatını biganəliklə müşahidə edən partiya rəhbərlərinin uzunmüddətli susqunluqdan sonra qızğın erməni təəssübükeşliyi ifadə olunub. Onlar Qərbdəki ağalarının tapşırığını itaətkarlıqla yerinə yetirərək Dağlıq Qarabağın süqutuna dərindən heyfslənir, açıq-aşkar ağlaşma qururlar.

ADP-nin bəyanatında daha sonra qeyd edilir ki, Azərbaycan torpaqlarının 30 illik işğalı zamanı səsini çıxarmayan bu əqidəsiz marginal qrup indi insan haqlarından danışır. Özünü İran xalqının partiyası kimi qələmə verən siyasi riyakarlar dəstəsi bu ölkədə yaşayan xalqlara edilən zülmdən, davam edən siyasi repressiyalardan, qətl və edamlardan yazmaq əvəzinə, Azərbaycanın ərazisinin 20 faiznini işğal edib xarabazara döndərmiş, 1 milyon azərbaycanlını yurdundan qovub qaçqın-köçkünə çevirmiş erməni təcavüzkarlığına. onun oyuncaq ruporu olmuş “Xankəndi xuntası”nın süqutuna göz yaşı tökür.

Bəyanatda “Bu, 2020-ci ilin noyabrında imzalanmış müqavilənin kobud və həyasızcasına pozulması idi” böhtanına cavab olar bildirilir: “Bu bədbəxt tudəçilər 10 noyabr 2020-ci il üçtərəfli bəyanatın mahiyyətini anlamayaraq onu “müqavilə” kimi qələmə verirlər. Onlara xatırladırıq ki, bu, bərabər tərəflərin sülh müqaviləsi deyildi.Həmin sənəd Ermənistanın müharibədə təslim olması barədə akt – bəyanat, siyasi məlumat idi. Ermənilər daha artıq “qırılmasınlar” deyə Azərbaycan dövləti onlara fürsət verdi ki, ölkədən rədd olub getsinlər. Belə bir addımı yalnız böyük və humanist bir xalq ata bilərdi. Azərbaycan məhz belə bir xalq olaraq hər addımında öz insanpərvərliyini göstərdi”.

***“Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Ermənistana yardım etmədiyini” təəssüflə bildirən tudəçilərə ADP-nin cababı belədir:***

– Bu adamlar anlamaq istəmir ki, baş verən hadisələr Azərbaycanın suveren ərazilərində cərəyan edir. Odur ki, tarixi təcrübədən onlar bilməlidirlər ki, Azərbaycan böyük bəlaları çox görüb, hər dəfə xalqın böyük sərkərdələri qarşıya çıxıb və xalqı bu bəlalardan qurtarıb. Bu dəfə də belə oldu. Xalq öz sərkərdəsinə iman etdi, Sərkərdə isə xalqa söykənib Müzəffər Oldu, Qalib Gəldi.

***“Tudə” partiyasının adından çıxış etdiyi xalqların, eləcə də ölkənin ən böyük əhalisi olan azərbaycanlıların maraqlarına heç vaxt xidmət etmədiyinin vurğulandığı bəyanatda deyilir:***

– Yarandığı 1941-ci ildən bir qrup mənşəyi şübhəli şəxslərdən biri – babası axund olmuş, atası babasından imtina etmiş molla oğlu bu partiyanın rəhbəri oldu. Qacar nəslindən olan, türkcə danışmağı ayıb hesab edən şəxslər tərəfindən yaradılmış bu təşkilat ilk gündən təxribatla məşğul olmuş və Güney Azərbaycan milli hərəkatına mümkün olan bütün düşmənçilikləri etmişdir. Onlar kommunist adını da sonralar özlərinə əlavə etdilər. Sovet hakimiyyətinin himayəsi altına keçmək üçün onlara “communist” olmaq lazım idi.

Bu şarlatanlar sadə adamların dünyagörüşünü zəhərləyərək ağı qaraya qarışdırıb, xalqı çaş-baş salıb, oğulu atanın üzünə qoyublar. Bu təşkilatda bir qrup erməniəsilli türk düşməni də yuva salıb. Həmin casuslar təhlükə yarananda ustalıqla aradan çıxıblar, bir müddətdən sonra yenidən partiya funksioneri kimi Avropada peyda olublar.

Son vaxtlar ermənilərdən artıq ermənilik edən fransızlardan da çox erməni olmağa çalışan bu tudəçilər görün nə yazırlar: “Bütün bunların cəmi “etnik təmizləmə” anlayışına daxil edilmirsə, o zaman etnik təmizləmə nədir?”

Yaşadığı ölkəyə qarşı hərbi-siyasi cinayətlərdə əli olan, bu ölkənin qanunlarını qəbul etməyib daha yaxşı həyat axtarmaq məqsədi Azərbaycanı öz xoşu və dinc şəraitdə tərk edən insanların hətəkəti nə vaxtdan etnik təmizləmə hesab edilir? Əgər Ermənistanda yaşamaq yaxşıdırsa, siz niyə Almaniyanın səxavətinə sığınmısınız? Ermənistana olan məhəbbətiniz niyə sizi Ermənistanda məskunlaşmağı sovq etmir? Azərbaycanı tərk edən ermənilər də sizin kimi daha isti yava axtaranlar, özlərini saxavətli ağalar tapmaq istəyində olanlardır.

ADP-nin bəyanatının sonunda göstərilir ki, tudəçiləri Azərbaycanı ittiham etməyə məcbur edən təkcə Qərdəki ağalarının erməni təcavüzkarlığın süquta uğramasından duyduqları narahatlıq deyil. “Tudə”nin bu xəyanətkarlığının əsasında İrandan onlara gizli tapşırıqlar verənlərin Təbrizdə, Ərdəbildə, Urmiyyədə… səslənən “Azadlıq, Ədalət, Milli Hökumət” şuarlarından keçirdikləri qorxu və əndişədir.

***Kamal NİKBİN***

## Firudin İbrahimi – 105

**Bu gün adı öyünclü mücadilə tariximizə Güney Azərbaycanda milli demokratik hərəkatın rəhbərlərindən biri kimi düşmüş Firudin Qəni oğlu İbrahiminin 105 yaşı tamam olur.**

1945-ci ildə Təbrizdə qurulmuş Azərbaycan Milli Hökumətinin baş prokuroru Firudin İbrahimi 1918-ci ildə noyabr ayının 21-də Cənubi Azərbaycanın Astara şəhərində anadan olub. 1945-ci ildə Tehran Universitetinin hüquq fakültəsini bitirib. 1945-ci ilin oktyabr ayında Azərbaycan Demokratik Firqəsinin qurultayında Milli Məclisə nümayəndə seçilib. O, 1945-ci ilin dekabr ayının 12-də Azərbaycan Milli Hökumətinin Baş prokuroru təyin olunub. 1946-cı ilin dekabr ayında Cənubi Azərbaycanda Milli Hökumət qan içərisində boğulduqdan sonra Firudin İbrahimi həbs edilib və 1947-ci ilin may ayının 22-də Təbriz şəhərinin “Gülüstan” bağında dar ağacından asılıb.



# Ölümə qalib gələn qəhrəman



*Düşünür Firidun, düşünür dərin*
*Çəkmir barmaqlıqdan o, nəzərlərin.*
*Vətən göylərinə həsrətlə baxır*
*Başında elə bil ildırım çaxır...*
*Yenə taladılar Azərbaycanı,*
*Dost deyə qırdılar min-min insanı.*
*Neçə qəhrəmanı dardan asdılar*
*Neçə ana qaldı sinəsi dağlı.*
*Sürgün yollarının yolçusu oldu*
*Neçə cavan gəlin qolları bağlı.*

*O, son qələbəni görürmüş kimi*
*Unudur ən ağır hökmü bir anda.*
*Görür azadlığın bayraqlarını*
*Necə dalğalanır Azərbaycanda...*
*Ona ölüm hökmü vermiş yağılar,*
*Yandı ürəyimin başı bu sözdən.*
*Necə dilim gəlsin, necə deyim ki,*
*Firidun əbədi ayrılır bizdən?!*
*Qalxıb barmaqlıqdan baxır nigaran,*
*Bir quş qanad çalış bəxtəvər, azad*
*Ömrünü ağ günə bəxş edən insan.*
*Sənin həsrətinlə gedir, ey həyat?!*
*Sabah sönəcəkdir dan ulduzu tək,*
*Doğan Günəşin də gözü dolacaq.*
*Pərişan saçını açıb ahəstə.*
*Cavanın üstünə kölgə salacaq...*
*Baxır barmaqlıqdan Firidun yenə,*
*Hörür tellərini günəş də artıq,*
*O mavi göylərin gen sinəsinə*
*Ahəstə-ahəstə çökür qaranlıq...*

***Mədinə GÜLGÜN***

# Ləngərudda narkoyanğın

**İranın Ləngərud məntəqəsində narkoloji dispanserdə kütləvi ölümlə nəticələnən yanğın baş verib. Bu fakt ölkədə narkomanlar arasında kütləvi ölüm hallarından yalnız biridir.**



İctimai qınaqlardan, narkomaniyanın çiçəklənməsindən yazan kütləvi informasiya vasitələri faktları aramla təqdim etməklə tədriciliyə üstünlük verirlər. Ölkənin “Həmmihən” qəzeti isə qaydalardan ara-sıra çıxır. Bu dəfə mətbu orqan Ləngərudda narkoloji dispanserdə 32 nəfərin ölümünə səbəb hallardan yazarkən cəmiyyəti və hakimiyyəti baş verənlərdə daha sərt qınayıb.

Qəzet bunu tənqid rubrikası ilə təqdim edib. Kiçik mətndə yazılanlar yalnız tənqiddirmi? “Həmmihən” qəzeti Ləngəruddakı narkoloji dispanserdə 32 narkomanın ölümünə cəmiyyətin və hakimiyyətin lazımi reaksiya verməməsini tənqid edərək yazır: “Ölkəmizdə narkomaniya qara neft kimidir, pis qoxuludur. Amma müalicə edən, dispanser, narkotik maddələrin qaçaqmalçılığı ilə məşğul olan şəbəkə, satıcı, çatdırıcı və digərləri ondan çoxlu qazanc əldə edirlər. Narkomanlar onlar üçün neft quyusu kimidir. Hətta yandıqları vaxt da daha çox pul qazanan dəstəyə xeyir verirlər”.

***R.HÜSEYNLİ***

# Salmas qədim türk yurdudur

**Güney Azərbaycanın qərbində, əyalət mərkəzindən 90 kilometr şimalında yerləşən Salmas mahalı Urmiya–Xoy və Xoy–Urmiya–Təbriz yolunun üstündə yerləşir. Şimaldan Xoy, cənubdan Urmiya, şərqdən Urmiya gölü və qərbdən Türkiyə Cümhuriyyəti ilə qonşudur.**

Salmas şəhəri düzənlik ərazidə, dəniz səviyyəsindən 1350 metr yüksəklikdə yerləşir. 2,5 min kv.km ərazidə olan mahal 2 bölgədən– (Mərkəzi, Kuhsar), 2 şəhərdən (Salmas, Təzəşəhər) və 7 rayondan (Zolaçay, Kərəsəni, Kanatbroj, Ləkistan, Çahrıq, Şapıran, Şınatal) ibarətdir. Ən böyük çayı Zola çayı su təminatda və kənd təsərrüfatında önəmli rol oynayır. Digər su qaynaqları mahalın qərbində olan Ərəvil, Sarıçiçək və Sarı Daş dağlarından axan çaylardır.

Salmas mahalında Azərbaycan türkləri yaşayır. Əhalisinin sayı 2016-cı ildə aparılan rəsmi siyahıyaalmaya görə, 180,7 min nəfər olub. Ötən əsrdə mərkəzi hökumətin siyasəti nəticəsində mahalın etnik tərkibinin dəyişdirilməsinə cəhd göstərilsə də, bu, demək olar ki nəticə verməyib. Burada az sayda kürd və xiristian da məskundur.

Salmas mahalı və şəhərinin adı ilə bağlı müxtəlif fikirlər irəli sürülüb. Bir sıra tarixçi və araşdırmaçı şəhərin adının miladdan öncə VIII yüzillikdə hökm sürən Assur hökmdarı Salmasarla bağlı olduğunu bildirir. İbni Hoqəl 978-ci ildə yazdığı “Surətü-lərz” kitabında Salmas şəhərini abad, firavan şəhər kimi təsvir edib və burada daşdan hündür sarayların tikildiyini qeyd edir. Müqəddəsi 985-ci ildə yazdığı “Coğrafiyayi-ərəbi” əsərində Salması çoxsaylı bazarları və daşdan inşa edilmiş hündür məscidləri olan şəhər kimi göstərib. Bəzi tədqiqatçılar Salmas şəhərinin adının türkcə Solmaz sözündən götürüldüyünü iddia edir.

Bir çox tarixçi isə türk kökənli “as və ya az” sözünə istinad edi: bu qədim və tanınmış türk tayfalarından birinin adıdır. “As” sözü türklərin mifologiyasında önəmli yer tutan “Aşina”, yəni ana qurd, yol göstərən qurdu nişan verir. Arxeoloji tapıntılara söykənənlər Salmasda sakların yaşadığını bildirirlər. Onların fikrincə, Alp Ər Tunqa onların xaqanı olub və siyasi-hərbi çaxnaşmalarda Urmiya gölündəki adada öldürülərək basdırılıb.

1891-ci ildə Salmas şəhərində baş



verən güclü zəlzələ nəticəsində şəhərin əksər hissəsi dağılıb, hazırkı şəhər xarabalıqların yaxınlığında inşa edilib. Azərbaycanın bir çox yerlərində olduğu kimi, Salmas şəhərinin adı da Pəhləvi sülaləsi dövründə dəyişdirilərək “Şahpur” qoyulub. Ancaq 1979-cu ildən sonra şəhərin adı yenidən özünə qaytarılıb.

Daban təpəsindən əldə edilən arxeoloji tapıntılar bu yerin ən qədim yaşayış məskənlərindən biri olduğunu sübut edir. Aparılan araşdırmalarla, 14 min il öncə burada ilkin insan yaşayış məskənləri və əkinçilik nümunələri aşkar edilib. Tədqiqatçılar Azərbaycan Respublikasının Füzuli rayonunda yerləşən Azıx mağarası ilə Salmas ətrafında olan yaşayış məskənlərində insan yaşayışının eyni dövrdə başladığını bildirirlər.

Ötən əsrin əvvəllərində Azərbaycanın bir çox yerlərində baş verən soyqırımı Salmasda da olub. Güney Azərbaycanda “Cilovluq hadisəsi” kimi tanınan qırğında Qərbi Azərbaycanın bir sıra şəhərlərində qətliamlar törədən ermənilər Salması da yağmalayıb və minlərlə insanı qətlə yetiriblər.

Salmas mahalının iqtisadiyyatı, əsasən, əkinçilik və maldarlıq üzərində qurulub. Kiçik sənaye müəssisələri və fərdi müəssisələr də fəaliyyət göstərir. Sənaye şəhərciyində əsasən metal və qida məhsulları istehsal edilir. Mahalda əl işləri sənayesi insanların məşğulluğunda əhəmiyyətli rol oynayır. Mineral patron, gip daşı, traverten kimi maddələr ixrac edilir. Kənddə isə istehsal



edilən əsas məhsullar buğda, arpa, şəkər çuğunduru, tütün, noxud, lobya, yemiş, kartof, qarpız, albalı və qozdur. Ərazi nisbətən dağlıq olduğundan burada geniş və zəngin otlaqlar var və maldarlıq inkişaf edib. Ağartı məhsulları başqa bölgələrə də ixrac edilir. Arıçılıq da geniş yayılıb və əldə edilən keyfiyyətli bal ölkənin başqa bölgələrinə göndərilir.

Güney Azərbaycanın başqa bölgələri kimi, Salmasda da əl işləri sənayesi geniş yayılaraq, bir çox ailənin gəlir mənbəyinə çevrilib. Burada, əsasən, xalça, kilim, həsir, cecim, zilu, səbəttoxunur, ipliklər hazırlanır, keramika malları düzəldilir. Xüsusilə kənd əl işləri ilin soyuq aylarında əhalinin əsas məşğuliyyətlərindən sayılır. Şəhərdə bu işlər fərdi sexlərdə aparılır.

Salmas şəhəri XX əsrdə Güney Azərbaycanın siyasi tarixində önəmli rol oynayıb. Məşrutə Hərəkatında və 1945-ci ildə Milli Hökumətin qurulmasında mahal bir sıra sahələrdə birinci olub. Məşhur inqilabçı, İranda ilk elektirik mühəndisi Heydər xan Əmioğlu da salmaslıdır.

Salmas mahalında tarixin müxtəlif dövrlərinə aid olan yüzlərlə abidə, təpə, qəbiristanlıq və s. mövcuddur. Kiçik haftaxan, Qara qışlaq, Bilqeys dağı, Ağ ziyarət, Təzə şəhər, Dərşək, Şirəçi, Gavur çiçək, Şeydan, Vərdan, Təmrab, Qabaq tətələri, Şor göl, Hədər məkanları, Gavur, Çehriq qalaları, Xan taxtı daş yazıları və s. keşmişin qiymətli yadigarlarıdır. Salmasda Antik təpələrin arxeologiya araşdırmaları bu şəhərin müxtəlif dövrələrdə yaşayış mərkəzi olduğundan xəbər verir. Onlardan əldə edilən tarixi əşyalar bölgədə şumerlər zamanından mədəniyyətin mövcud olduğunu, sonralar Qutti, Hurri, Manna və Urartunun bu torpaqlarda iz buraxdığını göstərir.

Salmas mahalının görməli və gəzməli yerlərindən bir neçəsi aşağıdakılardan ibarətdir: Koroğlu hədər qalası, Köhnəşəhər imamzadası, İmamzada Bərgüşad, Xorxora şəlaləsi, Urmiya gölü ətrafı təbii gəzinti yerləri, Təmər şəlaləsi, Çehriq qalası, Acvac kəndi və orada yerləşən Yarıq qala; Zolaçay dərəsi, Çiçək gölü, Ağ Ziyarət gölü, İsti su bulaqları, Xan taxtı qaya yazıları, 9 min illik tarixi olan Əhrəncan qalası, Muğancıq qalası, Şeyx hamamı və s.

***Hazırladı:***
***T.RÜSTƏMLİ***
***XQ***

Dünyadan gələn soraqımız

# Köln Musiqi Akademiyasının azərbaycanlı dosenti

**Onu ilk dəfə Filarmoniyanın səhnəsində şəhid pilot Rəşad Atakişievin xatirəsinə həsr edilmiş tədbirdə ifası zamanı tanıdım. Möhtəşəm ifa idi, mənə elə gəldi ki, o nə səhnəni hiss edir, nə də tamaşaçını. Yalnız şəhidin ruhu ilə söhbət edir, çatdırıb ona deyə bilmədiklərini danışır... Və o yanğı barmaqlarından pianonun dillərinə keçir, musiqiyə dönüb qulaqdan ruha axır.**



**Söhbət Almaniyanın Köln Musiqi Akademiyasının dosenti Toğrul Hüseynlidən və onun sənətindən gedir. Onunla Bakıda verəcəyi konsert ərəfəsində görüşüb müsahib olduq:**

– Həyatım musiqi ilə bağlıdır. Deyilənə görə, 2 yaşımda Azərbaycan himnini dinləməklə əzbərdən oxumuşam. Güclü musiqi duyumum olduğunu hiss edən valideynlərim məni "Aysel" uşaq teatrının bədii rəhbəri bəstəkar Oqtay Zülfüqarovun yanına aparıblar. Onun uşaq mahnılarını ifa etmişəm, ilk ifam da "Toplan" mahnısı olub. O zaman klipi də çəkilmişdi.

Uşaq ikən iki dəfə Heydər Əliyev Sarayının səhnəsində çıxış etmişəm. Hər iki tədbirdə Ulu öndər də iştirak etmişdi. Sonra Bülbül adına Orta İxtisas Musiqi məktəbinə daxil olmuşam. 4 yaşım olanda indi sənətşünaslıq üzrə fəlsəfə doktoru olan bacım Könül dərs deyirdi. Bacımın sinfində ilk fortepiano dərsləri almağa başladım. Sonra ailəm qərara gəldi ki, bu işlə peşəkar məşğul olmalıyam. Bülbül adına orta İxtisas Musiqi məktəbində oxudum. Amma ilk müəllimim Könüldür, həmişə də inkişafıma dəstək verib.

**Toğrul Bülbül adına Musiqi məktəbində Aynurə Qasımovanın sinfində oxuyub. Müxtəlif konsetlərdə, festivallarda, müsabiqələrdə çıxış edib. Ulu öndərin xatirəsinə həsr olunmuş respublika müsabiqəsində 1-ci dərəcəli mükafat alıb. İlk sənət sınağı isə 10 yaşında ikən Tiflisdə keçirilən pianoçuların beynəlxalq müsabiqəsi olub. Orada iki mərhələdə çıxış edərək, bürünc medala layiq görülüb. İstedadlı musiqiçi daha sonra dedi:**

– Artıq 12 ildir ki, Almaniyada yaşayıram. 15 yaşımda Minskdə keçirilən festivalda iştirak edərkən dünya şöhrətli musiqiçi Vasili Lobanovla tanış olmuşdum. O mənə dedi ki, istedadlısan, amma yüksək təhsilə ehtiyacın var. Almaniyada musiqi dərsi alsan, qarşında böyük imkanlar açılar. Bu görüş mənim həyatımın dönüş nöqtəsi oldu. Bakı Musiqi Akademiyasında 1 il Oqtay Abasquliyevin sinfində təhsil aldıqdan sonra dövlət proqramı çərçivəsində Almaniyaya getdim. İlk məqsədim təhsilimi yüksək nəticələrlə başa vurmaq idi. Bakalavr mərhələsini əla nəticə ilə bitirdim. Eyni qayda ilə magistraturanı da başa vurdum.

Magistr təhsilinin ilk ilində Toğrul Ukraynada keçirilən beynəlxalq müsabiqədə 1-ci dərəcəli mükafata layiq görülüb. Həmin il Almaniyada müsabiqədə əsas mükafatı alıb:

– Müxtəlif müsabiqələrdə iştirak edərək, Azərbaycanı ən yüksək musiqi arenalarında təmsil etmək istəyirdim. 2012-ci ildə alman pianoşularının yarışında 5 finalçıdan biri oldum. O müsabiqənin tarixində mənə qədər 17 yaşında finalçı olmamışdı. Sonra ispan bəstəkarlarının müsabiqəsində Ferror şəhərində keçirilən 3 mərhələli yarışmada mükafatlara layiq görüldüm.

Toğrul doktorantura təhsilini Avstryada alıb. Hələlik ən böyük uğuru 2020-ci ildə Almaniyada pianoçuların XVI Motsart müsabiqəsində 1-ci dərəcəli mükafata layiq görülməsidir. Yaddaqalan konsertləri də çox olub. Niderland turnesi zamanı 3 şəhərdə, həmçinin Slovakiyanın paytaxtı Bratislavada verdiyi konsertlər buna misal ola bilər. Amsterdam filarmoniyasındakı konsert isə onun karyerasında zirvə sayıla bilər. Çünki orada dünyanın ən böyük musiqiçiləri çıxış edirlər. Toğrul Berlinin, Ştutqartın ən böyük salonlarında da gur alqışlar qazanıb. Bu konsertlərdən sonra xarici musiqi tənqidçiləri qəzetlərdə onun haqqında "Azərbaycanlı pianoçu qalib oldu" başlıqlı məqalələrlə çıxış ediblər. Bu barədə danışanda deyir ki, ölkəmizi təmsil etməyim ən böyük qürurumdur. Onun Azərbaycanda da çıxışları daim uğurlu olub.

**– Özünüz kifayət qədər məşhurlaşmısınız. Bəs, Azərbaycan musiqisini Avropada necə tanıda bilmisiniz?**

– Həmişə klassik musiqimizi təbliğ etməyə çalışmışam. Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və Cövdət Hacıyevin fortepiano üçün bəstələnmiş əsərlərini Avropa tamaşaçısına təqdim etmişəm. Tofiq Quliyevin "Qaytağı" əsərini də konsertlərimdə ifa etmişəm. Bizim böyük musiqi mədəniyyətimizi dünyada qədərincə tanıtmaq üçün özün də məşhur olmalısan. Qəbələ Beynəlxalq Musiqi Festivalında da böyük həvəslə çıxış etmişəm. Festivalın bədii rəhbəri, Xalq artisti, professor Fərhad Bədəlbəyli məni ora dəvət etmişdi. Mənim inkişafımda onun danılmaz rolu olub. Köldə Musiqi Akademiyasının bir dosenti tələbələrinə, dostlarına, onu əhatə edən mühitə dogma musiqisini nə qədər tanıtdıra, sevdirə bilərsə, mən də o qədərini etməyə çalışıram.

**– Bu yolda sizə uğurlar arzu edirik!**

**Ramilə QURBANLI**
**XQ**

# Zamanın "Türk əsri" çağırışı

*Turana qılıncdan daha kəskin,*
*ulu qüvvət*
*Yalnız mədəniyyət, mədəniyyət,*
*mədəniyyət!*
***Hüseyn Cavid***

Müxtəlif münaqişə və qarşıdurmalar məkanına çevrilən qədim evimiz Yer kürəsi barıt qoxusunda boğulur. Bəşər övladının təmiz hava ilə nəfəs ala bilməsi üçün qapı, pəncərə və nəfəslikləri taybatay açmaq gərəkdir. Eyni zamanda mədəni dəyərlərə istinadla öz aramızda dil tapmaq, ünsiyyət qurmaq, fikir mübadiləsi aparmaq, ortaq məxrəcə gəlmək lazımdır.

Çağdaş dünyada müştərək mədəniyyətlərin yayılmasına və əhatə dairəsinin genişləndirilməsinə böyük ehtiyac var. Çünki məhz mədəniyyət vasitəsilə konsensus əldə etmək, işgüzar müzakirələr aparmaq mümkündür.

Artıq beynəlxalq aləmdə özünəməxsus mövqeyə malik türkdilli dövlətlərin və xalqların müxtəlif qurumlarının, tribunası olan Türk Dövlətləri Təşkilatının (TDT) da bu baxımdan zamanın diqtəsindən yarandığını desək, yanılmarıq. Amma hər hansı ittifaqın formalaşmasını vaxtın axarına buraxmaq, haçansa zəruri ehtiyacdan doğacağını düşünmək də sadəlövhlük olardı. Bundan ötrü mütləq gələcəyi görə bilən müdrik siyasətçi təşəbbüsü, qətiyyəti, ağsaqqal öyüdü əsasdır ki, bu ideyanın da müəllifi və şərəfli müssiya daşıyıcısı 100 illik yubileyini qeyd etdiyimiz Ulu öndər Heydər Əliyev olub. Ümummilli liderimizin illər öncəki "Bir millət, iki dövlət" deyimi və bundan irəli gələn vəhdət konsepsiyası Azərbaycan–Türkiyə qardaşlığını möhkəmləndirdi, Orta Asiyadakı türk dövlətləri və dünya türksoyluları da adıçəkilən tandemin cazibəsində birləşməyə başladılar.

Aşkar həqiqətdir ki, bugünkü türk söz və iş birliyindən ilk növbədə həmin sferadakı ölkələr və xalqlar bəhrələnir, öz aralarındakı müxtəlif problemləri yoluna qoymağı bacarırlar. Bir misal: bildiyiniz kimi, "Parçala və hökm sür" işğalçı siyasəti Qərb imperializminin həmişə karına gəlib. Xəzərin o tayında da həssas nöqtələr kifayət qədərdir və qardaşlarımız arasına mütəmadi şəkildə nifaq toxumu səpilir. Əvvəllər Özbəkistanla Qırğızıstan arasında sərhədlərin delimitasiya və demarkasiyası məsələsində ciddi narahatlıqlar baş vermişdi. Rəsmi Daşkəndlə Bişkekin bu istiqamətdə ümumi razılıq əldə etməsində məhz TDT həmrəyliyi böyük rol oynadı.



30 ilə yaxın erməni quldurlarının işğalı altında inləyən torpaqlarımızın azadlığı naminə 44 günlük Vətən savaşımızda və sonrakı bərpa-quruculuq işlərində, 23 saatlıq lokal antiterror tədbirləri zamanı Ermənistanın himayədarlarının vay-şivəni zamanı da türk dövlətləri haqq mübarizəmizi dəstəklədilər. Elə Astanada Türk Dövlətləri Təşkilatının "Türk əsri" çağırışı altında X yubiley Zirvə görüşündə də bu məsələlərə işıq salındı. Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündəki çıxışında türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsinin xarici siyasətimizin əsas prioritetlərindən olduğunu söylədi. Etnik və mədəni köklərimizin, dilimizin, ortaq keçmişimizin münasibətlərin təməlini təşkil etdiyini, Türk Dövlətləri Təşkilatının uğurlu inkişaf yolu keçdiyini və bu gün beynəlxalq səviyyədə böyük siyasi çəkiyə, nüfuza malik olduğunu qürurla vurğuladı. Qarabağdakı bərpa proseslərində qardaş dövlətlərin əməli həmrəyliyini yüksək dəyərləndirdi: "Füzuli şəhərində inşası başa çatmış məktəbə görə Özbəkistanın Prezidenti Şavkat Mirziyoyevə bir daha minnətdarlığımı bildirirəm. Avqust ayında birgə iştirakımızla məktəbin açılış mərasimini məmnuniyyətlə xatırlayıram. Qazaxıstanın Azərbaycana hədiyyəsi olan, Füzuli şəhərində inşa edilən yaradıcılıq mərkəzinə görə Prezident Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Bunlar Azərbaycan və Özbəkistan, Azərbaycan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürüdür... Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq. Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzu daha da artacaq".

Bəli, tarixin dərin qatlarından əzəmətli səsləri eşidilən, keşməkeşli, enişli-yoxuşlu yollardan keçib gələn möhtəşəm türk karvanı hər gün yeni-yeni qüvvələrlə böyüyür, qüdrətlənir, zənginləşir. Son 25-30 il isə xalqlarımızın, dövlətlərimizin taleyində xüsusi əhəmiyyət kəsb edən mühüm bir təşkilatlanma dövrüdür. Bir məsələ həqiqətdir ki, bütün bu sivil əlaqələr yolun başlanğıcında – 1993-cü ilin 12 iyulunda yaradılmış Beynəlxalq Türk Mədəniyyəti Təşkilatında (TÜRKSOY) doğma, mehrəmanə şəkildə qəbul olunmuş mütərəqqi qərarlardan qaynaqlanır. Zaman keçdikcə müqəddəs Türk ağacı övladlarının qanı ilə suvarılmış torpaqlara dərin kök salır, qol-budaq atır, şaxələnir.

Türk birliyi həm də Qərbin mürtəce dairələrinə qarşı əsrarəngiz Şərqin mədəni, ideoloji humanitar platformasıdır. Necə ki, qardaş dövlətlərimiz 44 günlük "Zəfər Yürüşü"ndə Azərbaycanın haqq səsinə səs verdilər, bizə hər cür mənəvi dəstək göstərdilər və müzəffər Ali Baş Komandanımızın sərkərdəlik məharəti, Silahlı Qüvvələrimizin rəşadəti sayəsində qələbə qazandıq. Bu kontekstdə düşünərkən cənab İlham Əliyevin türk dövlətlərinin 10 il öncə keçirilən Zirvə toplantısında bəyan etdiyi "XXI əsr Türk dünyası əsri olmalıdır" sözlərinin reallaşacağına heç bir şəkk-şübhə yeri qalmır.

**Qurban CƏBRAYIL,**
**"Mədəniyyət" jurnalının redaktoru**

Bizə yazırlar

**Nəğməkar şair, jurnalist Abil İslamla illər öncə Azərbaycan Yazıçılar Birliyində tanış olduq. Bəstəboylu, saçlarına yenicə ağ dənlər düşən bu nurlu insanın 200-dən artıq şeirinə mahnı bəstələndiyini öyrəndim.**

# Nəğməkar şairin könül rübabı

Yaradıcı insanların qəlbində Tanrıdan gələn bir ilham, üzündə ilahi bir nur olur. Onlar içlərindəki işıqla ömür adlı tuneldə rahat irəliləyirlər. Səxavətlə paylaşılan bu işıqdan başqaları da bəhrələnirlər. Abil İslamın ürəyi nəğmə işığına bələnib desəm, yanılmaram.

Abil İslam 1958-ci ildə Göyçayda dünyaya göz açıb. O torpağın suyunu içib, havasını udub. Orta məktəbi bitirdikdən sonra arzularının qanadında Bakıya üz tutub. Ali təhsil alıb. Mətbuatda fəaliyyətinə gənclik illərində Göyçayın "Yeni həyat" qəzetində başlayıb və mərhum jurnalist Oqtay Cəfərovun rəhbərliyi altında çalışıb. Sonra yenə də Oqtay müəllimin redaktorluğu ilə çıxan "İnşaatçı" qəzetində işləyib.

O, Bakıda ustad yazarlarımızla tanış olub, şeirləri musiqi ritmlərinə yatdığı üçün bəstəkarların diqqətini çəkib. Mahnılarını İslam Rzayev, Cavan Zeynallı, Aybəniz Haşımova, Zöhrə Abdullayeva, Əli Mirəliyev, Zümrüd Məmmədova, Nüşabə Ələsgərli həvəslə oxuyublar. Əksər nəğmələri dövlət radiosunun "Qızıl Fondu"nda saxlanılır. İkinci Qarabağ müharibəsinə həsr olunmuş "Adın mübarək, şəhid!" şeirinə Arif Səlimov musiqi bəstələyib və müğənni Vüqar Muradov ustalıqla ifa edib.

Bu gün onun var-dövləti yazdığı şeirləri və gözəl dostlarıdır. Bu barədə səmimi misraları da var:

*Vəzifə, var-dövlət gəldi-gedərdi,*
*Ərkim sizə çatır hər zaman, dostlar!*

Abil İslam Bakının Nizami rayonu "Müharibə və Əmək veteranları" təşkilatının sədr müavini, İctimai Xəbər Agentliyinin direktor müavini, eləcə də Azərbaycan Türk Xalqları İctimai Birliyinin sədr müavini kimi fəaliyyət göstərir.



Bir şair kimi həyatın gözəlliklərindən zövq alır, eyni zamanda neqativ hallara, haqsızlığa dözə bilmir, bir vətəndaş həssaslığı ilə bunu nəzmə çəkir. Vətənpərvər oğullarımızla qürur duyur, şəhidlərin ruhuna ehtiramını poeziya dili ilə ifadə edir, qazilərlə keçirilən tədbirlərə həvəslə qatılır. Elə bu yaxınlarda Respublika Klinik Xəstəxanasında təşkil olunmuş xeyriyyə konsertində fəal iştirakına görə fəxri diploma layiq görülüb.

*Biz azad etdikcə şəhər, kəndləri,*
*Yerlə yeksan oldu düşmən bəndləri.*
*"Hay" ın boğazında Türk kəməndləri...*
*Ali Baş Komandan vur dedi, vurduq!*

Bu kimi alovlu misraları ilə Zəfər salnaməmizi vəsf edən Abil İslamın şeirləri, mahnı mətnləri el məclislərində şövqlə səsləndirilir və gənclərimizə vətənpərvərlik hissləri aşılayır.

**Südabə SƏRVİ,**
**yazıçı-publisist**

Sənət xəbərləri

# Böyük nəslin davamçısı



**Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında böyük musiqiçilər nəslinin layiqli davamçısı, Xalq artisti, bəstəkar Eldar Mansurovun yaradıcılıq gecəsi keçirilib.**

Gecədə bədii rəhbər və baş dirijor, Azərbaycan Respublikasının Əməkdar artisti Fuad İbrahimovun rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər və baş dirijor, Xalq artisti Gülbacı İmanova) və solistlər – Əməkdar artistlər Ramil Qasımov (tenor) və Nərgiz Kərimova (soprano) bəstəkarın əsərlərini dinləyicilərə təqdim ediblər.

Xatırladaq ki, Eldar Mansurov "Kleopatra" və "Olimp" rok-baletləri, 5 simfoniya, "Mahur-hindi" simfonik muğamı, skripka və simfonik orkestr üçün konsert, bir çox simfonik, kamera və xor əsərlərinin müəllifidir. Bir sıra filmlərə və tamaşalara musiqilər bəstələyib, 3 mindən artıq mahnı və instrumental musiqinin müəllifidir.

# "6 saatlıq sükut"

**Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda "Hüseyn Arif" Ədəbi Birliyinin sədri, AYB-nin üzvü, şair Saqif Qaratorpağın "6 saatlıq sükut" adlı şeirlər kitabının təqdimatı olub.**



Tədbirin aparıcısı Əməkdar incəsənət xadimi, AYB-nin katibi Elçin Hüseynbəyli Saqif Qaratorpağın yaradıcılığı haqqında ətraflı məlumat verib. Digər çıxış edənlər şairin yaradıcılığında əsas xəttin sevgi, ayrılıq, həsrət olduğunu vurğulayıblar. Nə qədər həsrət, ayrılıq, darıxmaq olsa da, qovuşmağa ümidini itirməyən şairin yaradıcılığının özünəməxsusluğundan, təkrarsızlığından söz açılıb. "Qazax" Xeyriyyə İctimai Birliyinin üzvü, professor Rüstəm Kamal "ən ülvi hisslərini qələmə alan, qarşı tərəfə sonsuz sevgi ərmağan edən, lakin hər bir halda sevdiyini sirr saxlayan Saqifi şeirlərini hamıya sevdirib, özü sirr qalan məharətli şair" adlandırıb.

Sonda söz Saqif Qaratorpağa verilib. Şair tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib və yeni şeirlərini oxuyub.

**Ə.DOSTƏLİ**
**XQ**

Beynəlxalq həyat

# Rusiya–Ukrayna müharibəsi: “Dronların savaşı”

(əvvəli 1-ci səhifədə)



Rusiya Silahlı Qüvvələri Luqansk vilayətindəki Avdeyevka qəsəbəsi ətrafında ağır itkilər versə də, ərazidə ciddi irəliləyişə nail ola bilməyib. Ekspertlər hesab edirlər ki, qarşıdan qış ayları gəldiyi üçün, böyük ehtimalla cəbhənin təmas xəttində əhəmiyyətli dəyişikliklər olmayacaq.

Bununla bərabər, son bir neçə gün ərzində Ukrayna ordusunun Xerson şəhəri yaxınlığında Dnepr çayının şərq sahilində öz mövqeyini xeyli möhkəmləndirdiyi məlum olub. Rusiya Ukrayna qüvvələrinin qarşı sahildəki bəzi əraziləri geri aldığını etiraf edib.

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı cümə günü yaydığı hesabatda bildirib ki, Ukrayna qoşunları Rusiya qüvvələrini Dneprdən uzaqlaşdırmağa çalışır. Lakin Rusiya hərbçiləri ciddi müqavimət göstərirlər.

Son günlər döyüşlər təkcə quruda deyil, Qara dənizdə də qızışıb. Ukrayna rəsmiləri bildiriblər ki, 2022-ci ilin fevralında hərbi müdaxilə başlayandan bəri onlar Rusiya donanmasının 15 hərbi gəmisini məhv ediblər, daha 12 gəmiyə ziyan vurulub. Qarşı tərəf bu rəqəmi nə təkzib, nə də təsdiq edib.

Ukrayna Hərbi Dəniz Qüvvələrinin sözçüsü Dmitri Pletençuk televiziya ilə yayımlanan şərhlərində bildirib ki, Ukrayna donanması Rusiyanı özünün dəniz qüvvələrini silahlarının Kiyevə çatmasını çətinləşdirən başqa mövqelərə köçürməyə məcbur edib.

D.Pletençuk həmçinin deyib ki, rəqibin hərbi dəniz donanması hazırda logistika problemlərindən əziyyət çəkir, çünki gəmilərini Novorossiyskə, vaxtaşırı isə Tuapseyə köçürməyə məcbur olur ki, hər iki liman Krımın cənub-şərqində, Qara dənizin şərq cinahında və Ukrayna sahillərindən daha uzaqda yerləşir.

Bəzi ekspertlər Rusiya-Ukrayna müharibəsini “dronların savaşı” adlandırırlar. Bu sahədə Rusiyanın fəallığı daha yüksəkdir. Əvvəlki həftələr ərzində olduğu kimi, son iki gündə Rusiya aviasiyası yenidən Ukrayna ərazisinə ağır dron zərbələri endirib.

Ən son xəbərlərə görə, Rusiyanın sonuncu güclü dron hücumu Ukraynanın infrastruktur obyektlərini vuraraq, ölkə boyu 400-dən çox kənd və şəhərdə elektrik enerjisinin kəsilməsinə səbəb olub. Ölən və yaralananlar da var. Lakin onların sayı barədə məlumat verilmir.

Yeri gəlmişkən, hazırda Ukraynanın müdafiə qüvvələri ölkənin hava məkanını qorumaq üçün əllərindən gələni edirlər. Belə ki, son sutka ərzində İran istehsalı olan 38 “Şahed” dronundan 29-u vurulub. Bununla bərabər, bütün dronları vurmaq mümkün olmur.

Ukraynanın sosial şəbəkələrində yazılanlara inansaq, Rusiya aviasiyası noyabr ayında artıq ikinci dəfədir ki, Kiyevi hədəfə alıb. Lakin ukraynalı hərbçilərin sözlərinə görə, paytaxt istiqamətində hərəkət edən bütün dronlar havada zərəsizləşdirilib.

Dünən Prezident Volodimir Zelenski “Fox Corporation” şirkətinin baş direktoru Laklan Merdok və “Fox News”un jurnalistləri ilə görüşdə bəyan edib ki, Ukraynada müharibə heç də istənilən kimi tez bitməyəcək.

“İnsanlar nədənsə müharibəyə kino kimi yanaşırlar və gözləyirlər ki, hadisələrdə uzun fasilələr olmayacaq, göz qarşısındakı mənzərə daim dəyişəcək, hər gün hansısa sürprizlər olacaq”, - deyə Zelenski vurğulayıb. Bir sözlə, müharibənin öz qanunları var.

Dünən ABŞ-ın müdafiə naziri Lloyd Ostinin Ukrayna paytaxtına gəldiyi barədə xəbərlər yayılıb. Onu Kiyevdə ABŞ-ın bu ölkədəki səfiri Bricet Brink qarşılayıb. Nazir jurnalistlərə deyib ki, onun ölkəsi sonadək Ukraynanın yanında olacaq.

Bu arada Ukrayna ordusunun qərargah rəisi, general Valeri Zalujnı deyib ki, onun ölkəsinin Rusiya ordusu ilə müharibə aparmaq üçün daha təkmil texnoloji silahlara ehtiyacı var. Qərb isə Kiyevin arzu etdiyi həmin silahları Ukrayna ordusuna verməyə tələsmir.

Rusiya-Ukrayna müharibəsində heç bir tərəf ciddi üstünlüyə nail ola bilmir. Səbəb budur ki, hər iki ölkə öz qüvvələrini həlledici döyüşlərə hazırlayaraq, riskə getmək istəmir. Təəssüf ki, üfüqdə nəinki sülh, onun heç işartıları da görünmür.

**Məsaim ABDULLAYEV**
**XQ**

İdman

# Gənc boksçularımızın Avropa rinqində qələbəsi

**Azərbaycan idmançıları Avropa arenasında daha bir uğurlu çıxışla yadda qalıblar. Monteneqronun Budva şəhərində 22 yaşadək (U-22) boksçular arasında keçirilən qitə çempionatında millimiz 1 qızıl, 1 gümüş və 3 bürünc mükafata sahib olub.**





Yığmamıza qızıl medalı qazandıran Nicat Hüseynov (51 kq) öz çəki dərəcəsində ən perspektivli dəri əlcək ustalarındandır. İdmançımız ötən il Xorvatiyada keçirilən analoji yarışda da fəxri kürsünün ən yüksək pilləsində qərarlaşmışdı.

İdmançı Azərbaycan Boks Federasiyasının mətbuat xidmətinə açıqlamasında ikinci dəfə Avropa çempionu adını qazandığı və titulunu qoruduğu üçün məmnun olduğunu bildirib. Çempionata yollanarkən əsas hədəfinin qızıl medal olduğunu söyləyən 19 yaşlı boksçu ən çətin döyüşün yarımfinalda olduğunu deyib. Bütün görüşlərini hakimlərin yekdil qərarı ilə – 5:0 hesablı qələbə ilə başa vuran rinq ustası bildirib ki, türkiyəli Semih Gümüşlə qarşılaşmada bir anlıq həyəcan keçirsə də, bu, ona yekunda inamlı qələbə qazanmağa mane olmayıb.

**Avropa çempionu finalda ermənistanlı Rudolf Qarboyanla görüşündən də danışıb:**

– Döyüşə rahat çıxdım. Püşkdən sonra yarımqruplara baxdıqda finalda erməni ilə qarşılaşacağımı bildim. Onu da qeyd edim ki, rəqibim zəif yarımqrupda yer almışdı. İlk görüşlərdən özümü finalda gördüyümdən və buna qəti inandığım üçün həmin qarşılaşmaya psixoloji cəhətdən də tam hazır idim. Rinqə yalnız qələbə üçün çıxmışdım və onu qazandım. Belə bir nüfuzlu yarışda Azərbaycan himnini səsləndirdiyim üçün çox sevinirəm.

**Kişilərdən ibarət yığma komandanın böyük məşqçisi Nəriman Abdullayev “XQ”yə müsahibəsində qeyd etdi ki, 22 yaşadək gənclərdən ibarət yığmanın Avropa çempionatında əldə etdiyi nailiyyət təqdiredicidir:**

– Gənc boksçularımızın qitə yarışında yaxşı çıxışı gələcək uğurlar üçün əsaslı zəmin yaradır. Yığmada yer alan Nicat Hüseynov ikinci dəfə Avropa çempionluğunu qazanıb. O, bütün görüşlərində inamla çıxış etdi, rəqibi üçün heç bir şans saxlamadı.

Yalnız finalda məğlub olan yığma üzvü Əzrək Bəbirov (57 kq) da yaxşı çıxış etdi. İndiyədək bir sıra beynəlxalq turnirlərin qalib və mükafatçısı olan boksçu bu yarışda uğurla çıxış edərək gümüş medal qazanıb. Murad Allahverdiyev (80 kq) yığmamızın birinci nömrəsidir, respublika çempionudur. Keçən il U-22-də parlaq çıxış etsə də, hakim ədalətsizliyi səbəbindən medal qazana bilmədi. İdmançılarımızın mükafatçılar sırasına düşməsi onun potensialını göstərir. Respublika çempionu Tural Sarıyev (48 kq) Budvada bürünc medal qazanmaqla yığmada yerini daha da möhkəmlətdi. O, ötənilki Avropa çempionatında yer tuta bilməmişdi. Budəfəki nəticəsi bir daha göstərir ki, öz üzərində çalışır və inkişaf var. Düşünürük ki, o da yığma komandada Olimpiya lisenziyası qazana bilər.

**Qadınlardan ibarət yığma komandanın baş məşqçisi Yadigar Məmmədov gənclər arasında Marjona Savriyevanın (50 kq) fərqlənməsinin sevindirici hal olduğunu bildirdi:**

– Sevindirici haldır ki, Azərbaycan boksunun inkişafına qızlarımız da öz töhfələrini verirlər. Yarışda qızlar arasında 3 boksçumuz mübarizə aparırdı. Onlardan Marjona Savriyeva bürünc medal qazandı. Birinci döyüşdə Belarus idmançısına qalib gələn boksçumuz finala gedən yolda rusiyalı Arina Vostrikova ilə bərabər döyüş nümayiş etdirsə də, sonda xal hesabı ilə məğlub oldu. M.Savriyeva U-22-də yığmanın bir nömrəsidir. Qadınlar arasında isə Avropa çempionatının bürünc mükafatçısı Anaxanım İsmayılova bir nömrə hesab olunur. Bu yaxında keçiriləcək yarışda ölkə yığmasının 1-2-3-cü dərəcəli idmançıları bəlli olacaq.

**Leyla QURBANOVA**
**XQ**


## LPO “Muğanbank” ASC-nin kredit ödənişi və tələblərin qeydiyyata alınması barədə məlumat

Bakı Apellyasiya Məhkəməsinin 24 oktyabr 2023-cü il tarixli 2-3(103)-54/2023 saylı qərarı ilə «Muğanbank» ASC müflis elan edilmiş və iflas proseduruna başlanmışdır. Eyni qərarla Əmanətlərin Sığortalanması Fondu «Muğanbank» ASC-nin ləğvedicisi təyin edilmişdir.

Əmanətlərin Sığortalanması Fondu ləğv prosesində olan “Muğanbank” ASC-nin müştərilərinin nəzərinə çatdırır ki, kredit ödənişlərinin həyata keçirilməsi, sorğu edilən sənədlərin və əlavə məlumatların əldə edilməsi məqsədilə aşağıda qeyd edilən üsullardan istifadə edilə bilər:

Elektron qaydada kredit ödənişlərinin həyata keçirilməsi - https: million.az veb saytı vasitəsilə;

Nağd qaydada kredit ödənişlərinin həyata keçirilməsi – “e-manat”, “Million” və “m-pay” ödəniş köşkləri vasitəsilə;

Köçürmə yolu ilə kredit ödənişlərinin həyata keçirilməsi üçün LPO “Muğanbank” ASC-nin Azərbaycan Respublikası Mərkəzi Bankında açılmış xüsusi ləğvetmə bank hesablarının rekvizitləri

| | |
|---|---|
| **LPO «Muğanbank» ASC, VÖEN** | 1400122681 |
| **Mərkəzi Bank, VÖEN** | 9900071001 |
| **SWIFT.BIK (AZN)** | NABZAZ2C |
| **SWIFT.BIK (xarici valyuta)** | NABZAZ2X |
| **Kod** | 501004 |
| **Müxbir hesab AZN** | AZ74NABZ01451700000000001944 |
| **Hesablaşma hesabı AZN** | AZ92NABZ01350100000000065944 |
| **Müxbir hesab EUR** | AZ58NABZ01452800000000007954 |
| **Hesablaşma hesabı EUR** | AZ40NABZ01350200000000065954 |
| **Müxbir hesab USD** | AZ51NABZ01452800000000015840 |
| **Hesablaşma hesabı USD** | AZ77NABZ01350200000000066840 |




**Həmçinin qeyd edək ki, kredit ödənişlərinin həyata keçirilməsi, sorğu edilən sənədlərin və əlavə məlumatların əldə edilməsi qeyd edilən ünvanlarda mümkündür:**

Ləğv prosesində olan “Muğanbank” ASC–nin **Baş ofisi.**

**Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli 21B. AZ1052

Əmanətlərin Sığortalanması Fondunun ləğvetməsində olan bankların regional mərkəzləri üzrə ünvanlar:

Mingəçevir şəhəri, Füzuli küçəsi, 24B
Gəncə şəhəri, Cavadxan küçəsi 10
Sumqayıt şəhəri, 6-cı mikrorayon, Cəlil Məmmədquluzadə küçəsi 7
Xaçmaz şəhəri, Heydər Əliyev küçəsi 256
Lənkəran şəhəri, Mirmustafaxan küçəsi 22

**Əlaqə:** (+994) 941



## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

### tabeliyindəki gəmilər üçün mühərrik starterlərinin satın alınması məqsədilə

### AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslərwww.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il noyabrın 28-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012)404-37-00, daxili: 1177.

Ünvan – AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.



## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

### tabeliyindəki gəmilər üçün yağ və yanacağ sayğaclarının satın alınması məqsədilə

### AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il noyabrın 28-i saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili: 1177

Ünvan – AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 253 (30369) 21 noyabr 2023-cü il, çərşənbə axşamı


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Konsert

## “Avroviziya 2024” seçiminin finalçıları

**İctimai TV-nin keçirdiyi qısa video-müsahibədə Azərbaycanı İsveçdə, “Avroviziya 2024” səhnəsində təmsil etməyə namizəd olan ifaçılar 7 suala cavab verərək, özlərini izləyicilərə daha yaxından tanıdıblar.**




İctimai TV-dən mətbuata bildirilib ki, namizədlər musiqi zövqləri, builki Avroviziya mahnıları, səhnə xəyalları barədə danışıblar.

Münsif səsverməsi nəticəsində finala keçən ifaçılar Aisel, Qorqud, Fahree, Mila Miles, İlkin Dövlətov və Etibar Əsədli triosu, Səbinə Quluzadə və Emy Liadır.

**N.AYTƏN**
**XQ**

İdman xəbərləri

## Şuşa komandası Çağırış Kubokunda

**Azərbaycan Voleybol Federasiyasının (AVF) baş koordinatoru Zöhrab Gözəlbəyliyə Avropa Voleybol Konfederasiyası növbəti dəfə etimad göstərib.**



Zöhrab Gözəlbəyli noyabrın 21-də Bakıda “Xarı Bülbül Şuşa” və Yunanıstanın “Panatinaikos ATHENS” klubları arasında təşkil ediləcək oyunda hakimlərin işinə qiymət verəcək. Belə ki, o kişi voleybolçular arasında Çağırış Kubokunun 1/16 final matçının supervayzeri təyin edilib. Görüşü türkiyəli Ramazan Çevik və monteneqrolu Yelena Mitroviç idarə edəcək.

## Bakıda beynəlxalq turnirin qalibləri



**Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan “Qol U-15” II beynəlxalq futbol turniri başa çatıb.**

“ASCO Arena”da keçirilən həlledici matçda Belarusun “U-15 Akademiya”sı “Zirə”ni 5:1 hesabla məğlub edərək turnirin qalibi olub. “Zirə” gümüş medala, 3-cü yer uğrunda matçda “Turan Tovuz”a qalib gələn “Neftçi” bürünc mükafata sahib olublar.

Turnirin ən məhsuldar oyunçusu Fateh Əsgərzadə (“Neftçi”), ən yaxşı oyunçusu Xaqan Şükürov (“Zirə”), qapıçısı isə Safi Rüstəm (“U-15 Akademiya”) seçiliblər.

## Voleybolçularımız gümüş və bürünc medal qazanıblar



**Azərbaycan millisinin voleybolçuları Polina Rəhimova və Odina Əliyeva Vyetnam çempionatında mükafata layiq yer tutublar.**

Heyətində Polina Rəhimovanın mübarizə apardığı “Xoa Çat Duk Qianq Tia Sanq” klubu liqanın gümüş medalını qazanıb. Odina Əliyevanın şərəfini qoruduğu “Binh Dyen Lonq An” isə bürünc medala layiq görülüb.

P.Rəhimova, həmçinin Vyetnam liqasının ən yaxşı hücumçusu adına layiq görülüb.

## Püşkatmada birinci səbətin tərkibi

**“Avro-2024”ün seçmə mərhələsinin püşkatma mərasiminə birinci səbətdən qatılacaq komandalar dəqiqləşib.**



Əsas qrupun tərkibi seçmə mərhələnin ötən gün keçirilən matçlarından sonra rəsmiləşib.

Birinci səbətdə ev sahibi Almaniya ilə yanaşı, Portuqaliya, Fransa, Belçika, İngiltərə və İspaniya yığmaları yer alıblar.

Türkiyə millisinin hansı səbətə düşəcəyi isə Uelslə oyunun nəticəsindən asılı olacaq. “Ay-ulduzlular” qrup liderliyini qoruyub saxlaya bilsələr, püşkatmaya ikinci, əks halda üçüncü səbətdən qoşulacaqlar.

Qeyd edək ki, Avropa çempionatının final mərhələsinin püşkatma mərasimi dekabrın 2-də Almaniyanın Hamburq şəhərində keçiriləcək.

***Leyla SABİRQIZI***
**XQ**

Mədəniyyət

# “Ağdam Şəhəri Günü” virtual sərgisi

**Azərbaycan Milli Kitabxanasının əməkdaşları “20 Noyabr Ağdam Şəhəri Günü” adlı virtual sərgi hazırlayıblar. Kitabxanadan bildirilib ki, virtual sərgidə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Prezident fərmanı, fotolar, dövri mətbuat səhifələrində Ağdam şəhəri haqqında dərc olunan məqalələr, Qarabağ zəfəri, Ağdam şəhərinin tarixi haqqında kitablar nümayiş olunur.**




Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Vətən müharibəsində əldə olunmuş tarixi Qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərinin təsis edilməsi haqqında Sərəncamına əsasən 20 noyabr “Ağdam şəhəri Günü” kimi qeyd olunur. Bu əlamətdar günün təsis olunması Ağdam şəhərinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi tarixi ilə bağlıdır.

**XQ**

Maraq dünyamız

## Napoleonun şlyapası – 2 milyon avro!

**İmperator I Napoleon Bonapartın ikikünclü şlyapası (bikorn) Fransanın Fontenblo şəhərində keçirilən hərracda rekord qiymətə – təxminən, 2 milyon avroya satılıb. Bu barədə “Osenat” hərrac evi məlumat yayıb.**

Bu məbləğ Napoleonun hərraca çıxarılan əşyaları üçün rekord olub. Hərrac başlamazdan əvvəl papaq 600–800 min avro (təxminən 1,1-1,2 milyon manat - red.) dəyərində qiymətləndirilib.

Bu günə qədər Napoleonun ən bahalı əşyası 2014-cü ildə hərracda Cənubi koreyalı bir iş adamının 1,8 milyon avroya aldığı digər şlyapası hesab olunurdu. Son dəfə hərraca çıxarılan şlyapa təxminən 1810-cu ilə aiddir və deyilənə görə, imperator onu Elba adasından qaçarkən “Inconstant” gəmisinin göyərtəsində başına qoyub.

Satılan şlyapa XIX əsrə qədər imperator sarayının mühafizəsinin



rəhbəri polkovnik Pyer Bayonun ailəsində saxlanılıb. Polkovnikin nəvəsi isə onu antikvar alış-verişi ilə məşğul olan şəxsə satıb.

***FİDAN***
**XQ**

Sağlamlıq

## “Çar mürəbbəsi” şəfa verir, arıqladır

**Orta əsrlərdə Avropada motmotudan şərab hazırlayır, mürəbbə bişirirlərmiş. Giləmeyvələr zümrüd daşlarına bənzədiyinə ona “çar mürəbbəsi” deyirmişlər. Toxumlardan təmizlənən hər giləmeyvənin içinə fındıq qoyulurmuş. Motmotu mürəbbəsi baha başa gəldiyindən yalnız varlıların evlərində bişirilirmiş.**

Motmotunun rəngi açıq yaşıldan yaqut rənginə qədər müxtəlif növü var. Güclü antioksidant kimi iltihabları azaldır, immun sistemini gücləndirir. Motmotuda C vitamini moruqdan 2 dəfə çoxdur. Giləmeyvə sinir sisteminin gərginliyini azaldan B6 vitamini ilə də zəngindir. Tərkibində bağırsaqların fəaliyyətinə müsbət təsir edən, orqanizmi zərərli maddələrdən təmizləyən pektin də var.



Motmotu mübadilə proseslərinə müsbət təsir edir, arıqlamağa kömək edir, anemiyadan əziyyət çəkənlər üçün faydalıdır. Giləmeyvəni bişirib suyunu qəbizlikdən əziyyət çəkənlərə verirlər. O, şişkinliyi azaldır, böyrəkləri və sidik kisəsini təmizləyir. Rutinlə zəngin olan bu faydalı giləmeyvə damarların sağlamlığını qorusa da, bəzən allergiyaya səbəb ola bilər.

***Z.HÜSEYNLİ***
**XQ**

Hava



## Hava soyuyur, yağıntı artır

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən noyabrın 21-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.**

Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayimləşəcək. Gecə 9-11°, gündüz birinci yarısında 11-13°, günün ikinci yarısında 7-9° isti olacaq. Atmosfer təzyiqi 748 mm civə sütunundan 759 mm civə sütununa yüksələcək, nisbi rütubət 75-85 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dağlıq və dağətəyi ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 11-16° isti, dağlarda gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.

***Q.QASIMOV***
**XQ**


✓ *“ŞÜVƏLAN UŞAQ BAĞÇASI” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus möhür itdiyi üçün etibarsız sayılır.*

✓ *2013-cü il iyulun 21-də Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Məcidova Gülşən Əlisafa qızının adına verilmiş 027 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*


# ALLAH RƏHMƏT ELƏSİN

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Milli Məclisin sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Milli Məclisin sədr müavini Fəzail İbrahimliyə bacısı

**XAVƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Azərsu” ASC-nin kollektivi cəmiyyətin energetika şöbəsinin rəisi Vüqar Hacıyevə atası

**ABDULRƏHMAN HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 4806 |
| SİFARİŞ | 3055 |
| QİYMƏTİ | 40 qəpik |

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00